institutional fatigue within the EU itself. This article analyzes the sustainability and credibility of the enlargement agenda, focusing on Ukraine, Moldova, and Georgia in comparison with long-standing candidates from the Western Balkans. It examines the structural, political, and emotional dimensions of enlargement, as well as the interaction between geopolitical necessity and institutional preparedness. Particular attention is paid to the role of public opinion, bilateral tensions, and the lessons of past enlargement waves in shaping future accession dynamics.

Keywords: European Union (EU), enlargement process, Western Balkans, Ukraine, Moldova, Georgia.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 iyun 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Lalə Əliyeva, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 327

KƏMALƏ RUİNTƏN
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Slavyan Universitetinin dosenti
https://orcid.org/0009-0006-1888-5240
k.ruintan@rambler.ru

ELMİ DİPLOMATİYA VƏ DİPLOMATİYANIN İNNOVATİV XÜSUSİYYƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/98-104

Müasir dövrdə mövcud problemlər və fürsətlər, demək olar ki, elm və texnologiyanın inkişafı ilə birbaşa bağlıdır və problemlərin həlli yalnız dövlətlərin və elmi birliklərin birgə fəaliyyəti ilə mümkündür. Bununla əlaqədar olaraq, XXI əsrdə "elmi diplomatiya" anlayışı meydana çıxmışdır. "Elmi diplomatiya" ilk olaraq akademik dairələrdə beynəlxalq elmi əməkdaşlıq olaraq yaradılmış, uzun müddət ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün vasitə rolunu oynamışdır. Sonralar onun tətbiqi məsələləri genişlənərək beynəlxalq elmi əməkdaşlıqdan kənara çıxmış, birbaşa yaxud dolayısı yolla diplomatik məqsədlərə xidmət etməyə başlamışdır. "Elmi diplomatiya" və "innovativ diplomatiya" anlayışları bir-biri ilə sıx bağlıdırlar. Belə ki, elm və yeni informasiya-kommunikasiya, həmçinin digər rəqəmsal texnologiyaların diplomatik proseslərə tətbiqi ilə diplomatiya innovativ xarakter alaraq öz ənənəvi metodlarından fərqli yeni xüsusiyyətlər əldə etmiş, onun yeni kreativ növləri və innovativ metodları formalaşmışdır. İnnovativ diplomatiya da öz növbəsində, elmi diplomatiyanın inkişafına töhfə verir və onun bütün ölçülərini əhatə edir. Göstərilənləri nəzərə alaraq, tarixi və nəzəri, transdissiplinar yanaşma, araşdırma və analiz metodlarından istifadə edilərək məqalədə "elmi diplomatiya" və "innovativ diplomatiya" anlayışları, onlar arasında əlaqə nəzərdən keçirilir.

Açar sözlər: elmi diplomatiya, innovasiya, innovativ diplomatiya.

Giriş. Zamanla elm və texnologiya cəmiyyətin bütün sahələrinə sirayət edərək həmin sahələri daha da təkmilləşdirmiş, onları müasir dövrün tələblərinə və çağrışlarına uyğunlaşdırmışdır. Eyni zamanda, müasir cəmiyyətdə mövcud problemlər və fürsətlər də demək olar ki, elm və texnologiyanın inkişafı ilə birbaşa bağlıdır. Buna görə də beynəlxalq problemlərin qarşısının alınması, həmçinin onların həlli yollarının araşdırılması dövlətlərin qarşılıqlı əməkdaşlığını və elmin bu əməkdaşlığa cəlb edilməsini tələb edir. Bu da öz növbəsində «elmi diplomatiya» anlayışını formalaşdırır. Uzun müddət ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün elm sahəsində əməkdaşlığı ifadə etmiş elmi diplomatiyanın bu gün tətbiqi məsələləri xeyli genişlənərək beynəlxalq elmi əməkdaşlıqdan kənara çıxır, birbaşa və ya dolayısı yolla diplomatik məqsədlərə xidmət edir. Elmi diplomatiya, eyni zamanda, innovativ əhəmiyyət daşıyır. Belə ki, elm və texnologiyanın diplomatiyaya tətbiq edilməsi ilə o, innovativ xarakter alır, öz ənənəvi metodlarından fərqlənən yeni xüsusiyyətlər əldə edir.

Elmi diplomatiya: yaranması və anlayışı. Elm və diplomatiya beynəlxalq münasibətlər tarixi boyunca bir-biri ilə sıx əlaqədə olaraq qarşılıqlı inkişaf ediblər. Bununla belə, elmi diplomatiyanın yaranma tarixi London Kral Cəmiyyətinin (Royal society)[*] təşəbbüsü ilə 1899-cu ildə Beynəlxalq Akademiyalar Assosiasiyasının (BAA – ing. International Association of Academies) təsis edildiyi vaxt hesab olunur. Avropanın 24 akademiyasını birləşdirən BAA əsas iki istiqamət - təbiət elmləri və humanitar elmlər olmaqla 31 elmi bölmə üzrə fəaliyyət göstərirdi [16, s.5-7]. Bu fakta əsaslanaraq

[*] *Royal Society (rəsmi adı: Təbiət Biliklərinin Təkmilləşdirilməsi üzrə London Kral Cəmiyyəti - Royal Society of London for the Improvement of Natural Knowledge) dünyanın ən qədim və ən nüfuzlu elmi müəssisələrindən biri, Böyük Britaniyanın Milli Elmlər Akademiyası. 1660-cı ildə yaradılıb və Britaniya siyasətinə böyük təsir göstərib. London Kral Cəmiyyəti 1723-cü ildə Xarici əlaqələr üzrə birinci katibi vəzifəsi təsis edib, onun işi müxtəlif ölkələrin alimləri ilə yazışmalar həyata keçirmək olmuşdur. Kral Cəmiyyətinin missiyası elmdəki nailiyyətləri tanımaq, təbliğ etmək və dəstəkləmək, elmin inkişafını və bəşəriyyətin rifahı naminə istifadəsini təşviq etməkdir* [17, s.90; 2].

demək olar ki, elmi diplomatiya ilk olaraq akademik dairələrdə beynəlxalq elmi əməkdaşlıq olaraq yaradılmışdır.

Lakin qloballaşma proseslərinin təsiri ilə elm və texnologiya qarşısında geniş perspektivlər açılmış və elmin xarici siyasətə və beynəlxalq əlaqələrə inteqrasiyası baş vermişdir. Uzun müddət ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafına xidmət etmiş elmi diplomatiyanın son onillərdə anlayışı və tətbiqi məsələləri elm və texnologiyanın inkişafı və təsiri ilə xeyli genişlənmişdir. Yəni, elm və texnologiya müasir cəmiyyətlər qarşısında duran bir çox problemlərin yaranmasında təkanverici amil olaraq çıxış edir, yaxud həmin problemlərin həlli elm və texnologiyanın istifadəsi ilə mümkün görünür. Eyni zamanda, qlobal çağırışlara qarşı müvafiq cavabların axtarılması və onların həlli müxtəlif milli dövlətlərin və elmi birliklərin eyni vaxtda birgə fəaliyyətini tələb edir [4]. Elmin diplomatiyaya inteqrasiyası diplomatiyaya qeyri-dövlət subyektlərinin daha çox cəlb edilməsinə və onların əhəmiyyətinin artmasına gətirib çıxarır [19, s.6].

Göstərilənlərə uyğun olaraq, XXI srdə"elmi diplomatiya" bir anlayış olaraq meydana çıxıb. 2000-ci illərin əvvəllərindən elmi diplomatiya - elm, texnologiya və innovasiya, ali təhsil və beynəlxalq münasibətlər sahələrini birləşdirərək fəal inkişaf etməyə başlayıb və beynəlxalq ictimaiyyətin müzakirə predmetinə çevrilib. Diskurs istirakçıları hesab edirlər ki, dövrün aktual qlobal çağırışlarının həlli yollarını məhz elmi diplomatiyanı (yəni, məqsədyönlü beynəlxalq elmi əməkdaşlığı) inkişaf etdirmklə tapmaq mümkündür. Eyni zamanda, elmi diplomatiyanın inkişaf etdirilməsi ilə ixtisaslı diplomatları beynəlxalq elmi fəaliyyət metodlarına uyğunlaşdırmaq, akademik tədqiqatçıları diplomatik fəaliyyətə cəlb etmək, ortaq elmi dəyərlərə və ümumi maraqlara əsaslanaraq xarici ictimaiyyətin rəğbətini qazanmaq, bu yolla ənənəvi diplomatiyada islahatlara nail olmaq nəzərdə tutulurdu [5].

İlk olaraq, 2008-ci ildə Amerika Elmin İnkişafı Assosiasiyası (AAAS[*]) öz Mərkəzini yaratmaqla elmi diplomatiya sahəsində rəsmi fəaliyyətə başlayıb. Həmin vaxt elmi ictimaiyyətin bəzi nümayəndələri "diplomatiya" və "elm" anlayışlarının birləşdirilməsini dəstəkləmirdilər. Onlar belə düşünürdülər ki "diplomatiya" diqqəti "elm"dən yayındıracaq və onu zəiflədəcək. Bununla belə, həmin dövrdən keçən müddət ərzində "elmi diplomatiya" anlayışı bütün dünyada qəbul edildi və ondan geniş şəkildə istifadə olunmağa başladı [12].

2009-cu ilin 1-2 iyun tarixində AAAS və London Kral Cəmiyyəti tərəfindən "Elmi diplomatiyanın yeni sərhədləri" mövzusuna birgə elmi-praktik konfrans keçirildi. Burada tarixi və müasir nümunələr əsasında elmin xarici siyasət məqsədlərinə necə töhfə verə biləcəyi araşdırıldı. 2010-cu ildə konfransın dərc edilmiş nəticələrində "elmi diplomatiya"ya konkret tərif verilməsə də onun elm, texnologiya və innovasayaya üç ölçüdə fayda verəcəyi müəyyənləşdirildi. Bunlar:

1) diplomatiyada elm (*Science in diplomacy*) – xarici siyasət məqsədlərinin formalaşdırılmasına elmin köməyi;

2) elm üçün diplomatiya (*Diplomacy for science*) – beynəlxalq elmi əməkdaşlığa diplomatik yardım;

3) diplomatiya üçün elm (*Science for diplomacy*) – beynəlxalq əlaqələrin yaxşılaşdırılması məqsədilə elmi əməkdaşlıqdan istifadədir [11].

Beləliklə, elmi diplomatiya yalnız diplomatiya haqqında elm və beynəlxalq elmi əməkdaşlıq olmaqla məhdudlaşmır, o həm də birbaşa, yaxud dolayı yolla diplomatik məqsədlərə çatmağın mümkün yollarının araşdırılıb müəyyənləşdirilməsinə xidmət edir [13; 14, s.20].

Getdikcə daha çox dövlət ümimi təhdidləri dəyərləndirir, elm və texnologiyanın beynəlmiləlləşdirilməsi imkanlarını araşdırır, elm və xarici siyasətin inteqrasiyası proseslərinə qoşulurlar. Müxtəlif dövlətlərin elmi-texnoloji və innovasiya imkanlarının eyni olmaması, həmçinin fərqli rejimləri onların elmi diplomatiya sahəsində əməkdaşılqla bağlı yanaşmalarının da müxtəlif olmasını şərtləndirir.

[*] *AAAS (The American Association for the Advancement of Science) - Amerika Elmin İnkişafı Assosiasiyası 1848-ci ildə yaradılmış beynəlxalq qeyri-kommersiya təşkilatıdır. Assosiasiyanın əsas məqsədi alimlər arasında əməkdaşlığı təşviq etmək, tədqiqat azadlığını qorumaq, elmi məsuliyyəti təşviq etmək və bütün bəşəriyyətin rifahı naminə təhsili və elmi dəstəkləməkdir. Amerika assosiasiyasının əsas fəaliyyət istiqamətlərindən biri elmi siyasət, diplomatiya, təhsil sistemi və digər sahələrdə təşəbbüslərin həyata keçirilməsi yolu ilə elmin inkişafıdır. AAAS-ın 2008-ci ildə yaradılmış Mərkəzi 2012-ci ildən elmi əməkdaşlıq və xarici siyasətin qovuşduğu siyasi diskurs platforması olan "Science & Diplomacy" adlı hamı üçün açıq olan onlayn jurnal istifadəyə verib* [9; 22, s 42-44].

Bununla belə, elmi diplomatiya sahəsində müzakirələr aparılır və ümumi yanaşmalar formalaşdırılmaqda davam edir. Buna uyğun olaraq, 2018-ci ilin dekabr ayında Aİ-nin layihəsi olan S4D4C* tərəfindən Madrid şəhərində dünyanın müxtəlif ölkələrindən olan ekspertlərin iştirakı ilə elmi diplomatiyanın bu günü və gələcəyini, qlobal çağırışların həllində onun rolunu, Aİ və onun hüdudlarından kənarda elmi diplomatiyanın bütün potensialından istifadə imkanlarını müzakirə etmək məqsədilə "Avropa İttifaqının 2020-ci ildən sonra elmi diplomatiyası" adlı ilk qlobal toplantı təşkil etdi. Müzakirələrin nəticəsi olaraq konfransda iştirak edən yüksək səviyyəli ekspertlər qrupu 2019-cu ilin fevral ayında "Elmi diplomatiya üzrə Madrid Bəyannaməsi" imzaladı. Bəyannaməyə əsasən **elmi diplomatiya** – elmin, texnologiyaların və xarici siyasətin qovuşma nöqtəsində olan təcrübələr məcmusu olaraq qəbul edildi. Bəyannamə, eyni zamanda, elmi diplomatiyanın gələcəyi ilə bağlı ümumi baxışı elan etdi, onun müasir dövrün qlobal çağırışlarının həlli potensialını vurğuladı və bütün dünyada elmi diplomatiyanın inkişaf prinsiplərini müəyyən etdi [13].

"Elmi diplomatiya" özündə həm nəzəri əsasları, həm də konkret praktiki elementləri birləşdirməklə mürəkkəb və çoxmənalı anlayışdır. Bir çox inkişaf etmiş ölkələrin xarici siyasət idarələrinin strukturunda elmi diplomatiyaya cavabdeh olan xüsusi şöbələr var. Təşkilati baxımdan bu, səfirlikdə xüsusi attaşe, elmi müəssisələr, yaxud kifayət qədər müstəqil şöbələr ola bilər [7].

Elm və texnologiyanın xarici siyasətə inteqrasiyası, beynəlxalq proseslərin rəqəmsallaşması diplomatiyaya təsir göstərdi və onun innovativ xarakter alaraq öz ənənəvi metodlarından fərqlənən yeni xüsusiyyətlər əldə etməsinə imkan verdi. Elmi diplomatiyanın getdikcə məlumatlara (verilənlər - data) əsaslanacağı, rəqəmsal olacağı, süni intellekt tərəfindən dəstəklənəcəyi proqnozlaşdırılır. Həmçinin, elmi diplomatiyanın - süni intellekt, kvant hesablamaları, neyrotexnologiya, genomik tibb və rəqəmsal infrastruktur kimi sahələrdə beynəlxalq normaların yaradılması üçün strateji alətə çevirəcəyi labüddür [10, s.92].

İnnovasiya: anlayışı və təsnifatı. "İnnovasiya" sözü latın dilində "innovare" (yenilik etmək) felindən düzəldilmiş "innovationem" sözündən götürülüb, mənası "dəyişmə və ya yenilənmə" deməkdir [24]. "İnnovasiya" anlayışı sosial həyatın bütün sahələrində əhəmiyyətli təkmilləşdirmələrə, tərəqqiyə, yaxud sıçrayışlara səbəb ola biləcək yeni ideyaların, məhsulların, xidmətlərin, proseslərin və metodların yaradılması prosesidir [6]. Qeyd etmək lazımdır ki, "innovasiya" anlayışı ilk olaraq XIX əsrdə mədəniyyətşünaslığa aid elmi tədqiqatlarda meydana çıxıb və bir mədəniyyətin müəyyən elementlərinin digərinə (əsasən də Avropa adətlərinin ənənəvi Asiya və Afrika cəmiyyətlərinə) daxil edilməsini ifadə edirdi. XX əsrin əvvəllərində elmi-texniki tərəqqinin sürətli inkişafı ilə texniki yeniliklər cəmiyyətdə aparıcı rol oynamağa başlayır, buna görə də, uzun müddət innovasiya ilk növbədə texnologiya və istehsal texnikasındakı dəyişikliklərlə əlaqələndirilir. Bu dəyişikliklərin də daha sonra digər – iqtisadi və sosial dəyişikliklərə gətirə biləcəyi düşünülürdü. Lakin sonradan "innovasiya" anlayışı iqtisadiyyatla daha sıx işlədilməyə başlamışdır [20, s.15].

İnnovasiya insanın intellektual və yaradıcı fəaliyyətinin nəticəsidir [23, s.23]. Lakin istənilən yeniliyi, yaxud ixtiranı innovasiya adlandırmaq olmaz. İnnovasiyanın əsas xüsusiyyəti ondan ibarətdir ki, o, əlavə dəyər yaradır və praktiki əhəmiyyətə malikdir. Yəni, yuxarıda qeyd etdiyimiz kimi, əhəmiyyətli təkmilləşdirmələrə, tərəqqiyə, yaxud sıçrayışlara səbəb olan, həyata keçirilməsi ilə prosesin səmərəliliyinin (yaxud məhsulun keyfiyyətinin) artmasını təmin edən yenilikdir [6; 23, s.15; 18]. Bütün yeniliklər, o cümlədən ictimai-siyasi innovasiya onu təşviq edə biləcək konkret sosial mühitdə baş verir [23, s.27]. Hər sahə özünəməxsus innovativ inkişaf xüsusiyyətlərinə malikdir.

İnnovasiyada müəyyən dualizm mövcuddur. Burada innovasiya həm proses, həm də bu prosesin nəticəsi olaraq qəbul edilir [23, s.19]. Birinci halda innovasiya daha geniş mənada - yeni texnologiya-

---

* *S4D4C (Using Science for/in Diplomacy for Addressing Global Challenges - Qlobal Çağırışların Həll edilməsi üçün Diplomatiyada Elmdən İstifadə) - 2018-ci ilin yanvarından 2021-ci ilin aprelinə qədər Aİ-nin xarici siyasət məqsədlərinə və DİM-ə sadiqliyinə kömək etmək üçün bir vasitə kimi elm diplomatiyasını dəstəkləmək məqsədilə həyata keçirilmiş layihədir. Əsas məqsədi Avropanın maraqlarına uyğun olaraq Aİ-nin xarici siyasət məqsədlərinin və xüsusilə qlobal çağırışlar üçün həll yollarının inkişafı naminə cari və gələcək Avropa elmi diplomatiyasını dəstəkləmək idi* [1]. *(DİM – Dayanıqlı İnkişaf Məqsədləri (ing. Sustainable Development Goals (SDGs)) 2015-ci ildə BMT Baş Assambleyası tərəfindən "hamı üçün daha yaxşı və daha dayanıqlı gələcək naminə plan" olaraq hazırlanmış bir-biri ilə əlaqəli 17 məqsəddən ibarət toplu.*

ların işlənib hazırlanması və onların tətbiqi prosesi olaraq nəzərdən keçirilir. Bu yanaşma real idarəetmə təcrübəsində istifadə olunur. İkinci halda isə innovasiya daha dar mənada nəzərdən keçirilir və son nəticəsini, yəni prosesin sonunda əldə edilən nəticəni - yeniliyi nəzərdə tutur. Məsələn, ağıllı robototexnika, süni intellekt və ya neyron şəbəkələri [18].

İnnovasiya müxtəlif xüsusiyyətlərinə görə təsnif edilir. Məsələn, tətbiq sahəsinə görə: sosial, maddi-texniki, iqtisadi, təşkilati-idarəçilik, hüquq, pedoqogika, diplomatiya və s. varislik (davamedicilik) xüsusiyyətinə görə: tamamlayıcı, yəni bu halda yenilik köhnəni sıxışdırıb çıxarmır, onu daha da təkmilləşdirir; - əvəzləyici, yəni özündən əvvəl mövcud olanı sıxışdırıb çıxarır; sıçrayışedici, yəni qlobal prosesləri və insan həyatında əhəmiyyətli sışrayışlara səbəb olur. Miqyasına görə: - qlobal səviyyəsində; - ölkə səviyyəsində; - hər hansı təşkilat çərçivəsində; - müxtəlif sahələr üzrə [18].

İnnovativ diplomatiya: xüsusiyyətləri və növləri. Mürəkkəb proseslərin getdiyi müasir dünyada ənənəvi diplomatik metodlar heç də həmişə meydana çıxan çoxsaylı problemlərin və münaqişələrin həlli üçün yetərli deyil. Buna görə də ən aktual qlobal çağırışların həlli yollarını tapmaq üçün kreativ və innovativ gücdən və metodlardan istifadə etmək zərurəti yaranır. Diplomatiyanın innovativ xarakteri də qlobal geosiyasi arenada milli maraqlara nail olmaq məqsədilə əvvəllər istifadə edilməmiş müxtəlif vasitə və yanaşmalardan istifadəni əks etdirir. Diplomatiyada innovasiya, əsasən, texnologiyanın inkişafı və beynəlxalq proseslərin rəqəmsallaşması ilə bağlıdır. Yəni, diplomatiyada innovasiya yeni informasiya-kommunikasiya və digər rəqəmsal texnologiyaların diplomatik prosesin həyata keçirilməsinə zamanı tətbiqinə əsaslanır. Diplomatiyada təsir subyektlərindən fərqli olaraq, qarşılıqlı təsir metodları daha dəyişkəndir və bu sahədə tətbiq edilən texnoloji yenilik də ilk növbədə həmin metodlara təsir edir. Texnologiya beynəlxalq siyasi proseslərin yerləşdiyi mühitin məkan və zaman xüsusiyyətlərini dəyişmək qabiliyyəti əldə edir və aktorların qlobal məkanda hərəkət sürətini, informasiyanın məsafədən asılı olmayaraq qəbuledilmə və ötürülmə surətini, onun asanlığını və s. amilləri müəyyən edir. Diplomatiyada innovasiya öz tətbiq sahəsinə görə diplomatiya sahəsində baş verir, özündən əvvəlki metod və üsulları sıxışdırıb çıxarmır, tamamlayıcı və təkmilləşdirici xarakter daşıyır. Məsələn, İnternet beynəlxalq mühitin infrastrukturunun keyfiyyət xüsusiyyətlərinə transformativ təsir göstərir, subyektlərin qarşılıqlı əlaqə tərzini və metodunu dəyişdirən həlledici amilə çevrilir [15, s.76]. Diplomatiya həm beynəlxalq, həm də milli qanunlara əsaslandığı üçün öz miqyasina görə hər dörd (qlobal, ölkə, təşkilat, sahəvi) səviyyəni əhatə edə bilər. Yəni, burada innovasiya diplomatiya sahəsini əhatə etməklə həm müəssisə (XİN) səviyyəsində, həm ölkə səviyyəsində, həm də qlobal səviyyədə mümkündür.

Dövlətlər öz xarici siyasət məqsədlərinə çatmaq və öz mövqelərini möhkəmlətmək məqsədilə tarix boyu ən təsirli metodlar yaratmağa və tətbiq etməyə çalışıblar. Dövrümüzdə də ənənəvi diplomatik metodlar getdikcə mürəkkəbləşən xarici siyasətdə effektli nəticə vermədiyi üçün diplomatiyanın "kreativ" növləri və metodları tətbiq edilməyə başlayıb. Bunun nəticəsində, uzun təkamül prosesi keçmiş diplomatiyanın ənənəvi qaydalarından fərqli müxtəlif növləri, o cümlədən kreativ növləri və metodları formalaşıb. Məsələn, iqtisadi diplomatiya; enerji diplomatiyası; atom diplomatiyası: hərbi diplomatiya; regional diplomatiya; paradiplomatiya; şəhər diplomatiyası; telefon (kabel) diplomatiyası; ictimai diplomatiya; kiberdiplomatiya; idman diplomatiyası; tibb diplomatiyası; peyvənd diplomatiyası və s.

XXI əsrdə informasiya texnologiyalarının inkişafı, kiberməkanın və sosial şəbəkələrin rolunun sürətlə artması da dövlətlərin müxtəlif sahələrlə yanaşı xarici siyasət fəaliyyəti üçün yeni reallıqlar yaradıb. Bu gün hər bir xarici siyasət məqsədinin həyata keçirilməsi rəqəmsal diplomatiya vasitəsilə dəstəklənir. Əvvəllər nisbətən "gizli" fəaliyyət sahəsi sayılan diplomatiya informasiya cəmiyyətinin inkişafı sayəsində getdikcə daha çox ictimailəşib, adi vətəndaşlar üçün də daha əlçatan olub. Diplomatiyanın rəqəmsallaşması və yaranmış yeni informasiya mühiti dövlətlər qarşısında xarici siyasətlərini həyata keçirmək üçün yeni imkanlar açıb. Son illərdə datafikasiya[*] və diplomatik fəaliyyətə süni intellektin tətbiqi məsələsi xüsusilə aktuallıq kəsb etməyə başlayıb [21, s.229; 8, s.915]. Buna uyğun olaraq, diplomatiyanın innovativ növləri yaranıb. Məsələn, telediplomatiya, kiberdiplomatiya, şəbəkə diplomatiyası, data (informasiya) diplomatiyası və s.

XX əsr boyu fiziki görüşlər və yazılı sənədlər rəsmi diplomatik danışıqların əsas vasitəsi olaraq qalsa da həmin əsrin sonlarında internetin yaranması diplomatik münasibətlərdə əsaslı dəyişikliklərə

[*] *datafikasiya fiziki obyektlər (insanlar, obyektlər və s.) haqqında rəqəmsal məlumatların əldə edilməsi və istifadəsidir.*

səbəb olub. E-poçt rabitəsi tez bir zamanda diplomatik yazışmalar üçün standart alətə çevrildi və diplomatlara sürətli və "təhlükəsiz" məlumat mübadiləsi vasitələri təklif etdi [3]. Qeyd etmək lazımdır ki, texnologiyalar müəyyən funksiyaları avtomatlaşdırmaq, prosesləri təkmilləşdirmək və komanda daxilində məhsuldarlığı artırmaq üçün zəruri alətlər və texnologiyalarla təmin etmək potensialına malikdirlər. Buna (həmçinin dövrün pondemiya və s. kimi qlobal çağırışlarına) uyğun olaraq, beynəlxalq münasibətlərin subyektləri arasında virtual görüşlər və danışıqlar təşkil edilməyə başladı. Eyni zamanda, rəqəmsal platformalar və sosial media ictimai diplomatiya və qlobal auditoriya ilə əlaqə üçün yeni imkanlar təqdim etdilər. Diplomatlar bu platformalardan məlumat yaymaq, vətəndaşlarla ünsiyyət qurmaq və ölkələrinin xarici siyasətləri haqqında ictimai təsəvvürləri formalaşdırmaq üçün istifadə etməyə başladılar [3].

Nəticə. Tədqiqatdan məlum olur ki, elmi diplomatiya ilk olaraq akademik dairələrdə beynəlxalq elmi əməkdaşlıq olaraq yaradılmış və uzun müddət elm sahəsində əməkdaşlığı ifadə edərək ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün bir vasitə olmuşdur. Lakin sonralar elmi diplomatiyanın tətbiqi məsələləri genişlənərək beynəlxalq elmi əməkdaşlıqdan kənara çıxmış, birbaşa və ya dolayısı yolla diplomatik məqsədlərə xidmət etməyə başlamışdır.

Elm və texnologiyanın xarici siyasətə inteqrasiyası və beynəlxalq proseslərə qeyri-dövlət subyektlərinin cəlb edilməsi diplomatiyaya təsir göstərmiş, onun innovativ xarakter alaraq öz ənənəvi metodlarından fərqli yeni xüsusiyyətlər əldə etməsinə imkan vermişdir. Diplomatiyanın əsas innovativ xüsusiyyəti yeni informasiya-kommunikasiya və digər rəqəmsal texnologiyaların diplomatik proseslər zamanı tətbiqi ilə bağlıdır. Son illərdə datafikasiya və diplomatik fəaliyyətə süni intellektin tətbiqi məsələlərinin xüsusilə aktuallıq kəsb etməsi ilə diplomatiyanın bir sıra innovativ metod və növləri (şəbəkə diplomatiyası, data (informasiya) diplomatiyası, süni intellekt diplomatiyası, virtual səfirlik, rəqəmsal danışıqlar və s.) yaranmışdır.

Elmi diplomatiya və innovativ diplomatiya bir-biri ilə qarşılıqlı təsirə malikdirlər. Belə ki, innovativ diplomatiya da öz növbəsində, elmi diplomatiyanın inkişafını dəstəkləyir və onun hər üç ölçüsünü əhatə edir. Yəni: 1 - xarici siyasət məqsədlərinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində elmi araşdırmalar və alınan nəticələrin tətbiqi metodlarının müəyyənləşdirilməsi, həmçinin texnoloji yeniliklərin diplomatiyada tətbiqi "diplomatiyada elm" ölçülərini əhatə edir; 2 – beynəlxalq münasibətlər sahəsi müxtəlif ölkə alimlərinin və mütəxəssislərinin birgə səyi ilə araşdırılmanı, yaxud tədqiqatların nəticələrinin uyğunlaşdırılmasını tələb etdiyi üçün dövlətlər arasında fikir və təcrübə mübadilələri aparmaq istiqamətində elmi əməkdaşlığı təşviq edir. Bu da öz növbəsində, beynəlxalq elmi əməkdaşlığa diplomatik yardım məsələsini meydana çıxarır və "elm üçün diplomatiya" ölçüsünə uyğundur; 3 - istənilən sahədə əməkdaşlıq dövlətlər arasında münasibətlərin və əlaqələrin yaxşılaşdırılması məqsədi daşıdığı üçün elmi əməkdaşlıq da beynəlxalq əlaqələrin yaxşılaşdırılmasına xidmət edir və "diplomatiya üçün elm" ölçüsunə uyğundur.

ƏDƏBİYYAT

1. About S4D4C URL: https://www.s4d4c.eu/about/ [01.10.2025].
2. About the Royal Society URL: https://royalsociety.org/about-us/ [01.10.2025].
3. Allahverdiyeva N. Virtual diplomacy: digital communication and security in international relations URL:
https://www.academia.edu/122982901/Virtual_diplomacy_Digital_commun%C4%B1cat%C4%B1on_and_security_in_international_relat%C4%B1ons [01.10.2025].
4. Epping E. Lifting the smokescreen of science diplomacy: comparing the political instrumentation of science and innovation centres // Springer Nature Limited. 30.09.2020. URL:
https://doi.org/10.1057/s41599-020-00599-4 [01.10.2025].
5. Flink T. Why Science Diplomacy Needs Evaluative Backing. S4D4C Policy Brief, 2021. URL:
https://www.academia.edu/45139444/Why_science_diplomacy_needs_evaluative_backing [01.10.2025].
6. Innovation: Meaning, Types, Phases and Barriers URL: https://www.geeksforgeeks.org/business-studies/innovation-meaning-types-phases-and-barriers/ [01.10.2025].

7. Leijten Jos. Exploring the future of innovation diplomacy / European Journal of Futures Research, December 2017, 5 (1) DOI:10.1007/s40309-017-0122-8
8. Metin Aksoy, Ahmet Servet Chichek. Redefining diplomacy in the 21st century & examining the characteristics of an ideal diplomat // MANAS Journal of Social Studies 2018. Vol.: 7, No: 3. Pp.907-921
9. Mission and History URL: https://www.aaas.org/mission [01.10.2025].
10. Mustafa Versan. From Cooperation to Contestation: The Normative Turn in Science Diplomacy (2010–2025) (pp.83-95) URL: https://tuba.gov.tr/files/yayinlar/bilim-ve-dusun/TUBA-978-625-6110-39-7_ch08.pdf [01.10.2025].
11. New frontiers in science diplomacy. — London: The Royal Society, 2010 URL: https://royalsociety.org/-/media/policy/publications/2010/4294969468.pdf [01.10.2025].
12. Rush Holt. Scientific Drivers for Diplomacy (06.29.2015) https://www.sciencediplomacy.org/perspective/2015/scientific-drivers-for-diplomacy [01.10.2025].
13. S4D4C. 2019. The Madrid Declaration on Science Diplomacy. Madrid: S4D4C. URL: https://www.s4d4c.eu/s4d4c-1st-global-meeting/the-madrid-declaration-on-science-diplomacy/ [01.10.2025].
14. Zane Šime. Why Active Listening is an Essential Ingredient in the EU's Science Diplomacy 'Laboratories'. ETHICS IN DIPLOMACY // USC Center on Public diplomacy magazine. SPRING/SUMMER 2020, Pp.19-22
15. Голубев Д. Наука и инновации в теориях международных отношений // Международные процессы. Том 13. Номер 2 (41). Апрель-июнь / 2015 сс. 66-80 DOI 10.17994/IT.2015.13.2.41.5
16. Горохов А., Виторович З., Макоева Д. Истоки научной дипломатии: Международная ассоциация академий, Пагуошские и Дартмутские конференции // Русская политология — Russıan polıtıcal scıence. 2022. № 1 (22) с.5-27
17. Гутенев М.Ю. Научная дипломатия в истории международных отношений // Теории и проблемы политических исследований. 2024. Том 13. № 7А. С. 89-100
18. Инновация (02.07.2024) URL: https://www.unisender.com/ru/glossary/innovacii-opredelenie-i-vidy/#anchor-1 [01.10.2025].
19. Краснова Г.А. Научная дипломатия в современном мире: учеб.-метод. материалы № 9/2021 / [Г.А.Краснова]; [вып. ред.: Е.О. Карпинская, И.А. Бочаров]; Российский совет по международным делам (РСМД). — М.: НП РСМД, 2021. — 48 с.
20. Кирсанова Е.Г. Инновации как политологическая категория // Вестн. Моск. ун-та. сер. 12. Политические науки. 2012. № 1. С.15-24
21. Павлюченко А.А. Методы изучения цифровой дипломатии в российских международно-политических исследованиях // Вестник Московского университета. Серия 25: Международные отношения и мировая политика. 2024. Т. 16. № 4. С. 225–250. DOI: 10.48015/2076-7404-2024-16-4-225-250
22. Романова М.Д. Научная дипломатия: измерения и практики // Управление наукой и наукометрия. 2017. №1 (23), стр. 38-52 URL: https://cyberleninka.ru/article/n/nauchnaya-diplomatiya-izmereniya-i-praktiki [01.10.2025].
23. Сунгуров А.Ю. Как возникают политические инновации : «фабрики мысли» и другие институты-медиаторы / А. Сунгуров. М.: Политическая энциклопедия, 2015. – 283 с.
24. Экономика инноваций https://books.econ.msu.ru/Economics-of-innovation/sect01/chap01/1.1/1.1.1/ [01.10.2025].

КАМАЛА РУИНТАН
Доцент Бакинского Славянского Университета,
Доктор философии по политическим наукам

НАУЧНАЯ ДИПЛОМАТИЯ И ИННОВАЦИОННЫЕ ОСОБЕННОСТИ ДИПЛОМАТИИ

Проблемы и возможности, существующие в наше время, практически напрямую связаны с развитием науки и техники. А решение проблем возможно только совместной деятельностью

государств и научных объединений. В связи с этим в XXI веке появилось понятие “научная дипломатия”. "Научная дипломатия" впервые была создана в академических кругах как международное научное сотрудничество и, долгое время служила средством развития двусторонних и многосторонних отношений. Позднее вопросы его применения расширились и вышли за рамки международного научного сотрудничества, прямо или косвенно стали служить дипломатическим целям. Понятия” научная дипломатия “и” инновационная дипломатия " тесно взаимосвязаны. Так как, с внедрением в дипломатические процессы науки и новых информационно-коммуникационных, а также других цифровых технологий дипломатия приобрела инновационный характер приобрела новые свойства, отличные от традиционных методов, сформировались ее новые креативные виды и инновационные методы. Инновационная дипломатия, в свою очередь, способствует развитию научной дипломатии и охватывает все ее измерения. Учитывая вышеизложенное, в статье рассматриваются понятия «научная дипломатия» и «инновационная дипломатия» и соотношение этих понятий с использованием историко-теоретических, трансдисциплинарных подходов и методов исследования и анализа.

Ключевые слова: научная дипломатия, инновации, инновационная дипломатия

KAMALA RUINTAN
Associate professor of Baku Slavic University,
Doctor on Philosophy in Political Science

SCIENTIFIC DIPLOMACY AND INNOVATIVE FEATURES OF DIPLOMACY

The problems and opportunities that exist today are closely linked to the development of science and technology. Solving these problems requires the joint efforts of states and scientific organizations. This is why the concept of “scientific diplomacy” emerged in the 21st century. Scientific diplomacy was first established in academic circles and for a long time meant international cooperation in the field of science. Later, the issues of its application expanded and went beyond international scientific cooperation and began to serve the goals of diplomacy directly or indirectly. The concepts of “scientific diplomacy” and “innovative diplomacy” are closely related. Since the introduction of science, new information and communication technologies, as well as other digital technologies into diplomatic processes, diplomacy has become innovative. It has acquired new properties that differ from traditional methods and new types and innovative methods of diplomacy have emerged. Innovative diplomacy, in turn, contributes to the development of scientific diplomacy and encompasses all its dimensions. Considering this, the article explores the concepts of “scientific diplomacy” and “innovative diplomacy”, as well as the relationship between these concepts, using historical, theoretical, and transdisciplinary approaches and research methods.

Keywords: science diplomacy, innovation, innovative diplomacy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: s.e.ü.f.d. Ziya Səmədli, s.e.d. Adil Mirabdullayev.

UOT 32:93/94

GÜLGÜN QULİYEVA
Bakı Dövlət Universitetinin
Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası, s.e.f.d.
ORCİD 0009-0003-9754-3588
gulgun2004@mail.ru

RUSİYA, İRAN VƏ QƏRB ARASINDA: AZƏRBAYCANIN DENGE SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/105-113

Bu məqalə Azərbaycanın mürəkkəb regional və qlobal geosiyasi mühitdə yürüdüyü denge siyasətini təhlil edir. Azərbaycanın xarici siyasətində əsas məqam kimi çıxış edən bu strategiya, ölkənin Rusiya, İran və Qərb kimi güc mərkəzləri arasında balanslaşdırılmış və çoxşaxəli əlaqələr qurmasına əsaslanır. Məqalədə Azərbaycanın müstəqillikdən sonrakı xarici siyasət doktrinası, Rusiya və İranla tarixi, mədəni və siyasi bağlar, enerji və təhlükəsizlik sahəsində əməkdaşlıq və qarşılıqlı maraqlar, həmçinin Qərb dövlətləri ilə strateji tərəfdaşlıq və yaranan gərginliklər geniş şəkildə araşdırılır. Azərbaycanın çoxvektorlu xarici siyasət modeli, enerji resurslarının səmərəli istifadəsi və regional sabitliyin qorunması məqsədilə həyata keçirilən denge siyasəti, ölkənin suverenliyini və beynəlxalq nüfuzunu artırmaqda mühüm rol oynayır. Eyni zamanda, qlobal və regional güclərin təzyiqləri, etnik və təhlükəsizlik məsələləri bu siyasətin tətbiqində ciddi çağırışlar yaradır. Məqalə Azərbaycanın geostrateji mövqeyini nəzərə alaraq, onun denge siyasətinin aktuallığını və gələcəkdə strateji prioritetlərini qiymətləndirir. Nəticədə, məqalə Azərbaycanın regional və beynəlxalq səviyyədə çevik və balanslı xarici siyasət yürütməsinin həm daxili sabitlik, həm də regional əməkdaşlıq üçün əsas şərt olduğunu vurğulayır.

Açar sözlər: denge siyasəti, çoxvektorlu xarici siyasət, enerji diplomatiyası, regional təhlükəsizlik, Xarici siyasət doktrinası, Qarabağ münaqişəsi, regional balans, beynəlxalq münasibətlər.

Giriş. Qlobal beynəlxalq münasibətlər sistemində güc balansının sürətlə dəyişdiyi, yeni münaqişə ocaqlarının meydana gəldiyi və regional güclərin fəallaşdığı bir dövrdə, kiçik və orta dövlətlərin xarici siyasət strategiyaları daha da əhəmiyyət kəsb edir. 2022-ci ildən sonra Rusiya ilə Qərb arasında açıq qarşıdurma fazasına keçmiş münasibətlər, İranın nüvə proqramı və regional ambisiyalarla bağlı təzyiqlərin artması, eyni zamanda Qərbin enerji təhlükəsizliyi və Cənubi Qafqazda maraqlarının genişlənməsi Azərbaycan üçün həm risklər, həm də imkanlar yaradıb. Belə bir mürəkkəb beynəlxalq mühitdə Azərbaycanın yürüdüyü **denge siyasəti** onun suverenliyini, sabitliyini və beynəlxalq legitimliyini qorumaq baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan nə yalnız Rusiyanın orbitində yer alır, nə də Qərb yönümlü kəskin siyasi kurs yürüdür. Eyni zamanda İranla münasibətləri tamamilə gərgin zəmində deyil, qarşılıqlı ehtiyac və praqmatizm üzərində qurulmuş formatda saxlayır. Bu isə ölkənin balanslı, çoxvektorlu xarici siyasət yürütmək bacarığının nümunəsidir. Azərbaycanın coğrafi mövqeyi Xəzər regionu, Cənubi Qafqaz və Orta Şərqin kəsişməsində yerləşməsi onu həm enerji tranziti, həm təhlükəsizlik, həm də diplomatik qarşılıqlı əlaqələr baxımından regional düyün nöqtəsinə çevirir. Üstəlik, Ermənistanla münasibətlərin yeni mərhələyə keçməsi, Zəngəzur dəhlizi məsələsi, Türk Dövlətləri Təşkilatında fəallıq və Qərbin alternativ enerji marşrutları axtarışında Azərbaycanın önə çıxması bu siyasətin aktuallığını daha da artırır. Belə şəraitdə Azərbaycanın hər üç tərəflə Rusiya, İran və Qərb münasibətləri tarazlı şəkildə idarə edə bilməsi yalnız onun daxili sabitliyi üçün deyil, həm də bütövlükdə regionun təhlükəsizliyi üçün kritik əhəmiyyət daşıyır. Bu baxımdan, mövcud geosiyasi şərtlər kontekstində Azərbaycanın denge siyasətini təhlil etmək, onun uğur şərtlərini və qarşılaşdığı çağırışları müəyyənləşdirmək həm elmi, həm də praktiki baxımdan son dərəcə aktualdır.

Bu məqalənin əsas məqsədi Azərbaycanın xarici siyasətində denge yəni balanslaşdırılmış və çoxşaxəli münasibətlər strategiyasının mahiyyətini, tətbiq formalarını və aktuallığını Rusiya, İran və

Qərb kontekstində elmi şəkildə təhlil etməkdir. Məqalə Azərbaycanın hər üç güc mərkəzi ilə qurduğu münasibətlər sistemini ayrılıqda və qarşılıqlı təsirlər çərçivəsində araşdıraraq, balanslaşdırılmış siyasətin geosiyasi əsaslarını və bu siyasətin uğur şərtlərini üzə çıxarmağı hədəfləyir.

Bununla yanaşı, məqsəd Azərbaycanın bu siyasət çərçivəsində qarşılaşdığı çağırışları o cümlədən regional sabitlik, enerji təhlükəsizliyi, suverenlik riski və diplomatik təzyiqləri qiymətləndirmək və çoxqütblü beynəlxalq sistemdə necə manevr etdiyini ortaya qoymaqdır. Eyni zamanda məqalə Azərbaycanın strateji tərəfdaşlıq seçimlərinin geoiqtisadi və geopolitik nəticələrini dəyərləndirərək, gələcək perspektivlərə dair elmi əsaslı nəticə və tövsiyələr təqdim edir. Beləliklə, bu məqalə həm Azərbaycan diplomatiyasının rasional əsaslarını izah etməyə, həm də regional sabitlik və beynəlxalq münasibətlər üzrə nəzəri-tətbiqi təhlil üçün töhfə verməyə yönəlmişdir. Azərbaycan Respublikası, geosiyasi baxımdan dünyanın ən mürəkkəb və strateji əhəmiyyətə malik bölgələrindən biri olan Cənubi Qafqazda yerləşir. Həm Rusiya Federasiyası, həm İran İslam Respublikası, həm də Qərb dünyası xüsusilə Avropa İttifaqı və ABŞ bu regionda nüfuz uğrunda ciddi rəqabət aparır. Bu kontekstdə Azərbaycanın xarici siyasət strategiyası balanslaşdırılmış və çoxşaxəli yanaşmalar üzərində qurulmuşdur. Müstəqillik qazandıqdan sonra Azərbaycan regional və qlobal güclər arasında tərəf seçməkdən daha çox, öz milli maraqlarına uyğun olaraq manevr etməyi və müxtəlif qütblər arasında "denge siyasəti" yürütməyi üstün tutmuşdur.

Denge siyasəti yəni regional və qlobal aktorlarla münasibətləri paralel və qarşılıqlı faydalı əsasda inkişaf etdirmək xətti Azərbaycanın həm siyasi sabitliyini qorumaq, həm də iqtisadi və təhlükəsizlik maraqlarını maksimum dərəcədə təmin etmək məqsədi daşıyır. Bu siyasət, xüsusilə Rusiya və İran kimi qonşu güclərlə münasibətlərdə diqqətli və çevik diplomatik yanaşmanı, Qərblə isə enerji əməkdaşlığı və təhlükəsizlik sahəsində tərəfdaşlığı eyni vaxtda davam etdirməyi tələb edir. Son illərdə beynəlxalq sistemdə baş verən köklü dəyişikliklər Rusiya-Ukrayna müharibəsi, Qərb-Rusiya qarşıdurması, İranın regional ambisiyaları və Qlobal Cənubun yeni rol qazanması Azərbaycanın bu denge siyasətini daha da mürəkkəbləşdirmişdir. Bununla belə, Azərbaycan hakimiyyəti daxili sabitlik və beynəlxalq legitimlik baxımından bu siyasəti uğurla davam etdirməyə çalışır.

Bu məqalədə Azərbaycanın Rusiya, İran və Qərb dünyası ilə münasibətlərində denge siyasətinin təzahür formaları, qarşılaşdığı çağırışlar və gələcək perspektivlər təhlil olunacaqdır. Məqsəd, Azərbaycanın çoxvektorlu xarici siyasətinin analizi vasitəsilə onun regional və qlobal geosiyasi mənzərədə tutduğu mövqeyin izahı və qiymətləndirilməsidir.

Azərbaycanın geostrateji mövqeyi və qonşu dövlətlərlə tarixi əlaqələri. Azərbaycanın yerləşdiyi coğrafi məkan, onu tarix boyu imperiyalar və güc mərkəzləri arasında mühüm bir körpü və toqquşma nöqtəsinə çevirmişdir. Cənubi Qafqazın mərkəzində qərarlaşan Azərbaycan, şimalda Rusiya, cənubda İran, qərbdə Ermənistan və Gürcüstan, şərqdə isə Xəzər dənizi ilə sərhəddədir. Bu mövqe Azərbaycanı həm Şərqlə Qərb, həm də Şimalla Cənub arasında strateji keçid ölkəsi halına gətirir. Eyni zamanda, ölkə zəngin enerji resurslarına xüsusilə neft və təbii qaz ehtiyatlarına malikdir ki, bu da onu qlobal enerji təhlükəsizliyində və nəqliyyat marşrutlarında əhəmiyyətli aktora çevirir [14].

Tarixən Azərbaycan ərazisi bir çox imperiyaların Sasani, Ərəb Xilafəti, Səlcuq, Monqol, Səfəvi, Rusiya və Sovet imperiyalarının tərkibində olmuş, bu isə müxtəlif sivilizasiyaların və siyasi mərkəzlərin burada iz qoymasına səbəb olmuşdur. Bu tarixi kontekst, Azərbaycanın hazırkı qonşuları ilə münasibətlərinə də təsir göstərməkdədir. İranla dini və mədəni bağlar, xüsusilə şiəlik ideologiyası üzərində qurulmuş ortaq mənəvi irs, ikitərəfli münasibətlərə xüsusi məna yükləyir. Eyni zamanda, Cənubi Azərbaycanda milyonlarla azərbaycanlının yaşaması bu münasibətlərdə etnik və geosiyasi faktorları da ön plana çıxarır [13].

Rusiya ilə əlaqələr isə həm çar, həm də sovet dövrlərinin mirası fonunda formalaşmışdır. XIX əsrdən başlayaraq Azərbaycanın Rusiya imperiyasına daxil edilməsi və Sovet İttifaqının tərkibində uzunmüddətli idarəçiliyi, Moskva-Bakı xəttindəki münasibətləri tarixi bağlılıq və qarşılıqlı təsir çərçivəsində inkişaf etdirmişdir. Azərbaycanın müstəqillik əldə etməsindən sonra bu münasibətlər yeni formatda iqtisadi əməkdaşlıq, təhlükəsizlik sahəsində dialoq və enerji logistikası ilə zənginləşmişdir [15].

Qərblə əlaqələr isə əsasən 1990-cı illərin sonlarından etibarən enerji əməkdaşlığı və siyasi islahatlara dəstək əsasında genişlənmişdir. Xüsusilə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbili-

si-Ərzurum qaz kəməri kimi strateji layihələr Azərbaycanın Qərb ölkələri ilə əməkdaşlığını dərinləşdirmiş və bu əməkdaşlıq sonrakı illərdə təhlükəsizlik və nəqliyyat sahələrinə də sirayət etmişdir [5].

Beləliklə, Azərbaycanın geostrateji mövqeyi və tarixi bağları onun xarici siyasət prioritetlərini müəyyənləşdirməkdə mühüm rol oynayır. Qonşu dövlətlərlə münasibətlər yalnız coğrafi yaxınlıq əsasında deyil, həm də tarixi, mədəni və siyasi keçmişin təsiri ilə formalaşır və bu da denge siyasətinin zəruriliyini daha aydın şəkildə izah edir.

Balanslaşdırılmış xarici siyasətin zəruriliyi. Müasir beynəlxalq münasibətlər sistemində güclərin multipolyarlığı və regional rəqabətlərin intensivləşməsi, kiçik və orta dövlətləri daha çevik və düşünülmüş xarici siyasət yürütməyə vadar edir. Bu kontekstdə balanslaşdırılmış xarici siyasət yəni müxtəlif güc mərkəzləri arasında siyasi, iqtisadi və təhlükəsizlik baxımından tarazlı münasibətlərin qorunması Azərbaycanın dövlət maraqları üçün strateji əhəmiyyət daşıyır. Geostrateji baxımdan Rusiya, İran və Qərb dünyası ilə eyni zamanda yaxın, lakin müstəqil əlaqələr saxlamaq məcburiyyəti, Bakının xarici siyasətində "denge" yanaşmasının formalaşmasını şərtləndirmişdir.

Balanslaşdırılmış siyasət, Azərbaycanın ilk illərindən etibarən qəbul etdiyi **çoxşaxəli (multi-vector) xarici siyasət** doktrinasının təməlini təşkil edir. Bu doktrina çərçivəsində Azərbaycan bir tərəfdən Avropa İttifaqı, NATO və ABŞ ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirir, digər tərəfdən isə Rusiya və İranla tarazlı əməkdaşlıq modelini qorumağa çalışır [10]. Bu siyasətə əsaslanan yanaşma Azərbaycanın regional münaqişələrə qarışmaması, öz suverenliyini qoruması və daxili sabitliyi təmin etməsi baxımından önəmli rol oynayır.

Siyasi baxımdan bu balanslı yanaşma, Bakının beynəlxalq hüququn prinsiplərinə sadiqliyini vurğulamaqla, neytrallığını qorumağa və mümkün blok qarşıdurmalarından yayınmağa xidmət edir. Enerji və nəqliyyat sahəsində isə bu siyasət Azərbaycanın həm Qərbə, həm də Şərqə yönələn marşrutlar üzrə tranzit imkanlarını genişləndirməyə şərait yaradır. Misal üçün, **Cənub Qaz Dəhlizi** vasitəsilə Avropaya qaz ixracı Azərbaycanın Qərblə enerji əməkdaşlığını gücləndirərkən, eyni zamanda Rusiya ilə koordinasiyalı münasibətlər ölkənin şimal istiqamətində təhlükəsizliyini təmin edir [14].

Digər tərəfdən, İranla tarazlı münasibətlər regionda hərbi eskalasiyanın qarşısını almağa və sərhəd təhlükəsizliyini qorumağa xidmət edir. Qonşuluq və mədəni əlaqələr fonunda bu münasibətlərdə ehtiyatlılıq və praqmatik mövqe, Azərbaycanın daxili sabitliyi üçün də həyati önəm daşıyır. Bütün bu aspektlər göstərir ki, balanslaşdırılmış xarici siyasət təkcə taktiki deyil, həm də strateji səviyyədə Azərbaycanın mövcudluğunun və inkişafının vacib təminat mexanizmidir. Nəticə etibarilə, balanslaşdırılmış siyasətin zəruriliyi Azərbaycanın coğrafi mövqeyi, enerji resursları və etnik-dini kompozisiyası ilə birbaşa bağlıdır. Qlobal güclər arasında manevr etmək bacarığı və qarşılıqlı maraqlar çərçivəsində dialoq qurmaq qabiliyyəti, Azərbaycanın müstəqilliyini möhkəmləndirən əsas sütunlardan biri kimi çıxış edir.

Azərbaycanın xarici siyasət doktrinası. Azərbaycan Respublikasının xarici siyasət doktrinası müstəqilliyini bərpa etdiyi 1991-ci ildən etibarən mərhələli şəkildə formalaşmış və geosiyasi reallıqlarla uyğunlaşaraq inkişaf etmişdir. Xarici siyasətin əsas prinsipləri dövlət suverenliyinin qorunması, beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik, regional və qlobal təhlükəsizliyə töhfə verilməsi, həmçinin iqtisadi maraqların müdafiəsi üzərində qurulmuşdur. Bu prinsiplər ilk dövrlərdən etibarən sabitlik, müstəqillik və qarşılıqlı faydalı əməkdaşlıq xəttini əsas götürən çoxşaxəli (multi-vector) siyasətin əsasını təşkil etmişdir [10]. Azərbaycanın xarici siyasət fəlsəfəsində balanslaşdırılmış yanaşma mühüm yer tutur. Bu yanaşma xüsusilə Azərbaycanın yerləşdiyi mürəkkəb və rəqabətli geosiyasi məkanda Rusiya, İran, Türkiyə və Qərb dövlətləri arasında tarazlı və praqmatik münasibətlərin qurulmasını zəruri edir. Beləliklə, Azərbaycan rəhbərliyi müxtəlif qlobal güclərlə qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlıq münasibətləri qurmağa, lakin heç bir hərbi-siyasi blokun üzvü olmamağa üstünlük verir.

Azərbaycanın xarici siyasət doktrinasının mühüm istiqamətlərindən biri də **enerji diplomatiyasıdır**. Neft və qaz ehtiyatlarına əsaslanan bu strategiya vasitəsilə Azərbaycan həm iqtisadi imkanlarını genişləndirmiş, həm də beynəlxalq arenada strateji tərəfdaş qismində çıxış etmişdir. Xüsusilə Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi kimi layihələr bu siyasətin əsas instrumentləri olmuşdur [5].

Bundan başqa, Azərbaycanın xarici siyasətində **regiondaxili inteqrasiya və təhlükəsizlik** prioritetləri də ön plandadır. Ölkə həm Türk Dövlətləri Təşkilatında fəal iştirak etməklə, həm də Qoşulma-

ma Hərəkatına sədrlik edərək beynəlxalq nüfuzunu artırmağa çalışır. Qarabağ münaqişəsinin 2020-ci ildəki hərbi və siyasi nəticələrindən sonra isə Azərbaycan regional güc statusunu daha qabarıq şəkildə ortaya qoymağa başlamışdır [3].

Azərbaycanın xarici siyasət doktrinasının davamlılığı, çevikliyi və tarazlılığı, onun daxili siyasi sabitliyinin və iqtisadi inkişafının beynəlxalq təminat mexanizmi rolunu oynayır. Qlobal qarşıdurmaların artdığı bir dövrdə bu doktrina Azərbaycanın suverenliyini qorumaqla yanaşı, onu regional sabitlik və əməkdaşlıq modelinə çevirir.

Müstəqillikdən sonrakı dövrdə Azərbaycanın xarici siyasətinin əsas prinsipləri. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı mürəkkəb daxili və xarici vəziyyət, onun xarici siyasət kursunu ehtiyatlı, çevik və milli maraqlara əsaslanan prinsiplər üzərində qurmağa vadar etmişdir. Yeni müstəqil dövlət kimi beynəlxalq arenaya daxil olan Azərbaycan, ilk illərdən etibarən öz təhlükəsizliyini təmin etməyə, ərazi bütövlüyünü qorumağa və beynəlxalq legitimlik qazanmağa yönəlik bir sıra əsas prinsipləri rəhbər tutmuşdur. Bu prinsiplər həm nəzəri, həm də praktik səviyyədə ölkənin çoxşaxəli diplomatik fəaliyyətinə istiqamət verən əsas sütunlar olmuşdur.

Dövlət suverenliyinin və ərazi bütövlüyünün qorunması. Azərbaycan xarici siyasətində ilk gündən etibarən öz suverenliyinin və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını prioritet elan etmişdir. Ermənistanla Qarabağ münaqişəsi bu prinsipi daha da aktuallaşdırmış və ölkənin beynəlxalq təşkilatlarla münasibətlərində bu məsələyə xüsusi yer ayrılmışdır [6].

Beynəlxalq hüquqa və BMT Nizamnaməsinə sadiqlik. Azərbaycan beynəlxalq hüququn əsas prinsiplərinə xüsusilə dövlətlərin suveren bərabərliyi, daxili işlərinə qarışmamaq və mübahisələrin dinc yolla həlli sadiqliyini bəyan etmiş və BMT çərçivəsində bu prinsipləri fəal şəkildə müdafiə etmişdir. Bu, Azərbaycanın beynəlxalq legitimliyinin möhkəmlənməsində mühüm rol oynamışdır.

Çoxşaxəli və balanslaşdırılmış xarici siyasət. Azərbaycan müstəqillikdən sonra tək bir güc mərkəzinə bağlı olmayan, əksinə, müxtəlif regional və qlobal aktorlarla paralel və qarşılıqlı faydalı münasibətlər qurmağa çalışan **çoxvektorlu xarici siyasət** modelini qəbul etmişdir. Bu yanaşma həm Rusiya, İran və Türkiyə ilə, həm də Avropa İttifaqı və ABŞ ilə əlaqələrin inkişaf etdirilməsinə imkan vermişdir [10].

Enerji resurslarından geosiyasi alət kimi istifadə. 1990-cı illərin ortalarından etibarən Azərbaycanın xarici siyasətində enerji diplomatiyası ön plana keçmişdir. Neft və qaz ixracı vasitəsilə həm iqtisadi müstəqillik təmin edilmiş, həm də Qərblə strateji tərəfdaşlıq əlaqələri gücləndirilmişdir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləri bu siyasətin konkret nəticələridir [5].

Regional və beynəlxalq təşkilatlarla aktiv əməkdaşlıq. Azərbaycan regional inteqrasiyada seçici şəkildə iştirak edir. MDB və GUAM kimi təşkilatlarda üzvlük, Qoşulmama Hərəkatına sədrliyi və Türk Dövlətləri Təşkilatında fəal mövqeyi bu siyasətin ifadəsidir. Azərbaycan həmçinin ATƏT və İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlarla da münasibətlərə önəm verir. Bu prinsiplər, Azərbaycan Respublikasının öz maraqlarına uyğun, lakin beynəlxalq sistemin qaydalarına sadiq qalaraq formalaşdırdığı müstəqil və rasional xarici siyasətin təməlini təşkil edir. Bu yanaşma ölkənin həm daxili sabitliyini təmin etməyə, həm də beynəlxalq müstəvidə etibarlı tərəfdaş imicini formalaşdırmağa imkan yaratmışdır.

Xarici siyasətdə "Bütün tərəflərlə dostluq", "Beynəlxalq hüquqa hörmət" və "Suverenliyin qorunması" prinsipləri. Azərbaycanın müstəqil dövlət kimi xarici siyasətində əsas prioritetlərdən biri bütün beynəlxalq aktorlarla qarşılıqlı hörmət və faydalı əməkdaşlıq üzərində qurulan münasibətlərin inkişaf etdirilməsidir. Bu yanaşma, "**bütün tərəflərlə dostluq**" prinsipi kimi ifadə olunur və Azərbaycanın çoxvektorlu xarici siyasət modelinin əsas sütunlarından biridir. Bakı, qonşu və qlobal güclərlə münasibətlərdə bir tərəfə yönəlməkdən çox, balanslı və tarazlı dialoqu üstün tutur ki, bu da regionda sabitliyi və ölkənin strateji maraqlarını təmin etməyə xidmət edir [6]. Bununla sıx əlaqəli olaraq, Azərbaycan xarici siyasətində **"beynəlxalq hüquqa hörmət"** prinsipini prioritet hesab edir. Dövlətlərarası münasibətlərdə suverenliyin, ərazi bütövlüyünün və beynəlxalq müqavilələrin qorunması beynəlxalq hüququn fundamental prinsipləri kimi qəbul edilir. Azərbaycan bu prinsiplərə sadiqliyini daim vurğulayaraq, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində hüquqi çərçivənin əsas götürülməsini tələb etmişdir. Beynəlxalq hüquqa hörmət həmçinin Azərbaycanın BMT, ATƏT və digər beynəlxalq təşkilatlarda fəal iştirakında özünü göstərir. Daha geniş mənada,

bu yanaşma Azərbaycanın xarici siyasətində **"suverenliyin qorunması"** prinsipini də əhatə edir. Suverenlik Azərbaycanın əsas dövlət atributu kimi xarici siyasət qərarlarında prioritet məsələdir. Bu prinsip Azərbaycanın xarici müdaxilələrdən uzaq durması, müstəqil qərarvermə hüququnu qoruması və daxili işlərinə xarici təsirin minimuma endirilməsi məqsədini daşıyır. Suverenliyin qorunması Azərbaycanın milli maraqlarının təmin olunması və təhlükəsizliyinin təmin olunması baxımından əsasdır [10]. Beləliklə, "bütün tərəflərlə dostluq", "beynəlxalq hüquqa hörmət" və "suverenliyin qorunması" prinsipləri Azərbaycanın xarici siyasətinin dayanıqlı, balanslı və milli maraqlara əsaslanan mahiyyətini təşkil edir. Bu prinsiplər, Azərbaycanın mürəkkəb regional və qlobal geosiyasi şəraitdə çevik və uğurlu diplomatik strategiya həyata keçirməsini təmin edən əsas ideoloji və praktik baza rolunu oynayır.

Türk dilləri dünyada geniş coğrafiyada yayılsa da, tarixi proseslər nəticəsində bu dillərin yazı sistemləri müxtəlif formalarda inkişaf etmişdir. XX əsrin əvvəllərindən başlayaraq ortaq türk mədəniyyətinin və dilinin bərpası ideyası, ortaq əlifbaya keçid məsələsini də gündəmə gətirdi. Bu məqalədə ortaq türk əlifbasına keçid təşəbbüslərinin tarixi arxa planı, əsas səbəbləri, həyata keçirilmiş addımlar və qarşılaşılan çətinliklər araşdırılır.

Ortaq əlifba ideyasının formalaşması. Türk xalqları uzun tarixləri ərzində bir çox yazı sistemindən istifadə etmişlər. Göytürk (Orxon-Yenisey) əlifbası, Uyğur əlifbası, Ərəb əlifbası, Kiril əlifbası və Latın əlifbası müxtəlif dövrlərdə və bölgələrdə tətbiq olunmuşdur. Bu əlifba müxtəlifliyi yalnız yazı texnikasına deyil, həm də mədəni və siyasi asılılığa işarə edirdi.

Osmanlı imperiyasında və onun təsir dairəsində olan türkdilli xalqlar uzun müddət ərəb qrafikasından istifadə etmişdir.

Sovet dövründə Orta Asiya və Sibir bölgəsindəki türk xalqları Kiril əlifbasına keçməyə məcbur edilmişdi.

Azərbaycan, Türkiyə və Balkanlardakı türk xalqları isə XX əsrin əvvəllərindən etibarən latın qrafikasına üstünlük verməyə başlamışdılar.

Ortaq türk əlifbasına keçid ideyası ilk dəfə XX əsrin əvvəllərində pan-türkist düşüncə tərzi ilə əlaqədar olaraq irəli sürülmüşdü. Məqsəd, türk xalqları arasında ünsiyyəti asanlaşdırmaq və mədəni inteqrasiyanı gücləndirmək idi.

1926-cı ildə Bakıda keçirilən I Türkologiya Qurultayı bu baxımdan mühüm mərhələ hesab olunur. Qurultayda iştirak edən alimlər və ziyalılar, türk dilləri üçün ortaq bir latın qrafikalı əlifbanın hazırlanması ideyasını irəli sürdülər. Bu qurultaydan sonra bir sıra türk respublikalarında latın əlifbasına keçid prosesi başlamışdır [7, s.7-8].

1930-cu illərdə SSRİ rəhbərliyi türkdilli respublikaların latın əlifbasına keçidinə icazə versə də, bu siyasət qısa müddət sonra dəyişdi. 1940-cı illərdən etibarən demək olar ki, bütün Orta Asiya və Volqa bölgəsi türk xalqları Kiril əlifbasına keçməyə məcbur edildilər. Bu dəyişiklik:

- Ortaq türk mədəniyyətinin qarşısını almağa yönəlmişdi.
- Türk xalqları arasında informasiya əlaqəsini çətinləşdirirdi.
- Yeni nəsillərin əvvəlki yazılı irslə tanış olmasını əngəlləyirdi.

Sovet İttifaqının süqutundan sonra türkdilli respublikalar müstəqillik qazandıqdan sonra ortaq türk əlifbasına keçid ideyası yenidən aktuallaşdı. 1991-ci ildə Bakıda keçirilən "Türk Dili Qurultayı"nda bu mövzu ilk dəfə ciddi şəkildə müzakirə edildi.

Türkiyə modelinə yaxınlaşdırılmış latın qrafikalı ortaq əlifba hazırlanmağa başlandı. 1990-cı illərin əvvəllərində Türk Akademiyası və TÜRKSOY bu istiqamətdə araşdırmalar apardı. Lakin praktiki tətbiq sahəsində ciddi irəliləyiş əldə olunmadı.

1990-cı illərdən etibarən Azərbaycan, Türkmənistan və Özbəkistan latın qrafikasına keçid prosesinə başladılar. Qazaxıstan bu prosesə nisbətən gec qoşulsa da, 2017-ci ildən etibarən rəsmi şəkildə latın qrafikasına keçid qərarı qəbul etmişdir.

Bu keçid təkcə texniki deyil, eyni zamanda siyasi və mədəni əhəmiyyətə malikdir:

- Türk dövlətləri arasında informasiya, təhsil və media sahəsində inteqrasiya güclənir.
- Müasir texnologiyaya uyğunlaşma daha da asanlaşır.
- Tarixi və ortaq mədəniyyətin bərpası üçün şərait yaranır.

Hazırda ortaq türk əlifbası ideyası Türk Dövlətləri Təşkilatı çərçivəsində yenidən gündəmdədir. Lakin bir sıra problemlər bu prosesi ləngidir:

- Hər bir ölkənin öz dil xüsusiyyətlərinə uyğun əlifba variantı seçməsi.
- Əhalinin yeni qrafikaya öyrəşməsi üçün uzun müddət və resurs tələb olunması.
- Təhsil, çap və rəqəmsal texnologiyaların uyğunlaşdırılması ehtiyacı.

Bununla belə, 2021-ci ildə Türk Dövlətləri Təşkilatının qəbul etdiyi qərarlarda ortaq əlifba məsələsinə dair koordinasiyalı işlərin görülməsi razılaşdırılmışdır. Bu isə imkan vermişdir ki, ortaq əlifbaya keçid prosesi sürətləndirilsin və 34 hərfdən ibarət əlifba qəbul edilsin.

Türk dövlətlərindən əlifba islahatlarının başlanğıcı. *Türkiyə təcrübəsi.* 1928-ci ildə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə həyata keçirilən əlifba islahatı nəticəsində Türkiyədə ərəb qrafikasından latın əsaslı yeni türk əlifbasına keçildi. Həmin il, Atatürkün latın əlifbasına keçilməsi üçün təşkil edilən dil komissiyasının gördüyü işlərlə yaxından maraqlanması və "bu ya üç ayda olur, ya da heç vaxt olmaz" deyərək bu keçidin qısa müddət ərzində tamamlanmasında nə qədər maraqlı olduğunu göstərir [3, s.167]. Bu islahat yalnız texniki deyil, həm də ideoloji və mədəni bir dönüş nöqtəsi idi. Məqsəd yazılı kommunikasiya vasitələrini sadələşdirmək və Qərblə inteqrasiyanı asanlaşdırmaq idi. 29 hərfli yeni Türk əlifbasının əsas xüsusiyyətləri bunlar idi:

- Sadə və fonetik uyğunluğa əsaslanan əlifbadır;
- Cidd, fonetik və ortoqrafik sabitlik qorunur;
- Keçid sürətlə və dövlət təzyiqi ilə həyata keçirilsə də uğurlu sayılabiləcək nəticələr verdi;
- Digər türk dövlətlərinə model kimi təqdim edilmişdir.

Özbəkistan təcrübəsi. Özbək dilinin latın əlifbası ilə yazılması fikri ilk dəfə 1921-ci ildə Daşkənddə təşkil olunan Dil və İmla Qurultayında irəli sürülmüşdü. Burada özbək şairi Batu latın əsaslı

özbək əlifbası ilə əlaqədar konfransa məruzə təqdim etmişdi. Ancaq onun bu məruzəsi qəbul edilməmişdi. Çünki konfransda iştirak edənlərin əksəriyyəti əlifba dəyişikliyini yox, mövcud ərəb əlifbasının islah edilməsini dəstəkləyirdi [8, s. 208]. Bu tarixdən etibarən isə məsələ bir neçə də gündəliyə gəlir. Belə ki, 1926, 1929, 1934 və 1965-ci illərdə latın qrafikası əsasında özbək əlifbasının qəbul edilməsi müzakirə edilir və bir sıra layihələr irəli sürülür. 1991-ci ildən etibarən kiril əsaslı özbək əlifbasının dəyişdirilməsi üçün bir sıra layihələr gündəliyə çıxarılmış və bu sahədə müzakirələr təşkil edilmişdir.

1993-cü ildə latın qrafikasına keçidlə bağlı qərar qəbul edildi. Əvvəlcə, 34 hərfli ortaq əlifbaya uyğun olan özbək əlifbası, 1995-ci ildə sadələşdirildi və 26 hərfə endirildi. Bu əlifbanın əsas xüsusiyyətləri aşağıdakılardır:

- "ç", "ş" kimi hərflər cütlüklərlə (sh, ch) əvəzləndi;
- "q", "o‘", "g‘" kimi hərflər dilin öz fonetikasına uyğunlaşdırıldı;
- Rəsmi sənədlərdə və mediada qarışıqlıq (latın–kiril paralelliyi);
- Cəmiyyətin böyük hissəsi hələ də kiril qrafikasından istifadə edir.

Tədqiqatçı Timur Qocaoğlu qeyd edir ki, "1993-cü ildə qəbul edilmiş latın əlifbasına əsaslanan yeni özbək əlifbası üzərində 1995-ci ildə həyata keçirilən islah çalışması bu əlifbanı ortaq türk-latın əlifbasından həm uzaqlaşdırdı, həm də əlifbanı mürəkkəb və istifadəyə yararsız vəziyyətə saldı" [15, s. 597].

2021-ci ildən yeni latın sisteminə keçid sürətləndi, tam keçid üçün 2030-cu ilə qədər vaxt müəyyənləşdirildi.

Türkmənistan təcrübəsi. Türkmən dili, XX əsrin əvvəllərində ərəb əlifbası ilə yazılmışdır. 1928-1940-cı illərdə ölkədə latın qrafikalı əlifbadan istifadə edilmişdir. 1940-cı illərdən başlayaraq isə Moskvanın təzyiqi ilə kiril əlifbasına keçilmişdir. Türkmənistan 1991-ci ildə yenidən müstəqilliyini əldə etdikdən sonra yenidən latın qrafikasına əsaslanan əlifbadan istifadə etməyə başlamışdır [16]. Türkmənistan Respublikası müstəqilliyin ilk illərindən başlayaraq bir sıra işlər görüldü, ən əsası 1993-cü ildə latın qrafikasına keçid elan edildi. Bu doğrultuda spesifik simvollarla fərqli bir latın qrafikası hazırlandı (məs., ä, ž, š).

Keçid prosesinin əsas xüsusiyyətləri bundan ibarətdir [6, s. 12-13]:

- Qərar daha çox fonetik uyğunluğa deyil, milli fərqliliyə yönəlik idi.
- 1995-ci ildə bir daha dəyişiklik edilərək, daha fərqli simvollardan istifadə olundu.
- Müxtəlif dəyişikliklər oxu və yazıda uyğunsuzluq yaratdı.
- Beynəlxalq uyğunluq zəif qaldı.

Hal-hazırda Türkmənistanda dövlət səviyyəsində latın əlifbası tətbiq olunur, lakin ortaq əlifbaya tam uyğun deyil.

Qazaxıstan təcrübəsi. 2017-ci ildə prezident Nursultan Nazarbayev latın əlifbasına keçidi elan etdi. Yeni əlifbaya keçid prosesinin əsas xüsusiyyətləri aşağıdakılardır [13, s. 200-201]:

- 2018-ci ildə apostrof əsaslı əlifba versiyası təqdim olundu, lakin tənqid edildi;
- 2021-ci ildə diaqraf əsaslı yeni versiya təsdiqləndi: ö, ü, ş, ç kimi hərflər daxil edildi;
- Son versiya ortaq türk əlifbasına daha yaxınlaşdırıldı;
- "ə" hərfi kimi bəzi fərqli səslər qorunur.
- Cəmiyyətin alışması üçün mərhələli keçid planlaşdırıldı;
- Təhsil və media sektorunun uyğunlaşdırılması vaxt tələb edir.

2023-cü ildən başlayaraq rəsmi sənədlərdə tətbiqə başlanıldı, tam keçid üçün 2025–2030-cu illər planlaşdırılır [10].

Qırğızıstan təcrübəsi. Qırğızıstanda dil və əlifba məsələləri son yüz ildə son dərəcə mürəkkəb mərhələlərdən keçmişdir. Belə ki, əvvəlcə ərəb qrafikalı qırğız əlifbası (1924-1927), sonra latın qrafikalı qırğız əlifbasına keçilmiş (1928), bu əlifbada 1929-cu ildə bəzi ilsahatlar aparılmış, və 1940-cı ilə qədər istifadə edilmiş, 1940-cı ildən etibarən isə yenidən kiril əlifbasına keçilmişdir [5, s. 127].

2022-ci ildə Türk Dövlətləri Təşkilatının təşəbbüsü ilə keçid planlaşdırıldı. Hal-hazırda ortaq əlifba layihəsinə uyğunlatdırılmış latın qrafikası üzərində müzakirələr gedir. Ancaq ölkə rəhbərliyi qırğız dilinin inkişafının kiril qrafikası üzərindən həyata keçirilməsinə üstünlük verir [11]. Bunun səbəbi aşağıdakılardır:

- "ç", "ş", "ü" kimi səslərin təmsili üçün uyğun hərflər axtarılır;
- "c", "q", "ñ" kimi fonetik səslərin daxil edilməsi gözlənilir;

- Rusiya ilə əlaqələr səbəbindən Kiril əlifbasından uzaqlaşma ehtiyatla həyata keçirilir;
- Cəmiyyət daxilində kirilə bağlılıq hələ də güclüdür.

Bu gün ölkədə hələ latin qrafikasına keçid üçün rəsmi keçid qərarı qəbul edilməyib, layihə üzərində iş davam edir.

Azərbaycanda əlifba islahatları və ortaq türk əlifbasına keçid üçün əhəmiyyəti. XIX əsrin ortalarından başlayaraq Avropanın və Rusiyanın elmi-mədəni təsirinə məruz qalan Azərbaycan ziyalılarının bir qismi ərəb əlifbasının xalqın savadına, dilin inkişafına ciddi maneə olduğu qənaətinə gələrək, bu vəziyyətdən çıxış yolu kimi əvvəlcə düşüncə, sonra isə praktiki olaraq ərəb dilində islahatla bağlı addımlar atmağa başladılar.

Bu prosesin təşəbbüskarı Şərqdə komediya janrının banisi, tanınmış Azərbaycan yazıçısı Mirzə Fətəli Axundov (1812-1878) olmuşdur. Əslində, Azərbaycan ziyalıları ərəb əlifbasının öyrənilməsinin nöqsanları və çətinliyi haqqında ardıcıl olaraq müxtəlif fikirlər irəli sürmüşlər [4]. Lakin bu cür baxışlar əlifbanın yaradılması mərhələsinə yalnız XIX əsrin ikinci yarısında çatmışdır. Bu dövrdə Mirzə Fətəli Axundov əvvəlcə ərəb əlifbasının islahatı üzərində işləmiş, sonra bu ideyadan tamamilə imtina edərək latın əlifbası əsasında yeni Azərbaycan əlifbasının layihəsini hazırlamışdır. Onun yaradıcılığı bütün Osmanlı imperiyasında, eləcə də Çar Rusiyası və İranda rezonans doğurmuşdur [12, s. 7].

1870-ci ildə Axundov ərəb əlifbasının latın əlifbasına keçirilməsi ilə bağlı ilk layihəsini hazırlayıb, bu mövzu ilə ciddi maraqlanan gənc Məhəmməd ağa Şahtaxtıya göndərir. Daha sonra Axundov layihəsində bəzi məktubların formalarını dəyişdirərək 1873-cü ildə öz layihəsini yekunlaşdırdı.Bəzi mənbələrdə bu layihənin əlyazmasının vaxtilə Əbdürrəhim bəy Haqverdiyevə aid olduğu iddia edilsə də, təəssüf ki, bu tarixi sənədə Əbdürrəhim bəy Haqverdiyevin şəxsi arxivində, Axundovun şəxsi arxivində və ya başqa sənədlərdə rast gəlinməmişdir [9, s. 15].

1870-ci illərdə Axundovun ağlında iki fərqli əlifba layihəsi var idi. 18 iyun 1873-cü ildə Osmanlı İmperiyasının Tiflisdəki ikinci konsulu Ömər Səbrinin vasitəsi ilə İstanbulda çıxan "Hakayık" qəzetinin redaktoruna göndərdiyi məktubda o, yazırdı: "İki növ əlifba haqqında düşündüm. Onlardan biri soldan sağa yazılacaq latın əlifbasının hərflərindən ibarət idi. İkincisi ərəb əlifbasına əsaslanırdı, o zaman indi olduğu kimi sağdan sola yazılacaqdı" [2, s. 153].

1870-ci illər ərzində Axundov ərəb əlifbasının islahatı ideyasından tamamilə uzaqlaşdı və latın əlifbasına keçid fikrini yeganə layihə kimi təklif etdi. O, bu fikri belə izah edirdi: "Soldan sağa yazılan və oxunan, söz içərisində bütün sait və samitlərin daxil edildiyi, bütün nöqtələrin buraxıldığı əlifbadan başqa heç bir əlifbanı qəbul etmirəm və heç vaxt da qəbul etməyəcəyəm" [14, s.184-185]. Uzunmüddətli səylərinə baxmayaraq, M.F.Axundov ərəb əlifbasını latın əlifbası ilə əvəz edə, hətta islahat apara bilmədi.

Nə üçün bu qədər islahatçılara, bu qədər fikirlərə rəğmən heç bir ölkədə - Türkiyədə, İranda, Rusiyada deyil, heç bir dövlət məmuru bu məsələyə müsbət yanaşmadı? Düzdür, dövr ərzində bəzi şəxslər bu təkliflərə müsbət və ya mənfi reaksiya verdilər. Bəzən bu və ya digər islahat təklifini dəstəkləyən geniş ictimai rəy yarandı və məsələ uzun müddət mətbuatda müzakirə mövzusu olaraq qaldı. Lakin son nəticədə heç bir əməli addım atılmadı, hər şey sadəcə arxivləşdirilirdi. Bu cür sosial problemlərin həlli digər təbəqələrin də iştirakını tələb etdiyi üçün ciddi ictimai dəstək olmalıydı. Türkiyədə bu təbəqələr xəlifə olan sultanların hökuməti idi. İranda özünü "Zillillah" (Allahın kölgəsi) hesab edən şahların hökuməti. Rusiyada isə Çarların despotik hökumətinin nəzarətində idi. Çoxmilyonlu türk-tatar xalqının mədəni problemlərinin taleyi bu üç hökumətin əlində idi. İslahatçılar yaxşı bilirdilər ki, müvafiq hökumətlərin iştirakı olmadan bu məsələdə irəliləyiş əldə oluna bilməz [9, s. 16-17].

Sonrakı dövrlərdə əlifba islahatı ilə bağlı Məhəmməd ağa Şahtaxtinski 1900-cü illərin əvvəllərində bir neçə əlifba modeli təklif etmiş, 1923-cü ildə yenidən təşkil edilən komitə ilə birlikdə latın-əsaslı əlifba quruluşunda iştirak etmiş və Bakıda 1926-cı ildə keçirilən I Turkoloji Qurultayında öz layihəsini müdafiə etmişdir.

1922-ci ildə Latin əlifbasına keçid üzrə xüsusi komitə yaradılmış (Yeni Türk Əlifbası Komitəsi) və 1923-cü ilin 20 oktyabrında yeni əlifba dövlət əlifbası elan edilmişdir. 1924-cü ildə latın əlifbası tam obligator hesab olunmuş, 1 yanvar 1929-da ərəb əlifbası tamamilə qadağan olunmuşdur.

Stalin 1939-cu ildə SSRİ-dəki bütün türk respublikalarında latın əlifbasını kiril əlifbası ilə əvəz etdirdi. Bu addım Sovet rəhbərliyi tərəfindən rus dilinin və fikir ayrılığının qarşısını almaq məqsədilə atılmışdır.

1991-ci ildə Azərbaycanda kiril əlifbasını ləğv edərək latın qrafikalı yeni əlifbaya keçilməsi qərarı qəbul edildi və bu qərara əsasən 1 avqust 2001-ci ilədək bütün rəsmi nəşrlər, yol nişanları, mətbuat və kitablar latın əlifbasına keçirdi. 25 dekabr 1991-ci ildə qəbul edilən "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikası Qanununa görə [1]:

1. "Azərbaycan əlifbasının latından rus əlifbasına keçirilməsi haqqında" 11 iyul 1939-cu il tarixli Azərbaycan SSR-in Qanunu bu gündən qüvvədən düşmüş hesab edilsin.

2. 1940-cı ilə qədər Azərbaycanda istifadə edilən 32 hərfdən ibarət latın qrafikalı Azərbaycan əlifbası kicik dəyişikliklərlə bərpa olunsun.

1992-ci ildən 32 hərfli Azərbaycan Latın Əlifbası tətbiq olundu. Ərəb və rus əlifbasından tamamilə imtina edildi. Türkiyə əlifbasına yaxın, lakin ə, x, q kimi spesifik hərflərin olduğu yeni əlifba qəbul edildi. Latın əlifbasında yer almayan "ə" hərfi yer aldı, əvvəl ortaq əlifbada ä ilə əvəzlənməsi təklif olunmuşdu. Ədəbi irsin yeni əlifbaya transkripsiyası prosesi uzun çəkdi. Bəzi yaşlı nəsil üçün keçid çətin oldu. Hal-hazırda ölkədə rəsmi və ictimai sahədə yalnız latın qrafikası istifadə olunur.

1991-ci il qanununda qeyd olunduğu kimi, XX əsrin əvvəllərində konsensusla qəbul edilmiş latın əlifbasından fərqli olaraq kiril əlifbası siyasi təzyiq vasitəsi hesab edilir və kiril əlifbasından latın əlifbasına keçid "tarixi ədalətsizliyin" aradan qaldırılmasının ifadəsi kimi təqdim olunur.

Nəticədə, Azərbaycanda əlifba ərəb → latın (1923–1929) → kiril (1939–1991) → 1991 – yenidən latın mərhələlərindən keçərək bu günkü formasını alımışdır.

Azərbaycan dilinin öz tələblərini yerinə yetirmək qabiliyyətinin olmadığını iddia etməkdənsə, əlifba dəyişikliyi siyasi seçimin ifadəsi kimi görünür. Bu seçim Azərbaycanın müstəqillik əldə etdikdən sonrakı dövrdə Qərb və Türkiyə ilə yaxınlaşma və inteqrasiyanı prioritet hesab etməsi, milli kimliyinin müəyyənləşdirilməsi prosesində isə sovet dövründən qalma mirasdan imtina etməsi ilə formalaşdı.

Bu nöqteyi-nəzərdən latın əlifbasına keçid müstəqillik əldə etdikdən sonrakı dövrdə Azərbaycanın beynəlxalq əlaqələrinin formalaşmasında ilk növbədə özünütəyinatının ifadəsi rolunu oynamışdır.

Nəticə. Azərbaycan ortaq türk əlifbası ideyasının formalaşmasında və tətbiqində aparıcı mövqedədir. Tarixi təcrübə göstərir ki, əlifba islahatları təkcə texniki deyil, həm də ideoloji, siyasi və mədəni hadisədir. Ortaq əlifba ideyasının gerçəkləşməsi üçün elmi, texnoloji və siyasi koordinasiya vacibdir. Bu istiqamətdə atılan addımlar türk dünyasında inteqrasiyanın güclənməsinə və mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edə bilər.

Ortaq türk əlifbasına keçid prosesi hər bir ölkənin:

- dil fonetikası;
- siyasi mövqeyi;
- əhalinin psixoloji hazırlığı;
- və geosiyasi vəziyyət

ilə sıx bağlıdır.

Bəzi ölkələr ortaq əlifbaya daha yaxın sistemlər qəbul edərək sinxron inteqrasiyaya çalışsa da, bəziləri hələ də fərqli modellərdən istifadə edir. 2024-cü ildə qəbul edilən 34 hərfli ortaq model bu baxımdan vahid platforma yaratmaq məqsədi daşıyır.

Türkiyə və Azərbaycan əlifba islahatında həm müstəqil addımlar, həm də ortaq təşəbbüslər səviyyəsində öncül rol oynamışdır. Ortaq türk əlifbasının gələcək tətbiqi üçün aşağıdakı faktorlar kritikdir:

- dil-məntiqi uyğunluq;
- dövlət və sosial səviyyədə koordinasiya;
- texnoloji və təhsil-media dəstəyi;
- regional siyasi əməkdaşlıq.

Bu istiqamətlərdə koordinasiyanın güclənməsi türk dünyasında dil və mədəni inteqrasiya prosesini daha da derinləşdirə bilər.

ƏDƏBİYYAT

1. "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikasının Qanunu / 1991, 25 dekabr, URL: https://e-qanun.az/framework/6803 [17.09.2025].
2. Axundov, M.F. Eserleri (cilt l) / M.F. Axundov. - Bakı: Şərq-Qərb, - 2005.
3. Atay, F.R. Çankaya / F.R. Atay. - İstanbul: Çolpan, - 2023. - 212 s.

4. Cahangirov, M. Azerbaycan milli ədəbi dilinin təşəkkülü (I cild) / M.Cahangirov, - Bakı: Elm, - 1978.
5. Cumakunova, G. Bağımsızlığının 27. yılında Kırgızistan'da devlet dilinin durumu // Karadeniz Araştırmaları, - 2018. № XV/60, - s.124-134.
6. Dinç, S., Aşirov, T. Türkmen alfabesinin evreleri // Journal of Literature and Humanities, - 2024. № 73, s.8-17.
7. Əzizov, E. I Türkoloji Qurultayda türk dillərinin tarixi və inkişafı məsələləri / Müasir Türkologiya: Dünən, Bu gün və Sabah (problemlər və perspektivlər) mövzusunda BDU-nun təşkil etdiyi elmi konfransın materialları. Bakı, 2016, s.6-10.
8. İbrahimov, E. Bağımsız Türk Cumhuriyetlerinde Dil Politikası (Azerbaycan Örneği) // Türk Dünyası Dil ve Edebiyat Dergisi, - 2020. № 50, - s.99-116.
9. İsaxanlı, İ. Azərbaycanda Latın Əlifbasına keçid. Tarixə qısa bir baxış və Fərhad Ağazadə // Bilgə, - 2005. № 3-4, - s.38-49.
10. Kazakistan'da 2023-2029 döneminde dil politikasının geliştirilmesine ilişkin yeni devlet programı hazırlandı // URL: https://www.trtavaz.com.tr/haber/tur/turkistandan/kazakistan-da-2023-2029-doneminde-dil-politikasinin-gelistirilmesine-iliskin-yen/643e825801a30a218cedd48d [17.09.2025].
11. Qırğızıstandan geriyə addım: "Dilin inkişafı kiril əlifbasında davam etdirilməlidir" / - 2023. 21 aprel, URL: https://musavat.com/news/qirgizistandan-geriye-addim-dilin-inkisafi-kiril-elifbasinda-davam-etdirilmelidir_972128.html [17.09.2025].
12. Məmmədov, N. Mirzə Fətəli Axundov / N. Məmmədov. - Bakı: Yazıçı, - 1982. – 271 s.
13. Otyzbay, Z. Political linguistics problems and transition from Cyrillic to Latin alphabet in Kazakhstan // The Journal of International Social Research, 2019. № 12/62, s. 196-206.
14. Rüstəmli, N. M. F. Axundzadənin ərəb əlifbasının islahıyla bağlı yeni əlifba layihəsi // Din Elmləri Akademik Araşdırma, - 2016. №16/3, - s. 184-185.
15. Tekin, F. Özbek türkçesinin latin alfabesi esasındaki imlası üzerine // Turkish Studies International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, - 2008: № 3/6, - s. 588-600.
16. Türkmence (Türkmen dili / Түркмен дили). https://www.omniglot.com/writing/turkmen.htm [17.09.2025].

ГЮНЕЛЬ ГУСЕЙНОВА
доктор философии по техническим наукам, старший преподаватель
Гянджинский государственный университет, кафедра Социальных наук

ИСТОРИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ ПЕРЕХОДА НА ОБЩЕТУРЕЦКИЙ АЛФАВИТ: НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА

Единый тюркский алфавит издавна признаётся важным средством языкового единства и культурной интеграции в тюркском мире. Начиная со второй половины XIX века, ряд учёных и политиков подчёркивали необходимость использования тюркскими народами единого алфавита и предпринимали шаги в этом направлении. В частности, ряд мыслителей в Азербайджане и Османской империи выдвигали различные идеи в области реформы алфавита, перехода на латиницу и создания единого тюркского алфавита, проводили встречи с политическими деятелями и разъясняли свои идеи. В данной статье анализируется исторический контекст инициатив по переходу на единый тюркский алфавит, а также опыт Азербайджана и Турции в этой области. Цель статьи – оценить формирование идеи единого тюркского алфавита, возможности его применения и трудности, с которыми он столкнулся в опыте Азербайджана и Турции, а также раскрыть значение этой инициативы с точки зрения укрепления культурного и языкового единства тюркского мира. В статье использован ряд методов исследования, таких как исторический метод, метод сравнительного анализа, метод работы с документами, метод аналогии и метод индукции. Статья написана с использованием исторических документов, научных трудов, официальных документов и электронных ресурсов по теме.

Главная научная новизна статьи заключается в том, что на примере Азербайджана и Турции изучен исторический контекст недавних попыток перехода к единому тюркскому алфавиту и подготовленного в результате этого нового единого тюркского алфавита.

Главный вывод статьи заключается в том, что Азербайджан и Турция всегда занимали лидирующие позиции в формировании и реализации идеи единого тюркского алфавита. Исторический опыт показывает, что реформы алфавита – это не только технические, но и идеологические, политические и культурные события. Научно-техническая и политическая координация необходима для реализации идеи единого алфавита. Шаги в этом направлении могут способствовать укреплению интеграции и культурных связей в тюркском мире.

Ключевые слова: единый тюркский алфавит, реформа алфавита, латинская письменность, тюркский мир, языковая политика.

GUNEL HUSEYNOVA
Doctor of Philosophy in Technical Sciences Senior Lecturer
Ganja State University Department of Social Sciences

HISTORICAL BACKGROUND OF THE TRANSITION TO THE COMMON TURKIC ALPHABET: IN THE EXAMPLE OF AZERBAIJAN

The common Turkic alphabet has long been recognized as an important means of linguistic unity and cultural integration in the Turkic world. Starting from the second half of the 19th century, a number of scientists and politicians emphasized the necessity of the Turkic peoples using a common alphabet and took a number of steps in this direction. In particular, a number of thinkers in Azerbaijan and the Ottoman Empire put forward various ideas in the field of alphabet reforms, transition to the Latin alphabet and the creation of a common Turkic alphabet, held meetings with political figures and explained their ideas. This article analyzes the historical context of the initiatives to transition to a common Turkic alphabet, as well as the experiences of Azerbaijan and Turkey in this field. The aim of the article is to evaluate the formation of the idea of a common Turkic alphabet, its application possibilities and the difficulties it encountered in the experience of Azerbaijan and Turkey, and to reveal the importance of this initiative in terms of strengthening the cultural and linguistic unity of the Turkic world.

The article uses a number of research methods such as the historical method, the method of comparative analysis, work with documents, analogy, and induction. The article was written using historical documents, scientific works, official documents, and electronic resources on the subject.

The main scientific innovation of the article is that the historical background of the recent efforts to transition to a common Turkic alphabet and the new common Turkic alphabet prepared as a result of it was studied on the example of Azerbaijan and Turkey.

The main conclusion of the article is that Azerbaijan and Turkey have always been in a leading position in the formation and implementation of the idea of a common Turkic alphabet. Historical experience shows that alphabet reforms are not only technical, but also ideological, political, and cultural events. Scientific, technological, and political coordination are essential for the realization of the idea of a common alphabet. Steps taken in this direction can serve to strengthen integration and strengthen cultural ties in the Turkic world.

Keywords: common Turkic alphabet, alphabet reform, Latin script, Turkic world, language policy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Asim Məmmədov, t.e.d. Qabil Əliyev.

UOT 327

NÜŞABƏ QULİYEVA
Bakı Dövlət Universitetinin doktorantı,
Azərbaycan Universiteti Beynəlxalq
Magistratura və Doktorantura Mərkəzinin direktoru,
tarix üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0001-7117-6394
nushaba.guliyeva@au.edu.az

AZƏRBAYCANDA TƏHSİL SİSTEMİNİN İNKİŞAFI: STRATEJİ İSTİQAMƏTLƏR VƏ GƏLƏCƏK HƏDƏFLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/110/128-133

Azərbaycanda müasir təhsil sisteminin formalaşması uzun müddət ərzində müxtəlif mərhələlərdən keçmişdir. Təhsil islahatlarının başlanğıcı Sovet dövrünə təsadüf etsə də, müstəqillik əldə edildikdən sonra, xüsusən 2000-ci illərin sonlarından etibarən, təhsil sahəsində əsaslı dəyişikliklər həyata keçirilməyə başlanmışdır. Bu dövrdə ümumi təhsil, peşə təhsili və ali təhsil sahələrində islahatlar aparılmış, beynəlxalq standartlara uyğun təhsil proqramları və metodları tətbiq olunmuşdur. Azərbaycanın təhsil sistemi rəqəmsal texnologiyalarla və innovativ tədris metodları ilə zənginləşdirilmiş, həmçinin təhsil infrastrukturunun inkişafı ilə təhsil keyfiyyəti yüksəlmişdir. Dövlətin təhsil sahəsinə olan diqqəti, müasir təhsil resurslarının istifadəsi və müxtəlif təhsil proqramlarının tətbiqi, gənclərin beynəlxalq səviyyədə rəqabətə dayanıqlı və yüksək səviyyəli mütəxəssislər olaraq yetişməsinə imkan yaratmışdır. Bu inkişaflar, Azərbaycanın təhsil sahəsindəki mövqeyini gücləndirərək ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərmişdir. Nəticədə, Azərbaycanda müasir təhsil sisteminin formalaşması, ölkənin gələcək inkişafına dair mühüm bir göstərici olmaqla yanaşı, təhsilin keyfiyyətinin daha da artırılması üçün davamlı islahatların həyata keçirilməsini tələb edir.

Açar sözlər: Azərbaycan, Heydər Əliyev, təhsil, elm, qanun, layihə.

Giriş. Hər bir ölkənin inkişaf uğurları bir sıra amillərlə qiymətləndirilir və bu amillər arasında elmin və təhsilin səviyyəsi xüsusi strateji əhəmiyyət kəsb edir. Elm və təhsil cəmiyyətin intellektual potensialının formalaşmasına, innovasiyaların tətbiqinə, texnoloji tərəqqinin sürətləndirilməsinə və ümumilikdə sosial rifahın yüksəldilməsinə xidmət edən əsas sütunlardandır. Onlar hər bir fərdin öz davamlı gələcəyini qurmasına, müasir dünyanın tələblərinə uyğun bilik, bacarıq, münasibət və dəyərləri mənimsəməsinə şərait yaradır.

Müasir dövrdə elm və təhsil təkcə informasiya ötürmə vasitəsi deyil, həm də yaradıcılıq, tənqidi düşünmə, problem həll etmə və sosial məsuliyyət kimi fundamental keyfiyyətlərin inkişaf etdirilməsində aparıcı rol oynayır. Elm təhsili proqramları yalnız texniki və nəzəri biliklərlə məhdudlaşmamalı, sosial, iqtisadi, siyasi, psixoloji və mədəni aspektləri də əhatə edən geniş miqyaslı yanaşma əsasında qurulmalıdır. Bundan əlavə, davamlı inkişafla təhsil sistemi arasında qarşılıqlı vəhdət mövcuddur. Bu iki sahəyə ayrı-ayrı inkişaf istiqamətləri kimi deyil, vahid, qarşılıqlı tamamlayan sistem kimi baxmaq zəruridir. Çünki davamlı inkişafı təmin edən əsas vasitələrdən biri və bəlkə də ən mühümü ölkənin müasir tələblərə cavab verən, çevik, innovativ və keyfiyyətli təhsil sisteminə malik olmasıdır. Belə bir təhsil sistemi cəmiyyətin hər bir üzvünə ömürboyu öyrənmə imkanları yaradaraq, ölkənin iqtisadi, sosial və mədəni inkişafına uzunmüddətli töhfə verir.

Təhsil tarix boyunca hər bir xalqın inkişafında, onun milli kimliyinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Çünki milli kimlik tam şəkildə formalaşmadan milli-mədəni irs qorunub saxlanıla və inkişaf etdirilə bilməz. Milli-mədəni irsin qorunması birbaşa təhsil sistemi ilə sıx əlaqəlidir. Bu həqiqətləri dərindən anlayan Heydər Əliyev Azərbaycan xalqının maariflənməsinə, təhsil səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirirdi. Şübhəsiz ki, Heydər Əliyevin təhsil sahəsindəki fəaliyyəti ölkədə həyata keçirilən siyasətin mühüm bir tərkib hissəsi idi. Təhsil sahəsində həyata keçir-

diyi islahatlar onun mədəni irsin inkişaf etdirilməsində, maarifçi və milli kadrların hazırlanmasında müstəsna bir strateji fəaliyyətinin əsas göstəricisidir. (Pashayeva, P. 2023. 45).

Azərbaycanın dünya birliyinə sürətli inteqrasiyasının əsasını ölkənin sosial-iqtisadi tərəqqisinin və elmi-texniki potensialının yüksək səviyyəsi, eləcə də dünya mədəni irsinə sanballı töhfəsi təşkil edir. İndiyədək qazanılan bütün uğurların əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu il Azərbaycan tarixində dönüş ili, yeni dövrün başlanğıcı hesab olunur. Bu gün bu dövr haqlı olaraq Azərbaycanda təhsilin, elmin, mədəniyyətin dirçəliş dövrü hesab olunur. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən ölkənin sosial-iqtisadi inkişafında təhsilin həlledici rolunu nəzərə alaraq Azərbaycanda təhsilin inkişafına böyük diqqət yetirir, onun tərəqqisinə nail olmaq üçün bütün potensial imkanlardan istifadə edirdi. Məlumdur ki, XX əsrin 50-60-cı illərində Azərbaycan neftdən başqa bütün sahələrdə geridə qalmış aqrar respublika hesab olunurdu. Heydər Əliyevin titanik fəaliyyəti sayəsində Azərbaycan hərtərəfli inkişaf yoluna qədəm qoyub. Azərbaycanda sənayenin və kənd təsərrüfatının sürətli inkişafı ilə yanaşı, elmin, təhsilin, mədəniyyətin inkişafında da böyük uğurlar əldə edilmişdir. Onun rəhbərliyi ilə təhsilin müxtəlif pillələrində islahatlar aparılıb. Azərbaycanda ümumi orta təhsilə keçid 1960-cı illərin ortalarından başlasa da, bu, 1970-ci illərdə mümkün olub.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində həmin illərdə analoji layihələrlə 350 mindən çox şagird yerlik 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. Bu illər ərzində məktəblərin texniki, elmi-metodiki vəsaitlərlə təminatı xeyli yaxşılaşmışdır. Heydər Əliyevin gərgin əməyi və qayğısı nəticəsində ümumtəhsil məktəblərinin tədris-maddi bazası, pedaqoji kadrlarla təminatı daha da möhkəmlənmişdir. 1978-ci ildən orta məktəb şagirdlərinə dərsliklər pulsuz verilir. 70-80-ci illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açıldı. Həmin illərdə ölkədə ali təhsil alan vətəndaşların sayı 70 mindən 100 minə yüksəldi. (Guliyeva, 2024, 602-609)

1980-ci illərin sonu, 1990-cı illərin əvvəlləri Azərbaycan tarixində tələtümlər, depressiya və təhsilin tənəzzül illəri idi. Bu dövrdə məktəblərin tikintisi tamamilə dayandırılmış, təhsilə qayğı ikinci plana atılmış, təhsilə ayrılan vəsait minimuma endirilmiş, təhsil sistemindən kadr axını başlamışdır. Bu illər ərzində Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində 242 uşaq bağçası, 616 ümumtəhsil məktəbi, 11 peşə liseyi, 1 ali məktəb, 2 universitet filialı, 3 orta ixtisas məktəbi dağıdılıb, bu da təhsil sistemində xeyli problemlər yaradıb.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev ölkəni xaosdan və vətəndaş müharibəsindən xilas etmək üçün ölkədə sabitlik bərqərar etdikdən qısa müddət sonra təhsili inkişaf etdirməyə başladı. Onun sayəsində ümumi orta təhsil 11-ci sinfin icbari ümumi təhsilinə keçirildi. "Təhsil haqqında" yeni qanun layihəsi ictimai müzakirəyə çıxarılıb. 1998-ci ilin martında ümummilli lider Heydər Əliyevin fərmanı ilə müstəqil Azərbaycanda milli təhsilin qurulması konsepsiyasını və strategiyasını hazırlamaq üçün Dövlət Komissiyası yaradılmışdır. Belə ki, müstəqil Azərbaycanda 3 mərhələni əhatə edən təhsil quruculuğu konsepsiyası və strategiyası hazırlanmış və onun həyata keçirilməsinə 1999-cu ildən başlanılmışdır.

Heydər Əliyevin əsas məqsədlərindən biri müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında təhsilin məzmununun qurulması ideyası idi. Ümumtəhsil məktəbləri üçün yeni dərsliklərin hazırlanması məsələsi daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, mütəmadi olaraq yeni dərsliklərin hazırlanması ilə maraqlanır, təhsil sistemində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı və Azərbaycan tarixi dərsliklərinin fövqəladə əhəmiyyətini daim vurğulayırdı. Ümumtəhsil məktəblərində istifadə olunan dərsliklər və dərs vəsaitləri tamamilə yenilənib. Heydər Əliyevin imzaladığı "Ümumtəhsil məktəblərinin şagirdlərinin dərsliklərdən pulsuz istifadəyə keçməsi haqqında" qərar icra olundu (Səmədov, 2010, s.67).

Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış təhsil strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən ölkənin davamlı sosial-iqtisadi inkişafı strategiyasının tərkib hissəsi kimi uğurla davam və inkişaf etdirilir. Son illər Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində böyük irəliləyişlər əldə edilmiş, milli təhsil sisteminin aydın gələcəyini təmin etmək üçün bir sıra inkişaf proqramları təsdiq edilərək həyata keçirilmiş, təhsilin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərə təhsilin məzmununun yeniləşdirilməsi, yeni proqramların, dərsliklərin və dərs vəsaitlərinin hazırlanması, onlarla nəşr və təhsil müəssisələrinin verilməsi, təhsilin idarə

edilməsinin təkmilləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi daxildir (İKT) kadr hazırlığında, təhsildə beynəlxalq əlaqələrin genişləndirilməsi, təhsil sistemində məqsədyönlü proqramların həyata keçirilməsi yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi və s. (Quluzadə, 2015, s.122).

Ölkəmizdə müxtəlif maliyyə mənbələri sayəsində, xüsusən də yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində təhsilə ayrılan vəsaitlər ildən-ilə artır. Bu gün dövlət büdcəsinin maddələri arasında təhsilə ayrılan vəsaitin həcminə görə ikinci yeri tutur.

Prezident İlham Əliyevin gündəlik qayğısı sayəsində təhsilin müxtəlif sahələri üzrə elmi təhlilə əsaslanan inkişaf proqramları təsdiq edilərək həyata keçirilib, təhsilin davamlı inkişafı üçün əsaslı tədbirlər həyata keçirilib, genişmiqyaslı islahatlar prosesi dönməz xarakter alıb.

Qloballaşan dünyada təhsil göstəriciləri insan inkişafının qiymətləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. BMT-nin insan inkişafı üzrə ekspertlərinin apardığı araşdırmaya görə, Azərbaycanda əhalinin savadlılıq səviyyəsi 99 faiz təşkil edir.

Prezident İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab edən təhsil sistemi qarşısında qoyduğu vəzifələrə uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən müxtəlif sahələr üzrə qəbul olunmuş proqramlar həyata keçirilir. Bu proqramlara təhsilin məzmununun yenilənməsi, yeni proqramların, dərsliklərin və dərs vəsaitlərinin hazırlanması, təhsilin idarə edilməsinin təkmilləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, tədris prosesində informasiya texnologiyalarından istifadə, kadr təminatı, məktəbəqədər təhsilin yenilənməsi, peşə təhsilinin təkmilləşdirilməsi daxildir. təhsil, təhsil, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, istedadlı uşaq və gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi və digər istiqamətlər.

Prezidentin sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları" digər məsələlərlə yanaşı, təhsil sahəsinin inkişafına, o cümlədən yeni təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə yönəlmişdir. məktəblər.

2005-2007 və 2008-2013-cü illər üçün iki Dövlət Proqramının icrası nəticəsində təhsilin informasiyalaşdırılması sahəsində mühüm irəliləyişlər əldə edilmişdir. Ölkənin ümumtəhsil məktəbləri İKT ilə təchiz olunub, hər 18 şagirdə bir kompüter düşür. 2351 məktəb yüksəksürətli genişzolaqlı internetlə təmin olunub və internetə qoşulmuş məktəblərin xüsusi çəkisi 2004-cü ildəki 1,5 faizdən 2016-cı ildə 52 faizə yüksəlib.

Təhsil sisteminin bütün pillələrində şəbəkə infrastrukturunun inkişafı və yüksəksürətli internetlə təmin olunması üçün informasiya və resurslar, İKT-nin inteqrasiyasını təmin etmək üçün metodiki, texniki və digər xidmətlərin göstərilməsi "İnformasiyalaşdırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur. "Təhsil Sistemi" mərkəzləri əhatə edən 2008-2012, şəbəkələrin yaradılması, pedaqoji və texniki heyətə İKT bacarıqlarının aşılanması, yenilikçi və yaradıcı müəllimlərin qiymətləndirilməsi və həvəsləndirilməsi sisteminin yaradılması, müasir elektron elmi-metodiki vəsaitlərin və tədris materiallarının elektron məlumat bazasının yaradılması bütün fənlər üzrə təhsilin idarə edilməsinin informasiya sistemlərinin inkişafı, vahid təhsil portalının yaradılması istiqamətində xeyli iş görülüb.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu müəllimləri dövlət qarşısında öz məsuliyyətini dərk edən, milli adət-ənənələrə və demokratiya prinsiplərinə hörmət edən, insan hüquq və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan vətəndaşlar və şəxsiyyətlər yetişdirməyə borcludur. Prezident İlham Əliyev 2018-ci il noyabrın 16-da "Azərbaycan Respublikasının ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı (Гулиева, Н., 2023, с.69).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanına uyğun olaraq elm və təhsil arasında əlaqələrin gücləndirilməsi məqsədilə və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi AR Elm və Təhsil Nazirliyi adlandırıldı.

Dövlət başçısının sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış I Dövlət Proqramı"nın Tədbirlər Planı təsdiq edilib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışın I Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq

Elm və Təhsil Nazirliyinə yaşayış məntəqələrində təhsil ocaqlarının tikintisi və bərpası ilə bağlı ərazi tələblərinə uyğun olaraq təkliflər hazırlamaq tapşırılıb. 2022-2026-cı illər üçün planlaşdırma sənədləri. Sənəddə qeyd olunur ki, Şuşa rayonunda 7, Ağdam rayonunda 29, Füzuli rayonunda 23, Zəngilan rayonunda 21, Kəlbəcər rayonunda 30, Laçın rayonunda 21, Laçın rayonunda 16 binanın tikintisi və bərpası nəzərdə tutulur. Qubadlı rayonunda 25, Cəbrayıl rayonunda 25, Xocavənd rayonunda 20, Tərtər rayonunda (Suqovuşan və Talış kəndləri daxil olmaqla) 5 məktəbəqədər və ümumi təhsil müəssisəsi.

2023-cü il noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Müasir Azərbaycan təhsili ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən strateji kursla özünün zəngin mütərəqqi ənənələri əsasında inkişaf edir.

2024-cü il ərzində də Azərbaycanda təhsil sisteminin inkişafı və modernləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Məsələn, 2023–2024-cü tədris ilindən başlayaraq ölkəmizin təhsil sistemin müasir dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində elektron portal üzərindən müxtəlif fənlər üzrə resursların sayı 19.531-ə çatdırılmış; "Rəqəmsal Bacarıqlar" Layihəsi çərçivəsində 53 region üzrə 532 məktəbdə 410.000-dən çox şagird əhatə olunmuş; STEAM layihəsi uğurla həyata keçirilmişdir. Qeyd edək ki, həmin layihə çərçivəsində təkcə bir tədris ili ərzində 400 ümumtəhsil məktəbi və 25 STEAM mərkəzi əhatə edilmiş, ümumilikdə 180.000 şagird STEAM təhsilinə cəlb olunmuşdur.

Nəticə. Azərbaycanda müasir təhsil sisteminin formalaşması uzun və mürəkkəb bir proses olmuşdur. Bu proses, müxtəlif dövrlərdə təhsil sahəsindəki islahatlar və beynəlxalq standartlarla uyğunlaşdırma məqsədini güdmüşdür. İlk mərhələlərdə ümumi təhsil və peşə təhsili sahəsindəki inkişaflar, daha sonra isə ali təhsil və innovativ tədris metodlarının tətbiqi ilə təhsil sistemi dinamik olaraq genişlənmişdir. 2000-ci illərdən etibarən təhsil sahəsində həyata keçirilən əsaslı islahatlar, yeni təhsil modelinin yaradılmasına və təhsil müəssisələrinin dünya səviyyəsində tanınmasına şərait yaratmışdır.

Azərbaycanın müasir təhsil sistemi, həmçinin rəqəmsal texnologiyaların və müasir təhsil resurslarının tətbiqi ilə zənginləşmiş, bu sahədəki inkişaflar ölkənin sosial-iqtisadi tərəqqisinə töhfə verməkdədir. Təhsil sahəsindəki bu uğurlar, Heydər Əliyev Fondunun və digər dövlət qurumlarının dəstəyi ilə daha da möhkəmlənmiş, gənclərin yüksək səviyyəli təhsil alması və beynəlxalq standartlara cavab verən mütəxəssislər yetişdirilməsi üçün zəmin hazırlamışdır.

Gələcəkdə Azərbaycan təhsil sisteminin daha da müasirləşməsi və dünya miqyasında tanınması üçün ölkə üzrə təhsil infrastrukturunun daha da inkişaf etdirilməsi və innovativ təhsil metodlarının tətbiqi böyük əhəmiyyət kəsb edir. Müasir təhsil, yalnız kadr hazırlığı deyil, həm də milli və beynəlxalq əməkdaşlığın inkişafı baxımından da strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə atılacaq addımlar, Azərbaycanın inkişaf etmiş ölkələr sırasına daxil olmasına imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Pashayeva, P. (2023). Historical services of Heydar Aliyev in the development of Azerbaijani education. *Interdisciplinary Science Studies*, 3(2), 45–53.
https://ojs.publisher.agency/index.php/ISS/article/view/1393 [07.07.2025].
2. Yavar, N.G. (2024). Russia and Azerbaijan: aspects of cooperation in the field of education. Conrado, 20(96), 602-609.
3. Səmədov, A. (2010). Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qaygısı, Bakı, s.499.
4. Quluzadə M. (2015). İnsan amili və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 299 s.
5. Гулиева, Н. (2023). Взаимная деятельность в сфере образования как одно из важнейших направлений Азербайджано-Российского сотрудничества (1991–2015) - журнал Geostrategiya, № 5 (77), с.67–71.

НУШАБА ГУЛИЕВА
Докторант Бакинского государственного университета,
Директор Международного центра магистратуры
и докторантуры Азербайджанского университета,
кандидат исторических наук, доцент

РАЗВИТИЕ СИСТЕМЫ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ: СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИЯ И ЦЕЛИ НА БУДУЩЕЕ

Формирование современной системы образования в Азербайджане проходило в течение длительного периода. Хотя начало образовательных реформ совпало с советским периодом, после обретения независимости, особенно с конца 2000-х годов, в сфере образования стали проводиться фундаментальные изменения. В этот период были проведены реформы в сферах общего, профессионального и высшего образования, внедрены образовательные программы и методики, соответствующие международным стандартам. Система образования Азербайджана обогатилась цифровыми технологиями и инновационными методами обучения, а качество образования повысилось благодаря развитию образовательной инфраструктуры. Внимание государства к сфере образования, использование современных образовательных ресурсов и применение различных образовательных программ создали возможности для молодежи стать конкурентоспособными на международном уровне и высококлассными специалистами. Эти события укрепили позиции Азербайджана в сфере образования и оказали положительное влияние на социально-экономическое развитие страны. В результате формирование современной системы образования в Азербайджане не только является важным показателем будущего развития страны, но и требует проведения постоянных реформ для дальнейшего повышения качества образования.

Ключевые слова: Азербайджан, Гейдар Алиев, образование, наука, право, проект.

NUSHABA GULIYEVA
PhD student at Baku State University,
Director of the International Master's and
Doctoral Center of Azerbaijan University,
PhD in History, Associate Professor

DEVELOPMENT OF THE EDUCATION SYSTEM IN AZERBAIJAN: STRATEGIC DIRECTIONS AND FUTURE GOALS

The formation of the modern education system in Azerbaijan took place over a long period. Although the beginning of educational reforms coincided with the Soviet period, fundamental changes began to be carried out in the field of education after independence, especially since the late 2000s. During this period, reforms were carried out in the fields of general, vocational and higher education, educational programs and methods were introduced that meet international standards. The education system of Azerbaijan has been enriched with digital technologies and innovative teaching methods, and the quality of education has improved due to the development of educational infrastructure. The state's attention to the field of education, the use of modern educational resources and the application of various educational programs have created opportunities for young people to become internationally competitive and highly qualified specialists. These events have strengthened Azerbaijan's position in the field of education and had a positive impact on the socio-economic development of the country. As a result, the formation of a modern education system in Azerbaijan is

not only an important indicator of the future development of the country, but also requires constant reforms to further improve the quality of education.

Keywords: Azerbaijan, Heydar Aliyev, education, science, law, project.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 iyul 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Habil Məmmədov, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT: 327(55:479.25)

ELNUR KƏLBİZADƏ
tarix üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
kelbizadeh@gmail.com

ELM VƏ TƏHSİL SAHƏSİNDƏ İRAN-ERMƏNİSTAN ƏMƏKDAŞLIĞININ PƏRDƏARXASI MƏQAMLARI VƏ REALLIQLAR

DOI: https://doi.org/10.36719/2708-065X/110/134-139

Məqalədə 1991-2025-ci illərdə İran və Ermənistan arasında "humanitar və mədəni əməkdaşlığın" başlıca istiqamətlərindən biri olan elm və təhsil sahəsində əlaqələrin gerçək mahiyyəti tədqiq edilmişdir. Tədqiqatdan aydın olur ki, İran və Ermənistan arasında 1991-ci ildən etibarən elm və təhsil sahəsindəki əməkdaşlıq, formal humanitar əməkdaşlıq pərdəsi altında həyata keçirilsə də, əslində hər iki tərəfin regional və geosiyasi məqsədlərinə xidmət etmiş, bu sahədə birgə fəaliyyətlər həm də hər iki dövlətlə kəsişən və toqquşan maraqları olan Azərbaycan Respublikasına qarşı yönəlmişdir. İran üçün bu əməkdaşlıq Cənubi Qafqazda, xüsusilə Ermənistan vasitəsilə təsir dairəsini genişləndirmək, özünü regionda "sivilizasiya mərkəzi" kimi təqdim etmək və Azərbaycana qarşı alternativ tarixi-mədəni narrativlər yaratmaq üçün əlverişli bir vasitə olmuşdur. Ermənistan isə bunu İrandan iqtisadi və informasiya-ideoloji dəstək əldə etmək, öz təbliğatını İran ərazisindəki erməni diasporu vasitəsilə həyata keçirmək imkanı kimi qiymətləndirmişdir.

Açar sözlər: İran, Ermənistan, humanitar əməkdaşlıq, elm, təhsil, geosiyasət, tarixi narrativ.

Giriş. Müasir beynəlxalq münasibətlər sistemində "humanitar əməkdaşlıq" anlayışı getdikcə daha çox geosiyasi məna kəsb edir. XX əsrin 90-cı illərin əvvəllərindən etibarən İran və Ermənistan arasında humanitar əməkdaşlıq pərdəsi altında reallaşdırılan fəaliyyətlər regionun təhlükəsizlik arxitekturasına, xüsusilə də Azərbaycanın milli maraqlarına birbaşa təsir göstərmişdir. Ermənistanın İran vasitəsilə öz təbliğat və təsir imkanlarını genişləndirməsi, İranın isə bu münasibətlərdən istifadə edərək Cənubi Qafqazda təsir imkanlarını gücləndirmək cəhdləri yeni regional reallıqlar formalaşdırmışdır. Tədqiqatın başlıca məqsədi 1991–2025-ci illər ərzində İran və Ermənistan arasında təhsil və elm sahəsində əlaqələrin əsas istiqamətləri, məqsədləri və nəticələrini təhlil etmək, bu əməkdaşlığın pərdəarxası siyasi məqamlarını üzə çıxarmaq, onun Azərbaycan üçün doğurduğu təhdidləri müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqat elm və təhsil sahələrində iki ölkə arasında əməkdaşlığı konstruktivist nəzəriyyə əsasında təhlil edilməsini nəzərdə tutur. Bu kontekstdə identiklik, ideologiya kimi sosial amillərin – İranın və Ermənistanın dövlət kimi davranışlarına necə təsir göstərdiyinə xüsusi diqqət yetirilir.

Əsas hissə. İran–Ermənistan münasibətlərinin humanitar əməkdaşlıq istiqamətləri içərisində təhsil və elm sahəsindəki əlaqələr xüsusi yer tutur. Təhsil və elmi əməkdaşlığın genişləndirilməsi hər iki dövlətin özünü regionda "mədəniyyətlərarası körpü" kimi təqdim etməsi cəhdlərinin tərkib hissəsi olmuşdur. Bu kontekstdə İran Ermənistanda fars dilin tədrisinin genişlənməsi məsələsinə xüsusi diqqət yetirmişdir. Bunu özünün bu ölkədə təsirlərini genişləndirmək üçün vasitələrdən biri olaraq görmüşdür. Əgər XXI əsrin əvvəllərində Ermənistanda 10-a yaxın məktəbdə fars dili tədris olunurdusa [12, s.78], son illərdə onların sayı 15-ə çatmışdır. Bundan əlavə, İrəvanda fəaliyyət göstərən Göy Məsciddə İranın Mədəniyyət Mərkəzi tərəfindən pulsuz fars dili kurslarının təşkili, İrəvan Dövlət Universitetində İranşünaslıq kafedrasının fars dili üzrə təşkil etdiyi yay məktəbləri humanitar alətlərdən istifadə etməklə təsiri gücləndirmək siyasətinin tərkib hissəsi hesab edilə bilər.

Polşa, İspaniya və İtaliyanın Türkiyə ilə ikitərəfli münasibətləri, hər şeydən əvvəl təhlükəsizlik imperativləri və hərbi-sənaye maraqları ilə formalaşır. Varşava Türkiyə ilə əlaqələrin dərinləşdirilməsini bu günki, qeyri-sabit təhlükəsizlik mühitində NATO-nun şərq cinahını gücləndirməyə yönəlmiş strateji diqqətinə uyğun hesab edir. 2021-ci ildə Polşa Türkiyənin Bayraktar TB2 pilotsuz təyyarələrini alan ilk Aİ və NATO ölkəsi oldu. Eyni zamanda Türkiyənin ASELSAN müdafiə şirkəti Polşanın AM2 Kutno firmasının kəşfiyyat və müşahidə sistemləri ilə təchiz edir. Hər şeydən əvvəl, polşalı qərar qəbul edənlər Türkiyə ilə müdafiə sahəsində əməkdaşlığa münasibətlərin əsası kimi baxırlar [2, 116]. Bu fikirə görə Ankara Rusiyanı cilovlamaq üçün həlledici tərəfdaş kimi "Üç Dəniz təşəbbüsünə" qoşuldu. Təşəbbüs 2015-ci ildə Xorvatiya və Polşa tərəfindən Baltik, Adriatik və Qara dənizlər ətrafında yerləşən 12 Aİ üzv dövləti arasında nəqliyyat, enerji və rəqəmsal infrastruktur əlaqələrini gücləndirmək məqsədilə irəli sürülüb. Polşa kimi İspaniya da Türkiyə ilə əməkdaşlığı NATO-nun institutsional çərçivəsində həyata keçirir. Lakin Varşavadan fərqli olaraq, Madridin əsas marağı NATO-nun cənub cinahındadır. Mərkəzi, Şərq və Şimal Avropa müttəfiqlərinin şərq cinah yönümlü prirotetlərini tarazlaşdırmaq üçün Türkiyənin iştirakı strateji baxımından mühüm hesab olunur [4]. İspaniya nöqteyi-nəzərindən Türkiyə Şərqi Aralıq dənizinin təhlükəsizliyində mühüm rol oynayır, eyni zamanda Ankaranın qərbi Aralıq dənizində, xüsusən Mərakeş və Əlcəzairlə bağlı nisbətən məhdud fəaliyyəti milli həssaslıqlardan qaynaqlanan ikitərəfli gərginlik riskini azaldır. İki ölkənin HƏMAS-a fərqli yanaşmalarına baxmayaraq Madridin Netanyahu hökumətinin Qəza siyasətini tənqid etməsi Ankarada müsbət qarşılanır. İspaniya da Türkiyə ilə müdafiə sahəsində əməkdaşlıq edir. O , Türkiyənin ən yaxşı müdafiə təchizatçılarından və ortaq istehsal tərəfdaşlarından birinə çevrilib. 2024-cü ilin dekabrında İspaniya Hərbi Hava Qüvvələr üçün "Hürfet" qabaqcıl təlim təyyarəsini birgə inkişaf etdirmək üçün anlaşma memorandumu imzaladıqdan sonra, Madrid bu yaxınlarda 1,375 milyard avroluq investisiya elan etdi. Bundan əlavə, Türkiyənin pilotsuz uçuş apara bilən amfibiya hücum gəmisi olan TGG Anadolu, İspaniyanın "Juan Carlos I" təyyarə gəmisinin dizaynına əsaslanırdı. Madridin Ankaraya "müdafiə ixracını artırmaq və daha dominant Avropa şirkətlərinin və üzv dövlətlərin təsirini tarazlaşdırmaq" məqsədilə xarici tərəfdaşlıqların genişləndirilməsi üzrə daha geniş strategiyasının bir hissəsidir. İspaniya kimi İtaliya da Ankaranı mühüm müdafiə tərəfdaşı kimi görür. İtaliyanın Türkiyə ilə müdafiə sahəsində əməkdaşlığı onun sənaye məqsədləri ilə güclü şəkildə motivasiya edilir. 2025-ci ilin mart ayında İtaliyanın Leonardo şirkəti və Türkiyənin Baykar Texnologiya şirkəti Avropanın nisbətən zəif olaraq qaldığı bir sektor olan PUA istehsalı üçün birgə müəssisə yaratmaq üçün Anlaşma Memorandumu imzaladılar. Roma müdafiə sektorundan başqa Ankaranı enerji təhlükəsizliyi, miqrasiya axınlarının idarə edilməsi və Afrikada təhlükəsizliyin təmin edilməsində potensil tərəfdaş kimi görür. Amma eyni zamanda iki ölkə Liviya və Aralıq dənizinin şərqində nüfuz uğrunda yarışır [6].

İkinci qrup Aİ-yə üzv dövlətlər Türkiyə ilə münasibətlərinə daha ehtiyatlı, lakin nisbətən açıq yanaşma nümayiş etdirirlər. İsveç və Finlandiyanın NATO-ya daxil olma təcrübələri, xüsusilə də bu ölkələrin Türkiyə ilə müdafiə sahəsində əməkdaşlıq haqqında təsəvvürlərini böyük ölçüdə formalaşdırıb. Onlar Ankaranı gözlənilməz hesab etsələr də, coğrafi mövqeyinə və hərbi imkanlarına görə onun NATO daxilində strateji əhəmiyyətini dərk edirlər. Lakin bu dövlətlərin hələ də Türkiyəyə olan baxışlarında qeyri-müəyyənlik münasibətlərə də təsirsiz ötüşmür. Almaniyada da oxşar baxış var. Bununla belə onun Türkiyə ilə münasibətləri hər şeydən əvvəl daha dərin diplomatik iqtisadi və ictimai əlaqələrlə səciyyələnir. Ən böyük türk diasporuna malik Aİ üzvü olan Almaniyanın Türkiyə ilə mürəkkəb münasibətləri var. Son illərdə Berlinin Ankara ilə bağlı siyasətində nəzərəçarpacaq dərəcədə yavaş və ehtiyatlı da olsa dəyişiklik müşahidə olunur. Almaniya Türkiyəyə getdikcə daha çox praqmatik

prizmadan baxır və bu üç əsas amil əsas götürülür: Rusiyanın Ukraynaya müdaxiləsi nəticəsində yaranan və Tramp administrasiyasının Avropa təhlükəsizliyi ilə bağlı qeyri-sabit mövqeyi ilə gücləndirilən geosiyasi vəziyyət; Prezident Ərdoğanın və onun hakim partiyasının yenidən seçilməsi (2023-cü il): Türkiyənin hərbi və strateji əhəmiyyəti [4].

Almaniya bu yaxınlarda Türkiyə Hərbi Dəniz Qüvvələri üçün silah ixracını təsdiqləməsi bu inkişaf edən vəziyyətlə əlaqədardır. Bu addım Türkiyənin 2019-cu ildə Suriyanın şimalında hərbi əməliyyatlardan sonra Almaniya və digər Aİ-yə üzv ölkələr tərəfindən ilkin olaraq tətbiq edilən embarqonun ləğvindən sonra atılıb. Üstəlik Berlin hökuməti bu yaxınlarda "Eurofighter" təyyarələrinin Türkiyəyə çatdırılması ilə bağlı vetosunu geri götürüb. Bu siyasi dəyişikliyin üç əsas motivi var: Qara dənizdə Rusiyanın təsirini saxlamaq, Türkiyənin Qərbə yaxın olması və Türkiyə ilə müdafiə sahəsində əməkdaşlığın tam pozulmasının qarşısının alınması idi.

Üçüncü qrup ölkələr Fransa və Yunanıstanın da Türkiyəyə siyasi etimadı aşağıdır. Paris Ankaraya getdikcə daha çox strateji rəqib kimi baxır. Afinanın isə Türkiyə ilə bağlı təhdid anlayışı daha yüksəkdir. Son ildə Fransa və Türkiyə arasında çoxsaylı gərginliklər, o cümlədən Suriya, Aralıq dənizinin şərqi, Türkiyənin diaspor siyasəti və erməni məsələsi səbəblərindən iki ölkə arasında əlaqələr durmadan korlanıb [3, 39]. İkitərəfli münasibətlər dialoqun yeni mərhələsinə qədəm qoysa da-Avropa təhlükəsizlik arxitekturasının yenidən təşkil səyləri və Yaxın Şərqdə dəyişən regional dinamiklər fonunda Paris və Ankara arasında yaxınlaşma, təhlükəsizlik və müdafiə əməkdaşlığına dair mümkün şəraiti yarada bilərdi. Fransa ilə Türkiyə arasındakı strateji rəqabət və Fransanın bu rəqabətə dair təsəvvürləri ilə fərqlidir. Paris Ankaranın Moskva ilə Qərb müttəfiqləri arasında balanslaşdırma aktı və Rusiyadan S-400 hava hücumundan müdafiə sistemi alması səbəbindən Ankaranı etibarsız və ikitərəfli hesab edir. Eyni zamanda Fransada sabitliyi pozan və qütbləşdirən amil kimi gördüyü islamın dirçəlişinin türk müsəlman təşkilatları tərəfindən idarə olunduğuna inanır. Üstəlik Fransa və Türkiyənin rəqabət aparan geosiyasi ambisiyaları var. Hər ikisinin Afrika və Yaxın Şərq ölkələri ilə təhlükəsizlik və siyasi əlaqələri inkişaf etdirmək və iqtisadi fayda əldə etmək kimi uzunmüddətli perspektivləri var. Fransanın Türkiyə ilə təhlükəsizlik və müdafiə əməkdaşlığına dair təsəvvürlərini formalaşdıran amillərdən biri Parisin Avropanın strateji muxtariyyətini vurğulanması və bununla əlaqədar olaraq Avropa sənayesində üstünlüyü ilə bağlıdır. Fransanın 2024-cü ildə Çexiyanın üçüncü ölkələrdən döyüş sursatı almaq təşəbbüsünə ilkin etirazı bu mövqeyi əks etdirir. Həmin ildə Fransa, Kipr Respublikası və Yunanıstanla birlikdə, Türkiyənin Ukraynaya PUA və artilleriya mərmilərinin tədarükünün maliyyələşdirilməsinə mane oldu. Yunanıstan da öz növbəsində Türkiyə ilə müdafiə sahəsində əməkdaşlıq etməkdə maraqlı olmayan üzv dövlətdir. Afina və Ankara bir-birilərinə tarixi düşmənçiliyi davam etməkdədir [5]. Egey dənizindəki adaların statusu, hava məkanı ilə bağlı problemlər, həm də Egey və Aralıq dənizindəki dəniz sərhədləri ilə bağlı həll olunmamış mübahisələr hələ də qalmaqdadır. Bundan başqa, Ankaranın Yunanıstana Egey adalarını hərbiləşdirdiyi iddiası ilə bağlı fikirləri münasibətləri gərgin saxlayan amillərdəndir. 1995-ci ildə Türkiyə parlamenti Yunanıstanın Egey dənizindəki ərazi sularını altı dəniz milindən kənara birtərəfli şəkildə genişləndirməsi halında, hökumətə casus belli (müharibəyə səbəb) elan etmək üçün yaşıl işıq yandırdı. Bu səbəbdən Afina tələb edir ki, Ankaranın Aİ-nin müdafiə proqramlarında iştirakı Türkiyənin müharibə təhlükəsini aradan qaldırması şərti ilə olmalıdır. 2021-ci ildə 1970-ci illərdən bəri bölgədə ən uzun hərbi qarşıdurmadan sonra Afina və Ankara kəşfiyyat danışıqlarını bərpa etdi [2, 120]. Keçmişdə ABŞ Afina ilə Ankara arasında gərginliyin yumuşaldılmasında həlledici rol oynasa da, son illərdə Vaşinqton və Ankara arasında artan çəkişmələr fonunda Vaşinqtonun bu rolu oynaya bilməsini şübhə altına alır. Beləliklə, NATO-nun Afina ilə Ankara arasında münaqişənin aradan qaldırılması üçün platforma kimi əhəmiyyəti irəlidə çox mühüm olacaq. Soyuq müharibə bitdikdən sonra Türkiyənin Qara dənizdəki siyasəti Moskva ilə birbaşa qarşıdurmadan qaçaraq, Rusiyaya qarşı güc balansını qorumaq olmuşdu. Nə güclü, nə də zəif Rusiya Ankaranın maraqlarına uyğun deyil. Rusiyanın Şimali Afrika, Qafqaz və Yaxın Şərqdəki mövqelərinin zəifləməsində əsas rol oynayan Türkiyə, indi geosiyasi cəhətdən güclənmə ehtimalı olan Rusiya ilə üz-üzədir. Belə bir senari nə Aİ-nin, nə də Ukraynanın maraqlarına uyğun deyil. Kiyev öz növbəsində Türkiyəni Qara dəniz regionunun təhlükəsizliyinin təmin edilməsində və sabitləşdirilməsində əsas oyunçu kimi görür. Trampın NATO və Vaşinqtonun Avropa və Ukrayna üçün təhlükəsizlik zəmanətlərini şübhə altına almaq siyasəti, Ankara tərəfindən həm fürsət, həm də risk kimi qiymətləndirilir. Yuxarıda qeyd edildiyi

kimi, Türkiyə rəhbərliyi qəti şəkildə inanır ki, Türkiyənin Avropa təhlükəsizliyinə cəlb olunması seçim deyil, zərurətdir. Ancaq Ankara təkcə iştirak etmək istəmir, həm də Avropa təhlükəsizliyinin gələcəyini fəal şəkildə formalaşdırmaq istəyir. NATO Türkiyənin təhlükəsizlik kimliyində mərkəzi rol oynayır. NATO-ya üzvlük Türkiyəyə Rusiya və Qərb müttəfiqləri arasında balanslaşdırma hərəkətini həyata keçirməyə imkan yaradır. Beləliklə, Ankara təkcə Avropanın deyil, həm də özünün təhlükəsizliyi üçün əsas çərçivə rolunu oynamağa davam edən NATO-da yüksək paya malikdir [4]. 2022-ci ilin iyun ayında Türkiyə NATO-nun çox yüksək hazırlıqlı birgə fəaliyyət Qüvvəsinin komandanlığını öz üzərinə götürdü. 2024-cü ilin yanvarında Ruminya və Bolqarıstanla Qara dənizində üzən minaların təmizlənməsi üçün müqavilə imzalandı. Bundan əlavə, Türkiyə Qara dənizində gecə-gündüz hava və dəniz kəşfiyyatı missiyaları həyata keçirir və bütün vəziyyətlə bağlı məlumatların 67% qədərini NATO və Ukraynaya təqdim edir [5]. Tramp Vaşinqtonun Avropa təhlükəsizliyinə sadiqliyi, Yaxın Şərqə (Qəzza və İran) müdaxiləçi yanaşması və Rusiyanın potensial güclənməsi ilə bağlı qeyri-müəyyənliyi səbəbindən Ankara indi qonşuluğunda iki revanşist böyük güclə üz-üzədir. Çox güman ki, bu vəziyyətdə və təhdid qavrayışlarının artması ilə Türkiyə bu günkü qeyri-müəyyən və alovlu beynəlxalq mühitdə Avropaya sabitləşdirici qüvvə və proqnozlaşdırılan bilən bir mənbə kimi baxır.

Nəticə. Türkiyə və Aİ-nin, Avropanın müdafiə və təhlükəsizlik gələcəyinin yenidən qurulması fonunda yenidən ortaq maraqlar zərurətinin kəsişməsində dayanıblar. Avropanın Türkiyəni müdafiə və təhlükəsizlik təşəbbüslərinə, proqramlarına və mexanizmlərinə inteqrasiya etmək üçün diqqət yetirməli məqamlar var. Avropa Türkiyənin strateji təhlükəsizlik aktoru kimi rolunu gücləndirmək üçün, Ankara ilə iqtisadi, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı tədricən genişləndirməlidir. Bu məqsədlə Avropa Şurası, Avropa Komissiyası ilə birlikdə bütün üzv dövlətlərin Türkiyəyə qarşı rəsmi və qeyri-rəsmi silah embarqolarını aradan qaldırmasını təmin etməklə, Türkiyə ilə əsaslı müdafiə əlaqəsi üçün lazımi şərait yaratmalıdır. Avropa İttifaqı Türkiyə ilə müdafiə və təhlükəsizlik sahəsində qurulacaq əməkdaşlığa, Türkiyənin Aİ-yə daxil olması prosesindən ayrı bir məsələ kimi baxmaq istəyir. Türkiyə ilə birgə istehsal edilən silahların Aİ-nin təhlükəsizlik maraqlarını və normlarını pozmamasını təmin etmək üçün silah ixracı idarəçiliyinə ciddi şəkildə nəzarət etməyə çalışır. Xüsusilə bu o deməkdir ki, Aİ-yə və NATO-ya daxil olmayan dövlətlərə silah satışı bütün istehsal tərəfdaşlarının təsdiqini tələb edir. Bu kontekstdə Aİ Türkiyə ilə 2018-ci ilin noyabr ayından bu yana çağrılmayan yüksək səviyyəli siyasi dialoq görüşlərini yenidən başlamalıdır.

ƏDƏBİYYAT

1. Ali Ayata, Elif Sütcü. Avrupada bir güvenlikleştirme konusu olarak göç, Ankara-İksad publications-2022, 96 s.
2. Serden Onur Karaca. Avrupa Birliğinin Türkiye ile ortak güvenlik politikaları, araştırma makalesi, dergipark AUSBD, 2021; 4(8): s.113-128
3. Siret Hürsoy . Avrupa Güvenlik ve Savunma politikası kıskacında Türkiye-Avrupa Birliği ilişkileri, Güvenlik Stratejileri Dergisi,2005 s.34-41
4. Sinem Adar, Hürcan Aslı Aksoy. Alignment of Necessity Turkey's Role in the Future European Security Architecture https://www.swp-berlin.org/en /publi cati on/ali gnment-of-necessity
5. Turkey's Ambivalence Is a Threat to European Security. https://carnegieendowment.org/posts/2025/04/turkeys-ambivalence-is-a-threat-to-european-security?lang=en [10.10.2025].
6. John paul Rathbone. Military briefing: How Turkey became vital to European Security, Financial Times https://www.ft.com/content/1de61da8-2481-4371-a0cd-b24ffba8b210 [10.10.2025].

ЭЛЬГЮН КАХРАМАНОВ
Бакинский государственный университет,
Центр арменоведения и подготовки кадров,
Доктор философии по историческим наукам

ГЮНАЙ АШУРОВА
Научный сотрудник Научно-исследовательской лаборатории
«Азербайджанцы мира: историческая демография»
Бакинского государственного университета, диссертант

НОВАЯ РОЛЬ ТУРЦИИ В БЕЗОПАСНОСТИ ЕВРОПЫ

Турция, игравшая важную роль в обеспечении европейской безопасности в годы холодной войны, долгое время сохраняла свои позиции на южном фланге НАТО. Турция считалась важным стратегическим государством для НАТО благодаря своему идеологическому видению и военной мощи в борьбе с угрозой социализма. Соединенные Штаты, сыгравшие роль в организации европейской безопасности после Второй мировой войны, создали условия для экономического развития европейских стран. Соединенные Штаты фактически долгое время играли роль «зонтика безопасности» для Европы. Это привело к тому, что европейские страны создали государства всеобщего благосостояния, минимизировав военные расходы и увеличив социальные. Европа, восстановленная при финансовой помощи США, сократила расходы на оборону, развивая свою инфраструктуру, и стремилась к построению социально-экономического общества. Событие, которое вновь заставило европейские страны задуматься о своей обороне, было связано с возрождением агрессивных и империалистических устремлений России.

Ключевые слова: Евросоюз, российско-украинская война, проблемы безопасности, НАТО, Турецкая Республика.

ELGUN GAHRAMANOV
Baku State University, Center for Armenian Studies and Training,
PhD in History

GUNAY ASHUROVA
Researcher at the Scientific Research Laboratory
"World Azerbaijanis: Historical Demography" of Baku State University,
dissertation candidate

TURKEY'S NEW ROLE IN EUROPE'S SECURITY

Turkey, which played an important role in European security during the Cold War, maintained its position on the southern wing of NATO for a long time. Turkey was considered an important strategic state for NATO with both its ideological vision and military power against the threat of socialism. The United States, which played a role in organizing European security after World War II, created conditions for the economic development of European countries. The United States actually played the role of a “security umbrella” for Europe for a long time. This led European countries to establish welfare states by minimizing their military spending and increasing their social spending. Europe, which was rebuilt with US financial assistance, reduced defense spending in building its infrastructure and aimed to build a socio-economic society. The event that accelerated the European countries' thinking about their defense again was related to the rekindling of Russia's aggressive and imperialist desires.

Keywords: European Union, Russia-Ukraine war, security issues, NATO, Republic of Turkey.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Bахışov, t.e.d. Sani Hacıyev.

UOT 327

XATİRƏ MEHDİYEVA
Bakı Dövlət Universitetinin
Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası, s.e.f.d.
ORCID 0000-0002-5302-0385
Xatira07@mail.ru

AZƏRBAYCANIN GEOSİYASƏTİ: ENERJİ DİPLOMATİYASINDAN STRATEJİ TƏRƏFDAŞLIQLARA

DOI: https://doi.org/10.36719/2708-065X/110/151-160

Bu məqalədə Azərbaycanın geosiyasi mövqeyi və enerji diplomatiyasının qarşılıqlı təsiri təhlil edilmişdir. Azərbaycan Avropa və Asiya arasında strateji yerləşməsi və zəngin enerji resursları sayəsində regional və qlobal enerji bazarında mühüm aktora çevrilmişdir. Enerji siyasəti ölkənin xarici siyasətinin əsas komponenti kimi strateji tərəfdaşlıqların qurulması və möhkəmləndirilməsində həlledici rol oynayır. Məqalədə Bakı-Tbilisi-Ceyhan, TANAP və digər enerji layihələri, enerji marşrutlarının şaxələndirilməsi siyasəti, həmçinin "yaşıl enerji" və karbonsuz iqtisadiyyata keçid istiqamətində Azərbaycanın təşəbbüsləri vurğulanmışdır. Strateji tərəfdaşlıqlar çərçivəsində Türkiyə, Avropa İttifaqı, ABŞ, İsrail, Birləşmiş Krallıq və Çinlə enerji və təhlükəsizlik sahəsində əməkdaşlıq əsas mövzudur. Eyni zamanda, regionda Rusiya və İranla münasibətlərin enerji aspektləri, Ermənistanla sülh prosesləri və Zəngəzur dəhlizinin rolu, Orta Asiya qazının tranziti və Azərbaycanın beynəlxalq enerji bazarında dayanıqlı mövqeyinin qorunması məsələləri araşdırılmışdır. Məqalədə geosiyasi risklər, o cümlədən münaqişə zonaları, enerji təhlükəsizliyi və kiber təhdidlər, eləcə də iqlim dəyişikliyi və "yaşıl enerji" keçidi kimi çağırışlar da təhlil olunmuşdur. Nəticədə, Azərbaycan enerji diplomatiyası və geosiyasi strategiyalarının qarşılıqlı əlaqəsi sayəsində Cənubi Qafqazda və Avrasiya məkanında güc mərkəzinə çevrilmə potensialına malik olduğu vurğulanır. Bu, ölkənin regional sabitlikdə və qlobal enerji bazarında dayanıqlı rolunun təmin edilməsində əsas amil kimi qiymətləndirilir.

Açar sözlər: geosiyasət, enerji diplomatiyası. strateji tərəfdaşlıqlar, enerji resursları. cənub qaz dəhlizi, yaşıl enerj, regional inteqrasiya, enerji təhlükəsizliy, enerji tranziti, iqlim dəyişikliyi.

Giriş. Azərbaycanın geosiyasi mövqeyi: Avropa və Asiya arasında yerləşməsi. Azərbaycan Avrasiya materikinin geosiyasi baxımdan kritik bölgəsində Cənubi Qafqazın mərkəzində yerləşərək həm Avropa, həm də Asiya arasında körpü rolunu oynayır. Bu strateji mövqe ona regional və qlobal güclərin maraq dairəsində qalmaqla yanaşı, tranzit və enerji marşrutlarının kəsişmə nöqtəsinə çevrilmək imkanı qazandırır [5]. Xəzər dənizinin qərb sahilində yerləşən Azərbaycan, şimalda Rusiya, cənubda İran, qərbdə Gürcüstan və Ermənistan, cənub-qərbdə isə Türkiyə ilə sərhəddə yerləşir ki, bu da ölkəyə həm böyük imkanlar, həm də ciddi geosiyasi çağırışlar yaradır [11]. Azərbaycanın bu mövqeyi onu yalnız enerji resurslarının ixracatçısı kimi deyil, eyni zamanda beynəlxalq nəqliyyat və ticarət dəhlizlərinin əsas iştirakçısına çevirir. Xüsusilə "Orta Dəhliz" (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsi çərçivəsində Azərbaycanın ərazisindən keçən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat arteriyaları ölkənin geostrateji əhəmiyyətini daha da artırır [14].

Eyni zamanda, Azərbaycanın yerləşdiyi regionda Rusiya, İran, Türkiyə və Qərb dövlətləri arasında geosiyasi maraqların toqquşması onun balanslaşdırılmış xarici siyasət yürütməsini zəruri etmişdir. Azərbaycan bu mövqedən irəli gələn çətinlikləri yumşaltmaq üçün "denge siyasəti" yürüdərək müxtəlif güc mərkəzləri arasında manevr etmək strategiyasını tətbiq edir [8]. Belə bir siyasət, həm regional sabitliyin qorunması, həm də beynəlxalq əməkdaşlıq platformalarında fəal iştirakla nəticələnmişdir.

Azərbaycanın coğrafi mövqeyi ona həm də enerji təhlükəsizliyi kontekstində mühüm rol qazandırır. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri, Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri və Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) layihələri Azərbaycanın yerləşmə mövqeyindən geosiyasi üstünlük kimi istifadə etdiyini göstərir [13]. Bu layihələr vasitəsilə Azərbaycan Avropa enerji

bazarına alternativ və etibarlı enerji mənbəyi təqdim edir. Bu səbəbdən Azərbaycanın geosiyasi yerləşməsi yalnız fiziki məkan anlamında deyil, həm də geoiqtisadi və geostrateji bir dəyər olaraq qiymətləndirilməlidir. Bu amil onun xarici siyasətinin əsas istiqamətlərini formalaşdırmaqda və beynəlxalq sistemdə aktiv rol oynamasında mühüm təsirə malikdir.

Məqalənin məqsədi. Bu məqalənin əsas məqsədi Azərbaycanın enerji siyasətinin geosiyasi strategiyaya çevrilməsi prosesini elmi əsaslarla təhlil etmək və bu siyasətin ölkənin regional və qlobal səviyyədə strateji tərəfdaşlıqlar qurmasında oynadığı rolu araşdırmaqdır. Azərbaycanın zəngin enerji ehtiyatları və əlverişli geosiyasi mövqeyi onu təkcə enerji ixracatçısı kimi deyil, həm də geosiyasi aktor kimi ön plana çıxarmışdır. Bu kontekstdə enerji siyasəti ölkənin xarici siyasətinin mühüm alətinə çevrilmiş, diplomatik təsir imkanlarını genişləndirmiş və müxtəlif güc mərkəzləri ilə balanslı münasibətlər qurmağa şərait yaratmışdır [13].

Məqalə, ilk olaraq Azərbaycanın geosiyasi mövqeyini və bu mövqenin enerji resurslarının istifadəsi baxımından əhəmiyyətini təhlil edir. Daha sonra enerji diplomatiyasının formalaşma mərhələləri, alətləri və vasitələri araşdırılır. Bu çərçivədə Bakı-Tbilisi-Ceyhan, TANAP və Cənub Qaz Dəhlizi kimi layihələrin yalnız iqtisadi deyil, siyasi və geostrateji nəticələri də qiymətləndirilir. Məqalənin əsas analitik oxunu Azərbaycanın bu enerji əsaslı siyasətini regional tərəfdaşlıqlara və beynəlxalq əməkdaşlıq formatlarına necə çevirməsi təşkil edir. Bu araşdırma həmçinin Azərbaycanın enerji siyasətinin "yumşaq güc" və "sərt güc" strategiyaları arasında necə balans qurduğunu, müxtəlif güc mərkəzləri Rusiya, Qərb, Türkiyə, İran və Çinlə münasibətlərin bu siyasət üzərindən necə formalaşdığını da göstərməyi qarşısına məqsəd qoyur [8]. Beləliklə, məqalə Azərbaycanın enerji siyasətinin sadəcə iqtisadi strategiya deyil, geniş mənada geosiyasi və diplomatik strategiya kimi fəaliyyət göstərdiyini əsaslandırmağa çalışır.

Azərbaycanın geosiyasi əhəmiyyətini artıran əsas amillərdən biri, onun zəngin enerji ehtiyatları – xüsusilə neft və təbii qaz resurslarıdır. Xəzər dənizi hövzəsində yerləşən Azərbaycanın enerji potensialı təkcə milli iqtisadiyyatın dayağı olmaqla kifayətlənmir, eyni zamanda ölkənin beynəlxalq nüfuzunu və geosiyasi çəkisini artıran əsas vasitələrdən birinə çevrilmişdir [13]. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə Azərbaycanın enerji resursları beynəlxalq investorlar üçün əlçatan olmuş və ölkə qlobal enerji bazarına sürətli inteqrasiyaya başlamışdır [5]. Məhz bu strateji qərar Azərbaycanın geosiyasi rolunu daha geniş miqyasda tanıtdı və enerji resurslarını diplomatik alətə çevirdi. Azərbaycan enerji resurslarını yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, həm də regional və qlobal enerji təhlükəsizliyində mühüm bir aktor kimi təqdim etməyə nail olmuşdur. Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri və Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) kimi mühüm enerji infrastrukturları Azərbaycanın rolunu daha da gücləndirmişdir [10]. Bu layihələr Azərbaycanı enerji ixracında Rusiya və İran kimi güclü oyunçulardan müstəqil, alternativ bir təchizatçı kimi təqdim edir. Xüsusilə Avropa İttifaqı üçün enerji resurslarının şaxələndirilməsi çərçivəsində Azərbaycan etibarlı və strateji tərəfdaş kimi ön plana çıxır. Cənub Qaz Dəhlizi layihəsi bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın təbii qaz resursları Avropanın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, ölkənin Avroatlantik məkandakı inteqrasiyasını da dərinləşdirir [4]. Bu enerji siyasəti Azərbaycanın xarici siyasətində "yumşaq güc" (soft power) və "sərt güc" (hard power) arasında körpü rolunu oynayır. Enerji resursları ölkəyə həm iqtisadi müstəqillik, həm də geosiyasi manevr imkanları verir. Bu kontekstdə Azərbaycanın enerji siyasəti yalnız daxili inkişaf vasitəsi deyil, həm də beynəlxalq siyasi münasibətləri formalaşdıran bir strategiya kimi çıxış edir.

Enerji resursları və geosiyasi potensial. Azərbaycanın enerji resursları xüsusilə neft və təbii qaz ehtiyatları onun yalnız iqtisadi inkişafında deyil, həm də regional və qlobal geosiyasi mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynayır. Xəzər dənizindəki zəngin enerji yataqları sayəsində Azərbaycan müstəqillikdən sonra beynəlxalq enerji bazarına çıxış əldə etmiş və özünü enerji ixracatçısı kimi təqdim etmişdir [13]. Bu resurslar ölkəyə iqtisadi üstünlüklərlə yanaşı, diplomatik və strateji alətlər də qazandırmışdır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ilə Azərbaycan enerji sahəsində transmilli korporasiyalarla əməkdaşlığa başladı. Bu müqavilə nəticəsində ölkə beynəlxalq enerji bazarına inteqrasiya olunmaqla yanaşı, geosiyasi aktor kimi də tanınmağa başladı [5]. Azərbaycanın neft və qaz resurslarının istismarı, nəqli və ixracı üzrə həyata keçirilən layihələr – Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum (BTE), TANAP və Cənub Qaz Dəhlizi – ölkənin geosi-

yasi potensialını artıran əsas vasitələrə çevrilmişdir [4].Bu enerji infrastrukturları vasitəsilə Azərbaycan öz enerji resurslarını yalnız region ölkələrinə deyil, həm də Avropa bazarına etibarlı şəkildə çatdırmaq imkanı əldə etmişdir. Beləliklə, Azərbaycan tədricən enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqının strateji tərəfdaşına çevrilmişdir. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazının Avropaya nəqli, həm enerji asılılığını azaltmaq, həm də enerji mənbələrinin şaxələndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir [17].

Azərbaycanın enerji siyasəti, eyni zamanda, onun geosiyasi manevr imkanlarını genişləndirmişdir. Rusiya, İran, Türkiyə, Qərb və Çin kimi aktorlarla paralel əməkdaşlıq formatlarının qurulması bu siyasətin çoxvektorlu və balanslı olduğunu göstərir. Enerji resursları vasitəsilə Azərbaycan nəinki iqtisadi rifahını artırır, həm də öz milli maraqlarını qorumaq və beynəlxalq aləmdə təsir gücünü artırmaq imkanı əldə edir [8]. Bundan əlavə, Azərbaycanın geosiyasi potensialı təkcə enerji resurslarının mövcudluğu ilə deyil, həm də bu resursların nəqlindəki tranzit mövqeyi ilə də güclənir. Orta Dəhliz və digər nəqliyyat-logistika layihələri ilə birlikdə enerji dəhlizlərinin üst-üstə düşməsi ölkənin geostrateji əhəmiyyətini daha da artırır [14].

Neft və qaz ehtiyatlarının bölgə və dünya üçün əhəmiyyəti. Azərbaycanın neft və təbii qaz ehtiyatları təkcə ölkənin iqtisadi inkişafının əsası deyil, həm də regional və qlobal enerji təhlükəsizliyi sisteminin mühüm tərkib hissəsinə çevrilmişdir. Xəzər dənizinin enerji resursları ilə zənginliyi və Azərbaycanın bu resurslara çıxış imkanları regionda enerji bazarının strukturuna, güc münasibətlərinə və diplomatik balanslara birbaşa təsir göstərir [13]. Azərbaycan dünyada tanınmış neft ölkələrindən biri olaraq təbii ehtiyatlarını istismar etməklə həm öz milli maraqlarını təmin etmiş, həm də qonşu və tərəfdaş ölkələr üçün alternativ enerji mənbəyi rolunu oynamışdır. Xüsusilə Avropa İttifaqının Rusiya qazından enerji asılılığını azaltmaq məqsədilə həyata keçirdiyi enerji siyasəti çərçivəsində Azərbaycan mühüm alternativ təchizatçı kimi ön plana çıxmışdır [4]. Cənub Qaz Dəhlizi çərçivəsində TANAP və TAP layihələri Azərbaycanın qaz ehtiyatlarının yalnız regional deyil, eyni zamanda qlobal əhəmiyyət daşıdığını təsdiqləyir. Bölgə üçün isə Azərbaycanın enerji resursları Cənubi Qafqazda sabitliyin və iqtisadi inkişafın əsas şərtlərindən biri hesab olunur. Neft və qaz layihələri vasitəsilə Gürcüstan və Türkiyə ilə qurulan əməkdaşlıq formatları yalnız enerji sahəsində deyil, həm də siyasi və hərbi sahədə strateji tərəfdaşlıqların dərinləşməsinə səbəb olmuşdur [5]. Bu, Azərbaycanın enerji ehtiyatlarının yalnız maddi sərvət deyil, həm də geosiyasi kapital olduğunu göstərir. Dünya enerji bazarında Azərbaycan, xüsusilə təbii qazla bağlı "şaxələndirmə" (diversification) siyasətinin mərkəzi fiqurlarından biri kimi çıxış edir. Beynəlxalq Enerji Agentliyi (IEA) və Avropa Komissiyası dəfələrlə Azərbaycanın bu sahədəki rolunu qeyd etmiş, onu etibarlı və sabit tərəfdaş kimi dəyərləndirmişdir (European Commission, 2020). Hazırkı qlobal enerji böhranı, Ukrayna müharibəsi və Rusiya qazına qoyulan sanksiyalar fonunda Azərbaycanın enerji resurslarının əhəmiyyəti daha da artmışdır. Azərbaycanın qaz hasilatını artırması və Avropaya qaz tədarükünün genişləndirilməsi istiqamətində atdığı addımlar bu ehtiyatların yalnız iqtisadi deyil, strateji dəyərə malik olduğunu bir daha sübut edir [1].

Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum (BTE), TANAP, TAP layihələri. Azərbaycanın enerji siyasətində həyata keçirilmiş əsas infrastruktur layihələri – Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum (BTE), Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) – ölkənin enerji resurslarını beynəlxalq bazarlara çıxarmaqla yanaşı, onun geosiyasi çəkisini də əhəmiyyətli dərəcədə artırmışdır. Bu layihələr Azərbaycanı həm Şərq-Qərb enerji dəhlizinin əsas aktoruna, həm də Avropa enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevirmişdir [13].

2006-cı ildə istismara verilmiş BTC boru kəməri Xəzər dənizi neftinin Gürcüstan və Türkiyə ərazisindən keçməklə Aralıq dənizi sahilinə – Ceyhan limanına çatdırılmasını təmin edir. Bu, Xəzər hövzəsində hasil olunan neftin Rusiya və İran marşrutlarından yan keçməklə Qərb bazarlarına çıxışını təmin edən ilk böyük layihə olmuşdur [5]. 2007-ci ildə fəaliyyətə başlayan Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri isə Azərbaycanın "Şahdəniz" yatağından çıxarılan təbii qazın Türkiyəyə nəqlini təmin etmiş, bu isə Azərbaycanın qaz ixracatçısı kimi mövqeyini möhkəmləndirmişdir [10].

2018-ci ildə TANAP-ın, 2020-ci ildə isə TAP-ın tam işə düşməsi ilə Azərbaycan qazı artıq Avropa bazarına çatdırılmış və Cənub Qaz Dəhlizi reallığa çevrilmişdir. TANAP Azərbaycanın qazını Türkiyə ərazisindən Avropaya daşıyır, TAP isə bu qazı Yunanıstan, Albaniya və Adriatik dənizi

vasitəsilə İtaliyaya ötürür. Bu kəmərlər Azərbaycanın beynəlxalq enerji bazarlarında etibarlı tərəfdaş kimi tanınmasında mühüm rol oynamışdır [4]. Bu layihələrin hər biri təkcə iqtisadi deyil, həm də strateji və siyasi əhəmiyyətə malikdir. Azərbaycanın bu layihələrdə təşəbbüskar və koordinasiyaedici rol oynaması onu enerji geosiyasətində əsas oyunçulardan birinə çevirmişdir.

Enerji marşrutlarının şaxələndirilməsi siyasəti. Azərbaycanın enerji siyasətində əsas prioritetlərdən biri enerji marşrutlarının və təchizat istiqamətlərinin şaxələndirilməsidir. Bu yanaşma ölkəyə həm ixrac risklərini azaltmaq, həm də geosiyasi asılılıqdan yayınmaq üçün mühüm imkanlar yaradır [13]. Enerji marşrutlarının şaxələndirilməsi Azərbaycanın enerji resurslarının yalnız bir ölkəyə və ya regiona deyil, bir neçə istiqamət üzrə ixrac olunması siyasətini əks etdirir. Bu siyasətin əsas məqsədi – enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanın geosiyasi müstəqilliyini və beynəlxalq bazarlardakı manevr imkanlarını artırmaqdır. Rusiya və İran kimi enerji aktorlarının hegemonluğundan yayınmaq, Avropa və Asiyanın müxtəlif bazarlarına çıxış əldə etmək bu siyasətin mərkəzində dayanır [8]. Cənub Qaz Dəhlizi bu baxımdan strateji əhəmiyyət kəsb edir. Bu dəhliz vasitəsilə Azərbaycan qazı Gürcüstan və Türkiyə üzərindən Balkan regionuna, İtaliyaya və digər Avropa ölkələrinə çatdırılır. Beləliklə, Azərbaycan həm marşrut, həm də mənbə şaxələnməsində həlledici rola malik olur [17]. Bundan başqa, Azərbaycan enerji marşrutlarının gələcəkdə Orta Asiya və Yaxın Şərq qazının da bu boru kəmərləri vasitəsilə daşınmasına xidmət edə biləcəyini nəzərə alaraq, logistik və diplomatik təşəbbüslərlə çıxış edir. Bu, Azərbaycanın yalnız enerji təchizatçısı deyil, həm də enerji tranzit ölkəsi kimi rolunu gücləndirir [14].

Enerji Diplomatiyasının alətləri və strategiyası. Enerji resurslarının iqtisadi əhəmiyyətindən əlavə, onların diplomatik və geosiyasi təsir vasitəsinə çevrilməsi Azərbaycanın xarici siyasətində əsas strateji xəttlərdən birini təşkil edir. Azərbaycanın enerji diplomatiyası neft və qaz ehtiyatlarını yalnız ixrac məhsulu kimi deyil, eyni zamanda beynəlxalq əlaqələrin qurulması, möhkəmləndirilməsi və mövqe gücləndirilməsi üçün geosiyasi alət kimi səfərbər edir [13].

Azərbaycanın enerji diplomatiyası çoxvektorlu xarakter daşıyır. Bu strategiya həm regiondakı güc mərkəzləri (Rusiya, İran, Türkiyə), həm də Qərb dövlətləri və beynəlxalq təşkilatlarla paralel əməkdaşlıq formatları qurmağa əsaslanır. Azərbaycan bir tərəfdən Avropa İttifaqı ilə enerji təhlükəsizliyi sahəsində strateji tərəfdaşlıq qurmuş, digər tərəfdən isə Rusiya ilə enerji sahəsində koordinasiyalı münasibətləri qoruyub saxlamışdır [8]. Bu balanslaşdırma siyasəti Azərbaycanın enerji resurslarından "denge aləti" kimi istifadə etdiyini göstərir.

Enerji diplomatiyasının əsas alətlərinə aşağıdakılar daxildir:

Transmilli enerji layihələri: BTC, BTE, TANAP və TAP kimi layihələr həm texniki-iqtisadi, həm də diplomatik alətlər kimi çıxış edir. Bu layihələr vasitəsilə Azərbaycan tərəfdaş ölkələrlə uzunmüddətli əlaqələr qurur və strateji qarşılıqlı asılılıq formalaşdırır [4].

İnstitusional əməkdaşlıq: Azərbaycan Avropa İttifaqı, NATO-nun Enerji Təhlükəsizliyi Proqramı, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) və digər qurumlarla enerji mövzulu əməkdaşlıq mexanizmlərində iştirak edir. Bu cür platformalarda iştirak ölkənin diplomatik nüfuzunu artırır [17].

İkili və çoxtərəfli enerji razılaşmaları: Azərbaycan enerji ixracatını təkcə boru kəmərləri ilə deyil, həm də hüquqi və siyasi razılaşmalar vasitəsilə təmin edir. TANAP layihəsində Türkiyə ilə imzalanan sazişlər, TAP layihəsində Avropa ölkələri ilə əməkdaşlıq memorandumları bu baxımdan nümunəvidir [5].

Azərbaycanın enerji diplomatiyası həmçinin "yumşaq güc" (soft power) strategiyasının tərkib hissəsinə çevrilmişdir. Enerji vasitəsilə qurulan infrastruktur, humanitar layihələr və sosial proqramlar vasitəsilə Azərbaycan regional sabitliyin təşviqinə töhfə verir və özünü etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş kimi təqdim edir [1]. Azərbaycanın enerji diplomatiyasının mühüm cəhətlərindən biri də təşəbbüskar roldur. Bakı tez-tez beynəlxalq enerji forumlarına ev sahibliyi edir (məsələn, "Bakı Enerji Həftəsi"), bu isə diplomatik platforma kimi istifadə olunmaqla yanaşı, Azərbaycanın enerji siyasətini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün mühüm vasitədir.

Enerjini yalnız iqtisadi deyil, həm də siyasi təsir vasitəsi kimi. Azərbaycanın enerji strategiyası təkcə iqtisadi qazanc məqsədi ilə məhdudlaşmır, eyni zamanda enerji resursları siyasi təsir və diplomatik manevr vasitəsinə çevrilir. Bu yanaşma, xüsusilə enerji ixracatçısı kimi Azərbaycanın

beynəlxalq münasibətlərdəki mövqeyini gücləndirir və ona regional balans yaratmaq imkanı verir [13]. Enerji siyasəti vasitəsilə Azərbaycan həm Qərb, həm də Rusiya, İran və Türkiyə kimi regional güclərlə əlaqələrini nizamlamaqla öz geosiyasi müstəqilliyini qorumağa çalışır [8]. Enerji ixracı Azərbaycanın xarici siyasətində "yumşaq güc" elementi kimi çıxış edir. Bu, enerji vasitəsilə iqtisadi əlaqələrin genişlənməsi, texniki əməkdaşlıq və enerji təhlükəsizliyi sahəsində tərəfdaşlığın möhkəmləndirilməsi ilə ifadə olunur. Eyni zamanda enerji resursları bəzi hallarda "sərt güc" aləti kimi də istifadə edilərək, müəyyən siyasi təzyiqlər və danışıqlarda vasitə rolunu oynaya bilər [4]. Bu ikitərəfli funksionallıq Azərbaycan üçün enerji resurslarını diplomatik alətə çevirməkdə mühüm amil olmuşdur. Ölkə enerji ixrac marşrutlarını və tərəfdaşlarını şaxələndirərək regional güclər arasında balans yaratmağa və öz təhlükəsizliyini təmin etməyə çalışır.

Azərbaycanın "enerji körpüsü" rolu: Xəzər Qara dəniz Aralıq dənizi marşrutu. Azərbaycan coğrafi mövqeyi ilə Xəzər dənizindən başlayaraq Qara dəniz və Aralıq dənizinə qədər uzanan enerji nəqli marşrutunun mərkəzində yerləşir. Bu, ölkəni Avropa ilə Asiyanı birləşdirən və enerji mənbələrini qlobal bazarlara çatdıran "enerji körpüsü" kimi təqdim edir [5]. BTC, TANAP, TAP kimi enerji layihələri bu marşrutun əsas elementləridir və Azərbaycanın strateji rolunu möhkəmləndirir. Xəzər dənizində hasil olunan enerji resursları ölkənin qərb bazarlarına çıxışını təmin edir, bu da onun enerji siyasətində etibarlılıq və alternativlik imicini formalaşdırır [13]. Bu marşrut eyni zamanda Azərbaycanın regional tranzit potensialını artıraraq enerji nəqli sahəsində strateji aktora çevrilməsinə şərait yaradır. Xəzər Qara dəniz Aralıq dənizi enerji dəhlizi yalnız iqtisadi layihə deyil, həm də geosiyasi platformadır. Bu marşrut Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlıq üçün əsas bazadır və bölgədə siyasi sabitliyin qorunmasında mühüm rol oynayır. Eyni zamanda, bu marşrut Rusiya və İranın enerji bazarlarına alternativ olmaqla, regiondakı enerji hegemonluğunu balanslaşdırır [14]. Beləliklə, Azərbaycan enerji resurslarını beynəlxalq enerji bazarlarına çatdırmaqla yanaşı, enerji marşrutlarının təşkili və idarə edilməsində də əsas aktorlardan biridir. Bu, ölkənin enerji diplomatiyasının və geosiyasi mövqeyinin təməl prinsiplərindən biridir.

Azərbaycan-Avropa İttifaqı enerji dialoqu. Azərbaycan və Avropa İttifaqı arasında enerji əməkdaşlığı regional enerji təhlükəsizliyinin təminatında mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çıxışı və enerji marşrutlarının diversifikasiyası əsas mövzulardandır [17]. Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın Avropa İttifaqı ilə enerji dialoqunun ən uğurlu nümunələrindən biridir. Bu layihə Avropanın enerji təhlükəsizliyi strategiyasına xidmət etməklə, Azərbaycanın enerji ixracatçısı kimi mövqeyini möhkəmləndirmişdir. Avropa İttifaqı Azərbaycanın enerji sektorunda şəffaflıq, davamlı inkişaf və "yaşıl enerji" prinsiplərinin tətbiqinə xüsusi önəm verir. Bu istiqamətdə tərəflər birgə proqramlar və layihələr həyata keçirir, enerji səmərəliliyinin artırılması və karbon emissiyalarının azaldılması üçün əməkdaşlıq edir. Azərbaycan-Avropa İttifaqı enerji dialoqu həm də siyasi və iqtisadi əlaqələrin dərinləşdirilməsi, regional əməkdaşlığın gücləndirilməsi üçün platforma rolunu oynayır. Enerji sahəsində əməkdaşlıq həmçinin Azərbaycanın Avropaya inteqrasiyasını dəstəkləyir və regional sabitliyin qorunmasına töhfə verir [13].

"Yaşıl enerji" keçidində Azərbaycanın planları. Azərbaycanın enerji siyasətində "yaşıl enerji" keçidi son illərdə prioritetlərdən birinə çevrilmişdir. Dövlət proqramları və strateji planlar çərçivəsində bərpa olunan enerji mənbələrinin inkişafı, xüsusilə külək və günəş enerjisinin tətbiqi sahəsində mühüm addımlar atılır [1]. Zəngəzur və Qarabağ bölgələrində külək enerjisi layihələrinin həyata keçirilməsi bu istiqamətdə aparılan işlərin nümunələridir. Bu layihələr təkcə enerji təminatını artırmaqla kifayətlənmir, həm də regionun iqtisadi və sosial inkişafına təkan verir. Eyni zamanda, Xəzər dənizində külək enerjisi potensialının tədqiqi və layihələrin icrası Azərbaycanın enerji sektorunun diversifikasiyası üçün yeni imkanlar yaradır [8]. Azərbaycanın "yaşıl enerji" strategiyası həm də beynəlxalq iqlim razılaşmalarına və Avropa İttifaqının enerji və iqlim siyasətinə uyğun şəkildə formalaşdırılır. Bu, ölkənin enerji təhlükəsizliyini təmin etməklə yanaşı, davamlı və ekoloji təmiz enerji istehsalına keçidini təmin edir. Azərbaycanın bu sahədə irəliləyişi regionda yaşıl enerji potensialının artırılması və regional əməkdaşlıq üçün də mühüm faktor kimi qiymətləndirilir [17].

Strateji tərəfdaşlıqların qurulması. Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri strateji tərəfdaşlıqların qurulmasıdır. Bu tərəfdaşlıqlar ölkənin geosiyasi mövqeyini gücləndirir, regional sabitliyi təmin edir və enerji diplomatiyasının effektivliyini artırır.

Türkiyə ilə strateji müttəfiqlik: enerji, hərbi, diplomatic. Azərbaycan və Türkiyə arasında münasibətlər müttəfiqlik xarakteri daşıyır və çoxşaxəlidir. Enerji sahəsində əməkdaşlıq xüsusilə önəmlidir; Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum (BTE), TANAP kimi birgə enerji layihələri iki ölkənin strateji enerji tərəfdaşlığına nümunədir [13]. Bu layihələr Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmasında Türkiyənin tranzit rolunu möhkəmləndirir. Hərbi sahədə isə Azərbaycan və Türkiyə birgə təlimlər, müdafiə sənayesi əməkdaşlığı və təhlükəsizlik sahəsində strateji dialoq həyata keçirirlər. Bu əməkdaşlıq regional təhlükəsizlik balansının qorunmasına və qarşılıqlı müdafiə imkanlarının artırılmasına xidmət edir (Cornell, 2011). Diplomatik baxımdan isə iki ölkə beynəlxalq platformalarda bir-birinin mövqeyini dəstəkləyir, həm regional, həm də qlobal məsələlərdə qarşılıqlı faydalı əməkdaşlıq siyasəti aparır. Bu müttəfiqlik Azərbaycanın həmçinin Qafqaz regionunda mövqeyini gücləndirməyə imkan verir [8].

Avropa İttifaqı ilə əməkdaşlıq: enerji təhlükəsizliyi və nəqliyyat layihələri. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq Cənub Qaz Dəhlizi layihəsi ilə simvolizə olunur. Bu layihə Avropanın enerji şaxələndirilməsi strategiyasının əsas hissəsi olaraq Azərbaycanın Avropa bazarına qaz ixracını təmin edir [17]. Nəqliyyat sahəsində isə Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən "Şimal-Cənub" nəqliyyat dəhlizi Avropa ilə Asiya arasında yükdaşımaların effektivliyini artırır və regional inteqrasiyanı gücləndirir. Bu layihə Avropa İttifaqının Trans-Avrasiya nəqliyyat strategiyası ilə uyğunlaşır və Azərbaycanı mühüm tranzit ölkəsinə çevirir [1]. Avropa İttifaqı Azərbaycanın enerji sektorunda şəffaflıq, davamlı inkişaf və "yaşıl enerji" keçidi sahəsində də tərəfdaşdır. Bu əməkdaşlıq enerji təhlükəsizliyini artırmaqla yanaşı, Azərbaycanın Avropaya inteqrasiyasını dərinləşdirir və regional sabitlikdə mühüm rol oynayır [17].

İsrail, ABŞ və Birləşmiş Krallıqla enerji və təhlükəsizlik əlaqələri. Azərbaycanın İsrail, ABŞ və Birləşmiş Krallıqla enerji və təhlükəsizlik sahəsində əlaqələri strateji xarakter daşıyır və ölkənin geosiyasi mövqeyini gücləndirir. ABŞ və Birləşmiş Krallıq Azərbaycanın enerji sektorunda əsas investorlar və tərəfdaşlar kimi çıxış edir. Xüsusilə "Əsrin müqaviləsi" nin imzalanmasından sonra bu ölkələr Azərbaycanın enerji resurslarının beynəlxalq bazarlara çıxarılmasında fəal rol oynayırlar [13]. Təhlükəsizlik sahəsində isə ABŞ və Birləşmiş Krallıqla əməkdaşlıq Azərbaycanın hərbi potensialının gücləndirilməsi, kəşfiyyat və antiterror fəaliyyətlərinin koordinasiyası, həmçinin regional sabitliyin təminatında mühüm əhəmiyyət kəsb edir [5]. İsrail ilə isə xüsusilə müdafiə və kiber təhlükəsizlik sahəsində yaxın əlaqələr mövcuddur. Hər üç ölkə ilə olan strateji əməkdaşlıq Azərbaycan üçün həm enerji təhlükəsizliyi, həm də regional geosiyasi balansın qorunması baxımından önəmlidir [8].

Çinlə Orta Dəhliz və enerji tranziti üzrə əməkdaşlıq. Çinlə əməkdaşlıq Azərbaycanın enerji diplomatiyasının yeni və strateji istiqamətlərindən biridir. "Bir Kəmər, Bir Yol" təşəbbüsü çərçivəsində Çin Azərbaycanın nəqliyyat və enerji tranzit imkanlarından geniş istifadə etməyi planlaşdırır [14]. Orta Dəhliz marşrutu Azərbaycan vasitəsilə Avropa ilə Çin arasında qısa və etibarlı enerji və yük daşımaları üçün alternativ yol kimi formalaşır. Azərbaycanın Xəzər dənizi enerji resurslarının Çin bazarına çıxarılması və həmçinin enerji infrastrukturunun inkişaf etdirilməsi bu əməkdaşlığın əsas istiqamətlərindəndir. Çin şirkətləri Azərbaycanın enerji sektorunda investisiyalar həyata keçirir və ölkə ilə əməkdaşlıqda nəqliyyat-logistika layihələrinin inkişafı xüsusi önəm daşıyır [1]. Bu əməkdaşlıq Azərbaycan üçün enerji tranziti baxımından yeni imkanlar açır, ölkənin strateji mövqeyini daha da möhkəmləndirir və regional inteqrasiyaya töhfə verir. Çinlə əməkdaşlıq həmçinin Azərbaycan üçün enerji bazarının şaxələndirilməsi və qlobal enerji siyasətində yeni tərəfdaşlıq formatlarının yaradılması baxımından önəmlidir [13].

Regional və qlobal geosiyasi rəqabət müəyyənlikləri: Rusiya və İranla münasibətlərin enerji aspektləri. Azərbaycanın enerji siyasətində Rusiya və İranla münasibətlər mühüm yer tutur və bu əlaqələr həm regional, həm də qlobal geosiyasi rəqabətin əsas elementlərindən biridir. Rusiya, uzun müddət regionun enerji bazarının dominant aktoru kimi çıxış etmiş, eyni zamanda enerji tranziti və ixracı sahəsində strateji mövqeyə sahib olmuşdur [13]. Azərbaycan isə öz enerji marşrutlarını şaxələndirməklə və Avropa bazarına birbaşa çıxış əldə etməklə Rusiyanın regional enerji hegemonluğunu balanslaşdırmağa çalışır [14]. Rusiya ilə münasibətlərdə enerji əməkdaşlığı paralel şəkildə aparılsa da, geosiyasi rəqabət də mövcuddur. Rusiya, xüsusilə qaz bazarında Azərbaycan və Cənub Qaz Dəh-

lizinə alternativ olaraq öz boru kəmərləri vasitəsilə Avropa bazarını qorumağa çalışır [4]. Bu, Azərbaycanın enerji diplomatiyasını daha çevik və çoxvektorlu olmağa məcbur edir.

İranla münasibətlərdə isə enerji sektoru həm əməkdaşlıq, həm də rəqabət sahəsidir. Azərbaycan və İran arasında sərhəd bölgəsində enerji resurslarının birgə istismarı məsələləri gündəmdədir, lakin həmçinin rəqabət də mövcuddur, çünki hər iki ölkə regional enerji tranziti və bazar payı uğrunda mübarizə aparır [8]. Azərbaycanın Avropaya birbaşa enerji nəqli imkanları İran üçün ciddi rəqabət hesab olunur. Bu kontekstdə Azərbaycan, Rusiya və İranla münasibətlərdə balanslaşdırılmış və çoxşaxəli yanaşma tətbiq edir. Enerji resursları və marşrutları vasitəsilə regionda güc münasibətlərini tənzimləmək, regional sabitliyi təmin etmək və öz geosiyasi mövqeyini gücləndirmək məqsədi ilə Azərbaycan enerji diplomatiyasını geniş spektrdə qurur [5].

Ermənistanla sülh və Zəngəzur dəhlizi kontekstində enerji və logistika. 2020-ci ilin sonlarında Qarabağ münaqişəsinin nəticəsində əldə olunan atəşkəs və sülh prosesləri Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaratmışdır. Bu kontekstdə Zəngəzur dəhlizinin açılması Azərbaycanın enerji və nəqliyyat siyasətində mühüm strateji elementə çevrilmişdir [1]. Zəngəzur dəhlizi Azərbaycan və Türkiyə üçün Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarını birləşdirən əsas tranzit keçidi rolunu oynayır və bu, regional inteqrasiyanın dərinləşməsinə şərait yaradır. Bu dəhliz vasitəsilə Azərbaycan öz enerji resurslarını Türkiyə və Avropaya daha effektiv şəkildə çatdırmaq imkanlarını artırır. Eyni zamanda, dəhlizin açılması Ermənistanla münasibətlərdə iqtisadi əməkdaşlığın genişlənməsi üçün potensial yaradır. Enerji və logistika sahəsində qarşılıqlı faydalı əməkdaşlıq bölgədə sabitliyi və inkişafı təşviq edə bilər [5]. Zəngəzur dəhlizi enerji tranziti üçün əlavə imkanlar təqdim etməklə yanaşı, regionda yeni iqtisadi nəqliyyat dəhlizlərinin formalaşmasına zəmin yaradır. Bu, Azərbaycanın enerji diplomatiyasında və regional inteqrasiyada yeni mərhələ hesab edilir [13].

Orta Asiya qazının Azərbaycan üzərindən daşınması təşəbbüsləri. Orta Asiya ölkələrinin zəngin qaz ehtiyatlarının Avropa və dünya bazarlarına çıxarılması Azərbaycanın enerji tranziti potensialını daha da artırır. Azərbaycan "Şimal-Cənub" və Cənub Qaz Dəhlizi kimi layihələrlə Orta Asiya qazının Qafqaz və Avropa bazarlarına daşınması üçün strateji tranzit ölkəsinə çevrilməkdə maraqlıdır [8]. Bu təşəbbüslər Azərbaycanın regional enerji inteqrasiyasını gücləndirməklə yanaşı, Orta Asiya qazının dünya bazarlarına çıxışını şaxələndirir və Avropa üçün enerji təhlükəsizliyini artırır. Enerji tranzitində bu rolu Azərbaycanın geosiyasi mövqeyini yüksəldir və onu qlobal enerji xəritəsində önəmli aktora çevirir [4]. Bununla yanaşı, Orta Asiya qazının Azərbaycan üzərindən tranziti Rusiya və İranın enerji bazarındakı dominantlığını balanslaşdırmaq baxımından strateji əhəmiyyətə malikdir. Azərbaycan bu istiqamətdə təşəbbüskar və koordinasiyaedici rol oynayaraq regional əməkdaşlığın inkişafına töhfə verir [14].

Çağırışlar və perspektivlər: geosiyasi risklər. Azərbaycanın geosiyasi mövqeyi onun enerji strategiyasına həm üstünlüklər, həm də ciddi çağırışlar gətirir. Əsas geosiyasi risklər sırasında münaqişə zonalarının mövcudluğu, enerji təhlükəsizliyi və kiber təhlükələr yer alır.

Birincisi, Cənubi Qafqaz regionunda uzun müddətdir davam edən münaqişələr – xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi – enerji infrastrukturu və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinə birbaşa təhdid təşkil edir [5]. Münaqişənin həlli prosesi irəliləsə də, regionda gərginlik və təhlükəsizlik riskləri hələ də mövcuddur və bu, enerji marşrutlarının sabitliyinə təsir göstərir.

İkincisi, enerji təhlükəsizliyi sahəsində risklər həm təbii, həm də süni xarakter daşıyır. Enerji kəmərlərinə hücumlar, sabotaj və regional güclər arasında siyasi gərginliklər enerji nəqli proseslərini pozmaq potensialına malikdir [13]. Bu səbəbdən Azərbaycan enerji marşrutlarının şaxələndirilməsi və müdafiəsinin gücləndirilməsi üzrə tədbirləri davam etdirir. Üçüncüsü, müasir dövrdə kiber təhlükələr enerji sektoruna ciddi risklər yaradır. Enerji infrastrukturlarına qarşı kiberhücumlar sistemlərin fəaliyyətini pozmaq, məlumat sızıntısı və iqtisadi zərərlər verə bilər. Azərbaycan kiber təhlükəsizliyi sahəsində beynəlxalq standartlara uyğunlaşmaq üçün addımlar atır və bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirir [8] Bu çağırışlara qarşı Azərbaycan enerji siyasətində innovativ yanaşmalar tətbiq etməklə, həm daxili təhlükəsizliyi, həm də regional sabitliyi təmin etməyə çalışır. Enerji təhlükəsizliyinin təmin olunması ölkənin davamlı inkişafı və beynəlxalq mövqeyinin möhkəmləndirilməsi üçün əsas amildir.

Conclusion. Research indicates that in the Armenian SSR, beginning in the mid-20th century - particularly during the wave of deportations in 1948-1953- ethnic cleansing of the Azerbaijani population was deliberately carried out, culminating in the mass expulsions of the late 1980s. Analysis of archival documents, witness accounts, and official records confirms that the violence and deportations in the northern and western regions of the Armenian SSR were not random acts, but a systematic process of ethnic cleansing, planned in advance and supported, directly or indirectly, by state authorities. Local officials, militia leaders, and even the central Soviet leadership (under instructions from

Mikhail Gorbachev) were actively involved. Moscow effectively endorsed the ethnic cleansing policies of Armenian nationalists.

The 1988 Spitak earthquake, while a natural disaster, was exploited by Armenian armed groups to intensify pressure on the Azerbaijani population. Targeting humanitarian aid further exposed the inhumanity of this policy. The chaos caused by the earthquake was deliberately used to conceal massacres, looting, and the misappropriation of property.

State institutions and law enforcement agencies of the Armenian SSR were not passive observers but active participants in the ethnic cleansing. The displaced population was stripped of property, farmland, and housing, without receiving any compensation. The self-defense efforts of villagers in Qizilshafag and other settlements demonstrate that traditions of resistance existed against deportations and massacres. Evidence from personal applications of internally displaced persons, registration cards, decisions of local Soviet bodies, and witness statements confirms these findings.

The research also shows that the authorities' actions toward Azerbaijanis in regions not directly bordering the Azerbaijan SSR were particularly harsh. The ethnic cleansing extended across nearly all northern and western regions of the Armenian SSR, including Amasya, Masis, Kalinino, Hamamli, Noyemberyan, and others.

Cultural genocide accompanied these acts of violence. Cemeteries were destroyed, mosques were demolished, and historical village names were changed (e.g., Balığlı → Zorakert; Ulukhanli → Masis; Qizilshafag → Dzünashok). In some cases, the Soviet leadership attempted to portray the deportation process as a population exchange. For example, Azerbaijanis from Qizilshafag in the Kalinino (Dashir) region were ostensibly "exchanged" with Armenians living in Kerkenj in the Shamakhi region of Azerbaijan. In reality, this exchange involved the forced displacement of a large number of Azerbaijanis in exchange for a small number of Armenians. Research demonstrates that this was effectively a secret deportation, with Azerbaijanis compelled to leave their homeland under threat and coercion.

BIBLIOGRAPHY

1. Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri K.M.Tağıyev yoldaşa Ermənistan SSR Masis r-nun Kalinin qəsəbəsindən məlum səbəblərə görə qaçmış məcburi ev əşyalarını tərk etmiş hal-hazırda Qaradağ rayonunun Sahil qəsəbəsinin Severnıy proyezd küçəsi bina 16, mənzil 60-da yaşayan Tağıyev Əsgər Həsən oğlu tərəfindən yazılmış Ərizə. 13 may 1990-cı il // Qərbi Azərbaycan İcmasının Arxivi, vərəq – 2.
2. Azərbaycan SSR Qaçqınlar Cəmiyyətinin sədri H.Tağıyev yoldaşa Ermənistandan qaçqın, hal-hazırda Lökbatan qəzəsəbində yaşayan Alıyev Səyyad Abdulla oğlundan ərizə. 10 mart 1990-cı il // Qərbi Azərbaycan İcmasının Arxivi, vərəq – 1.
3. Azərbaycan SSR Qaçqınlar Cəmiyyətinin sədri H.Tağıyev yoldaşa Qaradağ rayonunun Lök-batan qəsəbəsi massiv 5, ev 4-də yaşayan Məhərrəmov Əsəd Səməd oğlu tərəfindən ərizə // Qərbi Azərbaycan İcmasının Arxivi, Kitab 1, vərəq – 316.
4. Bayramov, Aslan. Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırımı /A.Bayramov. –Bakı: AM965, -2015. -416 s., -s. 307-308.
5. BMT-nin İnsan hüquqları üzrə Ali Komissarı Polons Des Nationsa, 1211 Cenevrə 10 sn. İsveçrə. Sumqayıt şəhəri 17-ci mikrorayon ev 25, mənzil 77-də yaşayan Qədimalıyev Cəfər Vəli oğlundan ərizə. 15 mart 1999-cu il. // Qərbi Azərbaycan İcmasının Arxivi, Kitab 11, vərəq – 387, v. 304.
6. Budaq, Z. Talelər / Z.Budaq. –Bakı: 3 saylı Bakı Mətbəəsi, -2018. -202 s.
7. Ermənistan SSR-dən gəlmiş ailələlər barəsində uçot kartoçkası 1№-li forma. Ramazanov Telman Həşim oğlunun ailəsinə məxsus kartoçka. 3 may 1990-cı il. // Qərbi Azərbaycan İcmasının Arxivi, vərəq – 3.
8. Ermənistana keçən azərbaycanlı ilə müsahibə: "Bizə heç kəs dayaq olmadı": [Video] / Femida.az, -2017, 17 mart. URL: https://femida.az/az/news/50189 [17.09.2025].
9. Əroğul, Əlisahib. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyasi (bədii, tarixi publisistika) / Ə.Əroğul. –Bakı:Təknur, -2009. -149 s., -s. 65.
10. Kalinino rayonu, Qızılşəfəq kəndi sakini 14.07.1961 tarixində doğulmuş Qurbanov Zakir Meydan oğlunun verdiyi məlumat.

11. Kalinino rayonu, Qızılşəfəq kəndi sakini 1945-ci il təvəllüdlü Hüseynov Hümmət Əhməd oğlunun verdiyi məlumat.
12. Naxçıvan şəhər XDS İcraiyyə Komitəsinin Qərarı №435. 09 sentyabr 1988-ci il // Naxçıvan MR Dövlət Arxivi, Fond 260, siyahı 7, iş 2118. –vərəq 200-201.
13. Səlimbəyli, Ş.Ə., Zamanov, N.Z., Əliyev, R.Y. Erməni terroru Qarabağda müharibənin başlaması hadisələr..faktlar / I kitab. –Bakı: Avropa nəşriyyatı, -2008. -400 s.
14. Süleymanov, N. Sağalmaz yara // Vətən səsi, -1991, 13 fevral, -s. 5.
15. Şörəyel mahalı Oxçuoğlu kəndində anadan olmuş Muxtar Məmmədtağı oğlu Həsənovun verdiyi məlumat.
16. Yugoslav Pilots Blamed in Crash of Quake Relief Plane:[Electron resource] // L.A. Times Archives, -December 24, 1988. URL: https://www.latimes.com/archives/la-xpm-1988-12-24-mn-522-story.html [17.09.2025].
17. Армения: двадцать месяцев борьбы: сборник документов / -Ереван: Самиздат АОД, -1989. -s. 15.
18. Гусейнова, С., Акопян, А., Румянцев С. Кызыл-Шафаг и Керкендж: история обмена селами в ситуации Карабахского конфликта / С. Гусейнова, А. Акопян, С. Румянцев. –Тбилиси: ФГБ, -2008. -148 с. -66.
19. Кадымбеков, З., Яковлев, Г. Зона доверия // Правда, -23 декабр, 1988. №358, -с.3.
20. Погромы в Армении в 1988-1989 годах // Azadlıq, -1991, 19 aprel. –s. 5-6.

MİRVARİ QURBANOVA
Bakı Dövlət Universiteti Tarix Fakültəsinin doktorantı,
C. Naxçıvanski adına Hərbi Liseydə müəllim

ERMƏNİSTAN SSR-İN ŞİMAL VƏ QƏRB RAYONLARINDA AZƏRBAYCANLI ƏHALİYƏ QARŞI ETNİK TƏMİZLƏMƏ (1988-1990): ƏSAS FORMA VƏ ÜSULLAR

Məqalədə 1988–1990-cı illərdə Ermənistan SSR-in, xüsusilə şimal və qərb rayonlarında yaşayan azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti araşdırılır. Arxiv sənədləri, şahid ifadələri və yerli mənbələr əsasında aparılan təhlillər göstərir ki, bu proses təsadüfi deyil, əvvəlcədən planlaşdırılmış və dövlət orqanlarının birbaşa və dolayı dəstəyi ilə həyata keçirilmişdir. Araşdırmada Amasiya, Zəngibasar, Kalinino, Hamamlı və digər bölgələrdə zorakılıq, deportasiya, mədəni irsin məhvi, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi kimi faktlar təqdim olunur. Qeyd olunur ki, Spitak (Hamamlı) zəlzələsi azərbaycanlı əhalini sıxışdırmaq üçün alətə çevrilmiş, humanitar yardımlar belə hədəfə alınmışdır. Tədqiqatlar sübut edir ki, 1988–1990-cı illərdəki hadisələr yalnız etnik qarşıdurma deyil, Ermənistan SSR rəhbərliyinin və sovet mərkəzi hakimiyyətinin dəstəyi ilə həyata keçirilən sistemli etnik təmizləmə və mədəni soyqırımı siyasətinin bir hissəsi olmuşdur.

Açar sözlər: Azərbaycanlılar, Ermənistan SSR, etnik təmizləmə, deportasiya, Spitak zəlzələsi, mədəni soyqırımı, məcburi köçkünlər, Amasiya, Zəngibasar, Kalinino, Hamamlı.

МИРВАРИ ГУРБАНОВА
Докторант исторического факультета Бакинского государственного университета,
Преподаватель Военного лицея имени Дж. Нахчыванского

ЭТНИЧЕСКАЯ ЧИСТКА ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ В СЕВЕРНЫХ И ЗАПАДНЫХ РАЙОНАХ АРМЯНСКОЙ ССР (1988–1990 ГГ.): ОСНОВНЫЕ ФОРМЫ И МЕТОДЫ

В статье исследуется политика этнических чисток, проведённая в 1988–1990 гг. в Армянской ССР, в частности в северных и западных районах, против азербайджанцев. Анализ, основанный на архивных документах, свидетельских показаниях и местных источниках, показывает, что данный процесс не был случайным, а был заранее спланирован и осуществлялся при

прямой и косвенной поддержке государственных органов. В исследовании приводятся факты насилия, депортации, уничтожения культурного наследия, изменения названий населённых пунктов в Амасии, Зангибасаре, Калинино, Хамамлы и других регионах. Отмечается, что Спитакское (Хамамлы) землетрясение было превращено в инструмент вытеснения азербайджанского населения, а гуманитарная помощь также стала объектом давления. Исследования доказывают, что события 1988–1990 гг. были не просто этническим противостоянием, а частью системной политики этнических чисток и культурного геноцида, реализованной руководством Армянской ССР при поддержке центральной советской власти.

Ключевые слова: азербайджанцы, Армянская ССР, этническая чистка, депортация, Спитакское землетрясение, культурный геноцид, вынужденные переселенцы, Амасия, Зангибасар, Калинино, Хамамлы.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İbrahim Zeynalov.

UOT 94(479.24); UOT 32:93/94

HƏVVA ORUCOVA
Bakı Dövlət Universitetinin
"Beynəlxalq münasibətlər" kafedrasının doktorantı
ORCID: https://orcid.org/0009-0000-8384-7108
havva.orucova@bsu.edu.az

PREZİDENT İLHAM ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU VƏ İNKİŞAF STRATEGİYASI

DOI: https://doi.org/10.36719/2708-065X/110/199-206

Bu məqalədə Prezident İlham Əliyevin dövlət idarəçiliyi strategiyasının əsasları və onun müxtəlif istiqamətlərdə həyata keçirilməsi elmi əsaslarla təhlil olunur. Əsas diqqət, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun çağdaş dövrdə məntiqi davamı kimi dəyərləndirilən dövlət quruculuğu fəlsəfəsinə yönəlmişdir. Prezident İlham Əliyev bu kursu zamanın tələblərinə uyğun şəkildə modernləşdirərək milli maraqlara əsaslanan çevik və nəticəyönlü idarəetmə modeli formalaşdırmışdır. Tədqiqat çərçivəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional islahatlar, iqtisadiyyatın neft amilindən asılılığının azaldılması və qeyri-neft sektorunun inkişafı kimi mühüm istiqamətlər elmi metodlarla araşdırılmışdır. Eyni zamanda, Azərbaycanın beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsi, çoxtərəfli diplomatik fəallıq və regional güc statusunun təmin olunması kimi məsələlər də bu strateji idarəetmə konsepsiyasının əsas nəticələri kimi dəyərləndirilmişdir.

Açar sözlər: İlham Əliyev, dövlət quruculuğu, Heydər Əliyev irsi, qanunvericilik, iqtisadiyyat, diversifikasiya, xarici siyasət.

Giriş. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması və davamlı şəkildə möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi rifahının yüksəldilməsi və beynəlxalq müstəvidə milli maraqlara əsaslanan aktiv mövqe sərgilənməsi, Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan dövlət siyasətinin strateji və sistemli istiqamətlərini təşkil edir. Bu siyasət öz mahiyyətinə görə, yalnız mövcud problemlərə reaksiya vermək məqsədi daşımır, eyni zamanda uzunmüddətli inkişafın təmin olunmasına yönəlmiş elmi cəhətdən əsaslandırılmış dövlət idarəçiliyi modelinin tətbiqi ilə xarakterizə olunur. Bu modelin ideya-mənəvi və konseptual baza nöqtəsi isə Ümummilli Lider Heydər Əliyevin əsası qoyduğu milli dövlətçilik strategiyasıdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən 1993-cü ildən etibarən həyata keçirilən və Azərbaycan Respublikasının müstəqilliyinin təhlükəsizlik, sabitlik və iqtisadi dayanıqlılıq əsasında qurulmasını nəzərdə tutan dövlət quruculuğu fəlsəfəsi, Prezident İlham Əliyevin siyasi fəaliyyəti dövründə yeni mərhələyə keçmiş və çağdaş dövrün qlobal və regional çağırışlarına uyğun formada yenidən təhlil edilərək inkişaf etdirilmişdir. Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən bəyan etdiyi kimi, Heydər Əliyev yolunun davam etdirilməsini prioritet məsələ olaraq qəbul etmiş və bunu konkret siyasi, iqtisadi və sosial qərarlarla gerçəkləşdirmişdir. Bu baxımdan, dövlətin idarə olunması yalnız administrativ strukturun funksionallığı ilə deyil, həm də milli ideya ilə təchiz olunmuş strateji baxışla formalaşdırılmışdır.

Bu strategiyanın əsasını təşkil edən konsepsiya yalnız siyasi rəhbərlik səviyyəsində idarəçilik təcrübəsi ilə deyil, həm də dövlətin əsas sütunlarının – qanunvericilik, iqtisadiyyat, diplomatiya və sosial siyasətin bütövlükdə yenilənməsi və dövrün tələblərinə uyğunlaşdırılması ilə izah olunur. Prezident İlham Əliyevin dövlət idarəçiliyi modelində əsas diqqət milli suverenliyin qorunması, vətəndaş rifahının artırılması, hüququn aliliyi prinsipinin təmin olunması və idarəetmədə şəffaflığın, səmərəliliyin yüksəldilməsi kimi elementlər üzərində cəmlənmişdir. Bu çərçivədə həyata keçirilən çoxsaylı islahatlar dövlətin funksional imkanlarını artırmaqla yanaşı, onun sosial və beynəlxalq legitimliyini də gücləndirmişdir.

Bu məqalədə Prezident İlham Əliyevin dövlət idarəçiliyi və inkişaf strategiyası dörd əsas istiqamət üzrə təhlil olunur: birincisi, hüquqi və institusional əsasların möhkəmləndirilməsi yolu ilə dövlət

idarəçiliyinin effektivliyinin artırılması; ikincisi, iqtisadiyyatın təkcə neft sektoru ilə məhdudlaşmaması üçün diversifikasiya siyasətinin aparılması və postneft dövrünə hazırlıq istiqamətində struktur islahatların həyata keçirilməsi; üçüncüsü, Azərbaycanın beynəlxalq aləmdə balanslaşdırılmış, çoxtərəfli və ikitərəfli münasibətlər üzərində qurulmuş xarici siyasət strategiyası ilə regional və qlobal miqyasda nüfuzunun artırılması; və nəhayət, dördüncüsü, milli maraqlara əsaslanan, xalqın maraqlarını və tarixi kimliyini mərkəzə alan bir inkişaf modelinin formalaşdırılması və sistemli tətbiqi. Bu istiqamətlərin hər biri müstəqil şəkildə öyrənildikdə belə, Azərbaycan Respublikasının son illərdə əldə etdiyi uğurların və artan beynəlxalq nüfuzunun arxasında məhz planlı və ardıcıl bir dövlət strategiyasının dayandığını sübut edir. Prezident İlham Əliyevin rəhbərliyi altında reallaşdırılan bu konsepsiya, Azərbaycanı regionda sabitliyin dayağına çevirmiş, eyni zamanda milli dövlətçiliyin çağdaş təzahür forması kimi akademik dairələrdə tədqiq edilən mühüm bir model halını almışdır.

Heydər Əliyev irsinin davamı və konsepsiyanın mahiyyəti. Prezident İlham Əliyev siyasi fəaliyyətində və dövlət idarəçiliyi praktikasında Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik konsepsiyasını əsas strateji xətt kimi qəbul etmiş və onu müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirmişdir. Heydər Əliyev irsi Azərbaycanın müstəqilliyini qorumaq, dövlət institutlarını gücləndirmək, vətəndaş cəmiyyəti qurmaq və milli maraqlar əsasında daxili və xarici siyasət yürütmək kimi fundamental istiqamətləri əhatə edirdi. Bu irs, eyni zamanda, dövlət idarəetməsində milli-mənəvi dəyərlərə söykənən, tarixi yaddaşa əsaslanan, lakin modern texnokratik yanaşmalardan da istifadə edən çevik və realist bir strategiyanın formalaşmasına şərait yaratmışdır.

Prezident İlham Əliyev 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildiyi zaman verdiyi çıxışında açıq şəkildə bəyan etmişdi ki, onun başlıca məqsədi Heydər Əliyev siyasətinin davam və inkişaf etdirilməsi olacaqdır. Bu çıxış təkcə siyasi ritorika səviyyəsində qalmamış, sonrakı illərdə həyata keçirilən struktur islahatları, idarəetmədə şəffaflıq, səmərəlilik və məsuliyyət prinsiplərinin tətbiqi, sosial rifahın artırılması və iqtisadi modernləşmə sahəsində atılan sistemli addımlar vasitəsilə konkret və praktiki məzmun qazanmışdır. İlham Əliyev üçün dövlətçiliyin əsas sütunlarını qorumaqla yanaşı, bu sütunları möhkəmləndirmək və dövrün reallıqları fonunda çevik şəkildə transformasiya etmək əsas idarəetmə fəlsəfəsinə çevrilmişdir.

Bu kontekstdə İlham Əliyevin rəhbərliyi dövründə həyata keçirilən siyasi və institusional islahatlar Heydər Əliyevin qoyduğu təməl prinsiplərə istinad etməklə bərabər, həmin prinsiplərin XXI əsrin çağırışlarına uyğun yenidən şərh edilməsini və tətbiq sahəsinin genişləndirilməsini təmin etmişdir. Heydər Əliyevin "Dövlət hər şeydən üstündür" fikrini əsas götürən İlham Əliyev, dövlətin güclü, dayanıqlı və xalqın rifahına xidmət edən bir qurum kimi fəaliyyət göstərməsi üçün idarəetmənin bütün səviyyələrində sistemli və mərhələli islahatlar həyata keçirmişdir. Bu islahatlar yalnız idarəetmə aparatının optimallaşdırılması ilə məhdudlaşmamış, həmçinin ictimai xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılması, e-idarəetmə texnologiyalarının tətbiqi və sosial ədalətin bərpası kimi sahələri də əhatə etmişdir.

Eyni zamanda, İlham Əliyev Heydər Əliyev siyasi irsinin mahiyyətini sadəcə keçmişin qorunması kimi deyil, həm də gələcəyin inşası üçün istifadə ediləcək dinamik bir idarəetmə resursu kimi dəyərləndirmişdir. Bu səbəbdən o, dövlətçiliyin təməlini təşkil edən sabitlik, təhlükəsizlik və milli həmrəylik kimi prinsipləri qorumaqla bərabər, bu prinsipləri yeni qlobal tendensiyalar və texnoloji inkişaflarla sintez etməyə çalışmışdır. Bu yanaşma, xüsusilə post-pandemiya dövründə, geosiyasi gərginliklər fonunda və 44 günlük Vətən müharibəsindən sonra ölkənin təhlükəsizlik arxitekturasının yenidən qurulması prosesində özünü açıq şəkildə göstərmişdir.

Prezident İlham Əliyevin idarəçiliyi dövründə həyata keçirilən bütün strateji proqram və islahat paketləri bir tərəfdən Heydər Əliyev siyasi kursunun prinsiplərinə söykənərək sabitlik və davamlılığı təmin etmiş, digər tərəfdən isə yeni reallıqlar və gələcək hədəflər əsasında dəyişiklik və yeniliklərə adaptasiya olunmuş müasir dövlət idarəetmə modelini formalaşdırmışdır. Beləliklə, İlham Əliyev təkcə bu irsin davamçısı deyil, eyni zamanda onun yaradıcı şəkildə inkişaf etdiricisi kimi çıxış etmiş və milli dövlətçiliyin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin etmişdir.

Hüquqi və institusional islahatlar. Prezident İlham Əliyevin siyasi rəhbərliyi dövründə hüquqi və institusional islahatlar Azərbaycan Respublikasının müasir dövlət quruculuğu modelinin əsas sütunlarından birinə çevrilmişdir. Dövlətin hüquqi əsaslarının gücləndirilməsi, idarəetmədə şəffaflığın

təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsinin institusional təminatı və hüquqi təhlükəsizliyin sistemli şəkildə formalaşdırılması dövlət idarəetməsinin mərkəzi prioritetləri sırasındadır. Bu məqsədlə Prezident İlham Əliyev dövründə həyata keçirilən hüquqi islahatlar təkcə qanunvericilik səviyyəsində deyil, həm də institusional strukturun yenidən təşkili, funksional təkmilləşmə və idarəetmənin rəqəmsallaşdırılması istiqamətində mühüm dönüş nöqtələri yaratmışdır.

Ən mühüm hüquqi islahatlardan biri Azərbaycan Respublikasının Konstitusiyasında edilmiş dəyişikliklərdir. 2009, 2016 və 2019-cu illərdə keçirilmiş referendumlar vasitəsilə Konstitusiyaya edilən əlavə və dəyişikliklər dövlətin idarəetmə modelinin çevikliyini, hüquqi sistemin səmərəliliyini və vətəndaş cəmiyyətinin hüquqi iştirakını artırmağa yönəlmişdir. Məsələn, **2016-cı il Konstitusiya islahatları (7)** çərçivəsində vitse-prezident institutunun yaradılması (Konstitusiyanın 103^1-ci maddəsi), prezident seçilmə müddətinin 5 ildən 7 ilə qaldırılması və parlamentin buraxılması hüququnun genişləndirilməsi kimi müddəalar qəbul edilmişdir. Bu dəyişikliklər dövlətin idarəetməsində məsuliyyətin və operativliyin artırılmasını hədəfləmişdir.

Bundan əlavə, **2019-cu il Konstitusiya dəyişiklikləri** çərçivəsində hüquqi islahatların əsas məqsədi insan hüquqlarının daha effektiv müdafiəsi və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılması olmuşdur. Prezident İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" **Fərmanı (8)**, bu sahədə transformasiya prosesini dərinləşdirmiş və bir sıra konkret tədbirlərin həyata keçirilməsini şərtləndirmişdir. Həmin fərman çərçivəsində aşağıdakı istiqamətlər üzrə kompleks tədbirlər planı icraya yönəldilmişdir:

- Məhkəmə yükünün azaldılması üçün elektron məhkəmə sisteminin tətbiqi ("e-Məhkəmə" informasiya sistemi),
- Hakimlərin peşəkarlığının artırılması və seçim mexanizmlərinin təkmilləşdirilməsi,
- Məhkəmə qərarlarının icrası mexanizmlərinin sürətləndirilməsi və şəffaflığın artırılması,
- İqtisadi mübahisələr üzrə ixtisaslaşdırılmış məhkəmələrin yaradılması (məsələn, Bakı Kommersiya Məhkəməsi).

Eyni zamanda, qanunvericilik bazasının yenilənməsi istiqamətində də fundamental addımlar atılmışdır. **"İnzibati icraat haqqında" (2005)**, **"İnzibati Xətalar Məcəlləsi" (2015-ci ildə yeni redaksiyada)**, **"Korrupsiyaya qarşı mübarizə haqqında" (2004)** və **"İctimai iştirakçılıq haqqında" (2013)** qanunlar vasitəsilə idarəetmə və hüquq sistemində şəffaflıq, hesabatlılıq və iştirakçılıq prinsipləri institusional mahiyyət qazanmışdır. Bu qanunlar vətəndaşların dövlət orqanlarının fəaliyyəti üzərində nəzarət imkanlarını genişləndirmiş, eyni zamanda dövlət orqanlarını fəaliyyətlərini daha qanunauyğun və hesabatlı aparmağa məcbur etmişdir.

Müasir hüquqi islahatların simvolik təzahürlərindən biri də Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan **"ASAN xidmət"** modelidir. 2012-ci ildə fəaliyyətə başlayan və qısa müddətdə beynəlxalq miqyasda nümunə kimi qəbul olunan bu sistem, dövlət xidmətlərinin operativ, şəffaf və vətəndaş yönümlü əsaslarla təşkilini təmin etmişdir. **"ASAN xidmət haqqında" Qanun** 2014-cü ildə qəbul edilmiş və bu modelin hüquqi bazasını möhkəmləndirmişdir (2). Hazırda bu model bir çox digər sahələrdə də tətbiq edilir – "ASAN Kommunal", "ASAN Viza", "ASAN Kadr" və "ASAN Məktub" kimi əlavələr vətəndaş məmnunluğunu artırmağa yönəlib.

Hüquqi islahatlar təkcə daxili qanunvericiliyin modernləşdirilməsi ilə məhdudlaşmır, həmçinin Azərbaycanın beynəlxalq hüquq sisteminə inteqrasiyası istiqamətində də genişlənməkdədir. Azərbaycan Respublikası Avropa Şurasına üzv olduğu gündən etibarən insan hüquqları və məhkəmə müstəqilliyi sahəsində bir sıra öhdəliklər götürmüş və **Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ** ilə uyğunlaşdırma prosesini davam etdirmişdir. Bununla bağlı olaraq, **"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında"** qanunun tətbiqi (6), habelə **Milli İnsan Hüquqları Fəaliyyət Planlarının (2006 və 2011)** qəbulu bu sahədə görülən ardıcıl işlərin göstəricisidir.

İlham Əliyevin rəhbərliyi ilə aparılan institusional islahatlar da hüquqi strukturun effektivliyinə yönəlmişdir. 2019-cu ildən başlayaraq bir sıra dövlət qurumları ləğv edilmiş, bəziləri birləşdirilmiş, digərləri isə modern idarəetmə prinsiplərinə uyğun yenidən təşkil olunmuşdur. **İqtisadiyyat Nazirliyi**

yanında Dövlət Vergi Xidməti, **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu**, **Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi** kimi yeni strukturlaşmalar idarəetmədə ixtisaslaşmanı və xidmətlərin keyfiyyətini artırmağa yönəlmişdir.

Bütün bu tədbirlər bir daha sübut edir ki, Prezident İlham Əliyev dövründə hüquqi və institusional islahatlar sadəcə formal dəyişikliklər deyil, mahiyyət etibarilə dövlətin funksionallığını, vətəndaşların hüquq və azadlıqlarını təmin edən, idarəetməni isə effektivləşdirən strateji xəttin əsas komponentlərindəndir. Məhz bu səbəbdəndir ki, hüquq sistemində tətbiq olunan yeniliklər Azərbaycanı regionda qabaqcıl hüquqi islahatlar modeli ilə fərqləndirən əsas amillərdən birinə çevrilmişdir.

İqtisadiyyatın diversifikasiyası və postneft dövrünə hazırlıq. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri Azərbaycanın iqtisadiyyatını neft sektorundan asılılıqdan qurtarmaq, qeyri-neft sahələrinin inkişafını təmin etmək və regional bərabərliyi gücləndirmək olmuşdur. Bu məqsədlə 2004-cü ildən başlayaraq, Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafını hədəfləyən ardıcıl və sistemli dövlət proqramları qəbul edilmiş və icra olunmuşdur. Bu proqramlar milli iqtisadiyyatın strukturunda balans yaratmaqla yanaşı, regionların infrastruktur imkanlarını genişləndirmiş, iş yerlərinin yaradılmasını stimullaşdırmış və ümumi daxili məhsulda qeyri-neft sektorunun çəkisini artırmışdır.

İlk mərhələ 2004–2008-ci illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə başlamışdır (3). Bu proqram, regionların sosial və iqtisadi göstəricilərindəki tarazsızlığı aradan qaldırmaq, infrastrukturun bərpasını təmin etmək və iqtisadi fəallığı artırmaq məqsədi daşıyırdı. Bu dövrdə regionlarda minlərlə kilometr avtomobil yolları yenidən qurulmuş, çoxsaylı məktəblər, xəstəxanalar və sosial obyektlər inşa olunmuş və ya əsaslı təmir edilmişdir. Kənd təsərrüfatının inkişafı üçün subsidiyalar və texniki dəstək genişləndirilmiş, sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi gücləndirilmişdir. Bu tədbirlər nəticəsində regionlarda iqtisadi aktivlik artmış, işsizlik səviyyəsi azalmış və insanların həyat səviyyəsində nəzərəçarpacaq yüksəliş baş vermişdir.

İkinci mərhələni əhatə edən 2009–2013-cü illər üzrə Dövlət Proqramı (4). daha konkret və sektorial yanaşmalar əsasında hazırlanmışdır. Bu mərhələdə əsas diqqət sənayeləşmə siyasətinin regionlara tətbiqinə və aqrar sektorun texnoloji əsaslarla modernləşdirilməsinə yönəlmişdir. Regionlarda yeni sənaye müəssisələri açılmış, kənd təsərrüfatında kooperativlər və iri təsərrüfat strukturları təşviq olunmuş, suvarma sistemləri yenilənmiş və turizm sahəsində böyük layihələr həyata keçirilmişdir. Sumqayıt, Mingəçevir, Gəncə kimi şəhərlərdə sənaye parkları və texnologiya mərkəzlərinin yaradılması regional sənaye potensialının inkişafına mühüm təkan vermişdir. Həmçinin, bu dövrdə sahibkarlığın inkişafı məqsədilə güzəştli kreditlər verilməsi və investisiya təşviqi mexanizmləri sadələşdirilmişdir.

2014–2018-ci illəri əhatə edən üçüncü mərhələdə artıq keyfiyyətli inkişaf və texnologiyaya əsaslanan struktur dəyişiklikləri ön plana çəkilmişdir (4). Bu mərhələdə "Made in Azerbaijan" brendi altında yerli məhsulların xarici bazarlara çıxarılması üçün dövlət dəstəyi genişləndirilmişdir. İxracın şaxələndirilməsi, logistika və sertifikatlaşdırma xidmətlərinə dövlət dəstəyi göstərilmiş, azad iqtisadi zonaların yaradılması üçün normativ-hüquqi baza formalaşdırılmışdır. Eyni zamanda, aqrar sektorun rəqəmsallaşdırılması istiqamətində "Elektron kənd təsərrüfatı" informasiya sistemi istifadəyə verilmiş, regionlarda aqroparkların və logistik mərkəzlərin sayı artırılmışdır. Bu proses qeyri-neft sektorunda məhsuldarlığın yüksəlməsinə və ixrac imkanlarının artmasına şərait yaratmışdır. Bu dövrün son proqramı isə 2019-2023-cü illəri əhatə etmişdir (5).

2023-cü ilə qədərki dövrü əhatə edən dördüncü mərhələdə isə artıq "Smart region" modeli, yaşıl enerji, rəqəmsal iqtisadiyyat və dayanıqlı inkişaf konsepsiyaları gündəlik siyasətə daxil edilmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və reinteqrasiyası da məhz bu proqramların davamı kimi həyata keçirilmişdir. Zəngilan, Laçın və Füzuli rayonlarında ağıllı kənd layihələri reallaşdırılmış, təmiz enerji potensialı əsas götürülərək "yaşıl zonalar" konsepsiyası icra olunmağa başlanmışdır. Bununla paralel olaraq, işğaldan azad edilmiş ərazilərdə beynəlxalq sərmayədarların cəlb edilməsi üçün hüquqi və iqtisadi mexanizmlər yaradılmışdır.

Eyni zamanda, bu proqramların icrası dövründə milli iqtisadiyyatın neft gəlirlərindən asılılığı nəzərəçarpacaq dərəcədə azalmışdır. Dövlət Neft Fondundan büdcəyə transferlərin payı tədricən azalmış, qeyri-neft sektorunun ÜDM-dəki çəkisi artmış və ixracda qeyri-neft məhsullarının payı yüksəlmişdir. Bu prosesin mühüm dayaqlarından biri də Prezident İlham Əliyevin 2016-cı ildə təsdiqlədiyi

"Strateji Yol Xəritələri" olmuşdur. Sənaye, kənd təsərrüfatı, turizm, kiçik və orta biznes, logistika və informasiya-kommunikasiya texnologiyaları sahələri üzrə konkret hədəflər və indikatorlar müəyyənləşdirilmiş və onların icrası üçün hüquqi, institusional və maliyyə mexanizmləri yaradılmışdır.

2003–2023-cü illər arasında həyata keçirilmiş regionların sosial-iqtisadi inkişaf proqramları yalnız infrastrukturun yaxşılaşdırılması və həyat şəraitinin yüksəldilməsi ilə məhdudlaşmamış, həm də Azərbaycanın bütövlükdə iqtisadi xəritəsinin yenidən formalaşdırılması, istehsal və istehlak münasibətlərinin bölgələr üzrə balanslaşdırılması və regional iqtisadi mərkəzlərin formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyan sənədlər olmuşdur. Bu proqramlar Prezident İlham Əliyevin postneft dövrünə hazırlıq və iqtisadi müstəqilliyin təmin olunması kimi strateji məqsədlərinə uyğun həyata keçirilmiş və Azərbaycanın milli iqtisadi modelinin möhkəmlənməsində əsas dayaqlardan birinə çevrilmişdir.

Xarici siyasət: İki və çoxtərəfli diplomatiya strategiyası. Prezident İlham Əliyevin rəhbərliyi altında formalaşan xarici siyasət strategiyası müasir beynəlxalq münasibətlər sisteminin mürəkkəb və dəyişkən reallıqları fonunda Azərbaycanın milli maraqlarını qorumağı və ölkənin beynəlxalq nüfuzunu artırmağı hədəfləyən, balanslaşdırılmış və praqmatik bir yanaşma ilə səciyyələnir. Bu siyasət Azərbaycanın coğrafi mövqeyindən, iqtisadi imkanlarından və təhlükəsizlik prioritetlərindən çıxış edərək həm ikitərəfli, həm də çoxtərəfli münasibətlər sistemində aktiv iştirakını təmin etmişdir. İlham Əliyevin xarici siyasət vizyonu, Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna əsaslanmaqla yanaşı, çağdaş qlobal çağırışlara cavab verən dinamik və çevik diplomatik xəttin formalaşdırılmasına səbəb olmuşdur.

Azərbaycanın xarici siyasətində əsas prinsip **balanslaşdırılmış münasibətlər modelidir**. Bu model, heç bir güc mərkəzinə tabe olmadan, müxtəlif siyasi qütblərlə eyni zamanda əməkdaşlıq etmək və regional ziddiyyətlərin kənarında dayanmaq məqsədini güdür. Prezident İlham Əliyev bu siyasəti həyata keçirərkən Azərbaycanı həm Qərb, həm də Şərq ölkələri ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirən, müstəqil siyasi xətt yürüdən bir dövlətə çevirmişdir. Bu yanaşmanın əsasında milli maraqların müdafiəsi, suverenliyin təminatı və beynəlxalq hüquqa əsaslanan qarşılıqlı hörmət prinsipləri dayanır.

Avropa İttifaqı ilə münasibətlər bu siyasətin vacib sütunlarından biridir. Azərbaycan bu qurumla enerji təhlükəsizliyi, nəqliyyat, ticarət və insan hüquqları sahələrində əməkdaşlıq etmiş, lakin digər bəzi tərəfdaş ölkələrdən fərqli olaraq assosiasiya sazişinə deyil, bərabərhüquqlu və balanslı əsasda əməkdaşlıq modelinə üstünlük vermişdir. 2022-ci ildə Aİ ilə imzalanan "Strateji tərəfdaşlıq üzrə enerji sahəsində anlaşma memorandumu" Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu daha da gücləndirmişdir (10). Bu əməkdaşlıq təkcə təbii qaz tədarükü ilə məhdudlaşmamış, həm də bərpa olunan enerji, nəqliyyat dəhlizləri və "yaşıl keçid" sahələrini əhatə etmişdir.

Digər tərəfdən, Azərbaycan **Rusiya Federasiyası** ilə də tarazlı və praqmatik münasibətlər qurmuşdur. Bu münasibətlər iqtisadi əməkdaşlıq, nəqliyyat-logistika əlaqələri və regional təhlükəsizlik məsələləri ətrafında inkişaf etmişdir. 2022-ci ildə iki ölkə arasında imzalanan "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" Azərbaycan-Rusiya münasibətlərində strateji tərəfdaşlıq səviyyəsinə keçidin rəsmi göstəricisi olmuşdur (9). Bu bəyannamə, eyni zamanda Azərbaycanın digər ölkələrlə əlaqələrini məhdudlaşdırmamış, əksinə onun çoxvektorlu siyasət xəttini daha da möhkəmləndirmişdir.

Prezident İlham Əliyevin xarici siyasətində xüsusi yer tutan strateji tərəfdaşlıq **Türkiyə Respublikası** ilə olan münasibətlərdir. Bu əlaqələr tarixi, mədəni və dil birliyinə əsaslansa da, 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirilən həmrəylik, bu münasibətləri daha da dərinləşdirmişdir. 2021-ci ildə imzalanan **Şuşa Bəyannaməsi** ilə Azərbaycan-Türkiyə münasibətləri rəsmi olaraq müttəfiqlik səviyyəsinə çatdırılmış və bu sənəd hərbi, enerji, iqtisadiyyat, nəqliyyat və təhsil sahələrində inteqrasiya prosesini daha da sürətləndirmişdir. Bununla yanaşı, Zəngəzur dəhlizinin açılması təşəbbüsləri də Azərbaycan-Türkiyə əməkdaşlığının regional geosiyasi çəkisini artıran faktora çevrilmişdir.

Azərbaycanın xarici siyasətində **Çin və Mərkəzi Asiya ölkələri** ilə münasibətlər də mühüm yer tutur. Çinlə əlaqələr "Bir kəmər – bir yol" təşəbbüsü çərçivəsində inkişaf etdirilərək Azərbaycanın nəqliyyat-tranzit imkanlarının beynəlxalq logistik sistemə inteqrasiyasını gücləndirmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı və Transxəzər dəhlizi kimi layihələr Azərbaycanın Avrasiya nəqliyyat xəritəsində mühüm aktora çevrilməsinə səbəb olmuşdur. Özbəkistan, Qazaxıstan,

Qırğızıstan və Türkmənistan kimi türkdilli ölkələrlə əlaqələr isə siyasi, iqtisadi və mədəni sahələrdə sıx inteqrasiyaya əsaslanır və Türk Dövlətləri Təşkilatı çərçivəsində genişlənir.

Prezident İlham Əliyev Azərbaycanı eyni zamanda **çoxtərəfli diplomatiyada da fəal oyunçuya çevirmişdir**. BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və xüsusilə **Qoşulmama Hərəkatı** kimi beynəlxalq təşkilatlarda fəallıq Azərbaycanın diplomatik nüfuzunu artırmışdır. Xüsusilə 2019-cu ildə Azərbaycanın **Qoşulmama Hərəkatına sədr seçilməsi** və 2023-cü ilə qədər bu sədrliyin uğurla davam etdirilməsi, İlham Əliyevin çoxqütblü dünyada Azərbaycanın balanslı və dialoq yönümlü mövqeyini təsdiqləyən mühüm hadisə olmuşdur. Bu müddət ərzində Azərbaycan pandemiya ilə mübarizə, beynəlxalq ədalətin müdafiəsi və qlobal çağırışlara qarşı kollektiv cavab sahələrində təşəbbüskar mövqe nümayiş etdirmişdir.

Bütün bu siyasət addımları sübut edir ki, Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını qoruyaraq, beynəlxalq münasibətlər sistemində özünəməxsus və fəal yer tutmasını təmin etmişdir. Onun xarici siyasət konsepsiyası nə yalnız bir ittifaqa, nə də yalnız iqtisadi maraqlara əsaslanır; bu konsepsiya həm də Azərbaycanın müstəqil, suveren və qlobal aktor kimi çıxış etməsinə imkan verən çoxşaxəli və dərin strateji yanaşmadır.

Nəticə. Beləliklə, Prezident İlham Əliyevin dövlət idarəçiliyi və inkişaf strategiyası, Ümummilli Lider Heydər Əliyev yolunun müasir dövrdə uğurla davam etdirilməsi və yeni çağırışlara uyğunlaşdırılması kimi səciyyələndirilir. Bu strategiya Azərbaycanda hüquqi, iqtisadi və xarici siyasət sahələrində aparılan ardıcıl və sistemli islahatların məntiqi yekununu təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən qanunvericilik və institusional dəyişikliklər dövlətin hüquqi bazasını möhkəmləndirmiş, idarəetmənin şəffaflığı və effektivliyini artırmışdır. Eyni zamanda iqtisadiyyatın diversifikasiyası, xüsusilə regionların sosial-iqtisadi inkişafına yönəlmiş proqramların icrası, qeyri-neft sektorunun genişlənməsi və ixrac potensialının artırılması Azərbaycanın iqtisadi müstəqilliyini və dayanıqlığını təmin etmişdir.

Xarici siyasətdə aparılan balanslaşdırılmış, milli maraqlara əsaslanan və praqmatik yanaşma Azərbaycanı beynəlxalq münasibətlər sistemində müstəqil və nüfuzlu aktora çevirərək, həm regionda, həm də qlobal səviyyədə strateji tərəfdaşlıq və çoxtərəfli əməkdaşlıq imkanlarını genişləndirmişdir. Azərbaycan BMT, ATƏT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlarda fəal iştirak etməklə beynəlxalq hüquq və çoxşaxəli dialoqun möhkəmlənməsinə töhfə vermiş, xüsusilə 2019-cu ildə Qoşulmama Hərəkatına sədrliyi ilə diplomatik aktivliyini yüksək səviyyəyə qaldırmışdır.

Prezident İlham Əliyevin dövlət idarəçiliyi modeli milli maraqların qorunması, daxili siyasi sabitliyin təmin olunması və vətəndaşlarla iqtidar arasında etimadın möhkəmləndirilməsi prinsiplərinə əsaslanır. Bu model strateji baxışın reallaşdırılması, sosial rifahın yüksəldilməsi və milli suverenliyin qorunması ilə yanaşı, Zəngəzur dəhlizi və Qarabağın reinteqrasiyası kimi böyük infrastruktur və yenidənqurma layihələrinin uğurla həyata keçirilməsinə imkan yaratmışdır.

Ümumilikdə, İlham Əliyev strategiyası yalnız Azərbaycanın bugünkü regional gücə çevrilməsini təmin etməklə qalmamış, həm də dövlət idarəçiliyinin çevikliyi, davamlılığı və müasir beynəlxalq tələblərə uyğunlaşması baxımından nümunəvi model kimi qiymətləndirilə bilər. Bu yanaşma gələcəkdə Azərbaycan dövlətinin dayanıqlı inkişafını və beynəlxalq arenada mövqeyinin möhkəmlənməsini təmin edən fundamental əsas kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı: (2004- 2008-ci illər): Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmişdir //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.- 2004.- № 2.- S.339-358.
2. Adilov N. AZƏRBAYCAN RESPUBLİKASINDA "ASAN XİDMƏT"İN FƏALİYYƏTİNİN İNKİŞAF TENDENSİYASI VƏ QLOBAL SƏVİYYƏDƏ ONUN QABAQCIL TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİNİN ƏSAS ASPEKTLƏRİ. // QANUN 03 (269), 2017, s.87-98.
3. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı DÖVLƏT PROQRAMI. https://files.preslib.az/projects/regions/r2/a1.pdf [07.09.2025].

4. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı DÖVLƏT PROQRAMI. https://files.preslib.az/projects/regions/r3/a1.pdf [07.09.2025].
5. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı DÖVLƏT PROQRAMI. https://files.preslib.az/projects/regions/r4/a1.pdf [07.09.2025].
6. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. https://e-qanun.az/framework/1407#_edn1 [07.09.2025].
7. Əliyev F. Konstitusiyaya təklif olunan dəyişikliklər ölkəmizdə inkişafın yeni keyfiyyət mərhələsinin başlanğıcıdır. // Xalq qazeti, 9 sentyabr 2016-cı il, cümə, s.8.
8. Mirzəbəyli İ. Azərbaycandakı hüquq islahatları beynəlxalq aləmdə yüksək qiymətləndirilir. // Xalq qəzeti.-2019.-5 sentyabr.-№194.-S.1, 3.
9. Mustafa Kamal. Azərbaycan-Rusiya: strateji tərəfdaş və müttəfiqlər. // Respublika. - 2024.- 10 oktyabr. - № 222. - S. 1, 3.
10. Sadıqlı F. Avropa İttifaqı ilə enerji əməkdaşlığı yeni pilləyə qədəm qoyub. https://azerbaijan-news.az/az/posts/detail/avropa-ittifaqi-ile-enerji-emekdasligi-yeni-pilleye-qedem-qoyub-1671923576 [07.09.2025].

ХЕВВА ОРУДЖОВА
Докторант кафедры «Международные отношения»
Бакинского государственного университета

СТРАТЕГИЯ ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА И РАЗВИТИЯ ПРЕЗИДЕНТА ИЛЬХАМА АЛИЕВА

В данной статье анализируются основы стратегии государственного управления Президента Ильхама Алиева и её реализация в различных направлениях. Основное внимание уделяется философии государственного строительства, рассматриваемой как логическое продолжение стратегического курса, заложенного Национальным Лидером Гейдаром Алиевым. Президент Ильхам Алиев модернизировал этот курс в соответствии с современными вызовами, сформировав гибкую и ориентированную на результат модель управления, основанную на национальных интересах. В рамках исследования рассматриваются ключевые направления, такие как совершенствование законодательной базы, институциональные реформы, снижение зависимости от нефтяных доходов и развитие ненефтяного сектора, с применением научного подхода. Кроме того, в статье оценивается укрепление позиций Азербайджана на международной арене, его активное участие в многосторонней дипломатии и формирование статуса региональной державы как основные результаты стратегической модели управления, реализуемой Президентом Ильхамом Алиевым.

Ключевые слова: Ильхам Алиев, государственное строительство, наследие Гейдара Алиева, законодательство, экономическая диверсификация, внешняя политика.

HAVA ORUJOVA
Doctoral student at the Department of "International Relations"
of Baku State University

PRESIDENT ILHAM ALIYEV'S STATE BUILDING AND DEVELOPMENT STRATEGY

This article analyzes the foundations of President Ilham Aliyev’s governance strategy and its implementation across various domains. The core focus is the state-building philosophy perceived as a continuation of the strategic course laid down by National Leader Heydar Aliyev. President Ilham Aliyev has modernized this course in line with contemporary challenges, establishing a flexible and results-oriented governance model based on national interests. The study examines key areas such as

the improvement of the legislative framework, institutional reforms, reduction of dependence on oil revenues, and the development of the non-oil sector using academic methodologies. Furthermore, the article evaluates the strengthening of Azerbaijan's position in the international arena, its active engagement in multilateral diplomacy, and the consolidation of its status as a regional power. These elements are presented as the core outcomes of Ilham Aliyev's strategic governance vision in the context of modern state administration.

Keywords: Ilham Aliyev, state-building, Heydar Aliyev's legacy, legislation, economic diversification, foreign policy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: s.ü.f.d. Kərəm Məmmədov, t.e.d. İbrahim Zeynalov.

UOT 327; UOT 32:93/94

ZEYNAB KAZIMOVA
Bakı Slavyan Universitetinin dissertantı
zeynabyusif@gmail.com

AZƏRBAYCANIN TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATINDA FƏALİYYƏTİNİN GENİŞLƏNMƏSİNƏ FRANSA MEDİASININ YANAŞMASI

DOI: https://doi.org/10.36719/2708-065X/110/207-210

Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə də daxil olmaqla təsisçi üzv dövlətlər tərəfindən 2009-cu ildə yaradılmış Türk Dövlətləri Təşkilatı (TDT) 4,5 milyon kvadrat kilometr ərazidə təxminən 300 milyon insanı təmsil edir və beləliklə, 2 trilyon dollarlıq təxmin edilən iqtisadi potensiala malik regional və qlobal oyunçu kimi ortaya çıxır. Təşkilata 2019-cu ildə Özbəkistan qoşulmuş, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası da müşahidəçi statusu almışdır. 2011-ci ildən bəri üzv ölkələrin liderləri keçmiş fəaliyyətləri qiymətləndirmək və növbəti il üçün hədəfləri müəyyən etmək üçün hər il bir araya gəlirlər.

TDT siyasi, iqtisadi və təhlükəsizlik sahəsində əməkdaşlıq rolundan əlavə, müxtəlif mədəniyyət qurumları üçün çətir təşkilatı rolunu oynayır. Bunlara Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Nur-Sultanda Beynəlxalq Türk Akademiyası, Bakıda Türk Mədəniyyəti və İrsi Fondu, Bişkekdə Köçəri Sivilizasiyalar Mərkəzi, İstanbulda Türkdilli İşlər üzrə Şura daxildir.

Bu məqalədə Azərbaycanın TDT-dakı rolu, bu istiqamətdə geosiyasi və mədəni aspektlər, eləcə də Fransa mediasının bu proseslərə dair informativ və siyasi yanaşmaları təhlil olunur. Məqalə TDT çərçivəsində Azərbaycanın artan nüfuzu fonunda Fransa mətbuatında müşahidə olunan qərəzli diskursu araşdırır və informasiya mübarizəsi kontekstində strateji təkliflər təqdim edir.

Açar sözlər: Azərbaycan, Türk Dövlətləri Təşkilatı, TDT, Fransa mediası, media.

Giriş. Azərbaycan 2020-ci ildə II Qarabağ müharibəsində qazandığı qələbədən sonra Cənubi Qafqazda lider dövlət mövqeyini daha da möhkəmlətmiş, uzun illər davam etmiş münaqişə artıq tarixə qovuşmuşdur. Məlum olduğu kimi, otuz il ərzində Ermənistanın işğalı nəticəsində ölkə ağır sosial-iqtisadi yüklərlə üzləşmiş, azərbaycanlılar öz torpaqlarından qovulmuş, sosial-iqtisadi problemlər artmış, işğal olunmuş torpaqlarda ermənilər tərəfindən bütün infrastruktur dağıdılmış, milli-mədəni irsə qarşı vandalizm aktları törədilmişdir. Müstəqilliyin ilk illərindən başlayaraq, onsuz da ağır olan sosial-iqtisadi, ictimai-siyasi çətinliklərlə yanaşı, 1 milyona yaxın qaçqın və məcburi köçkünlərin problemləri də ağır yük olmuşdur.

Bununla belə, qaçqın və məcburi köçkünlərin problemləri dövlətin daim diqqət mərkəzində olmuşdur. Sülh danışıqlarının nəticə verməliyi təqdirdə, nəhayət, Azərbaycan xalqının birliyi və Prezident İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlar hərb yolu ilə azad edilmişdir.

Müharibədən sonrakı dövrdə Ermənistan daxildə millətçi qüvvələrin, habelə Rusiya və Qərbin xaricdən təsirləri ilə regionda sülhə maraqlı görünməmişdir. Bu xüsusda, Qərbi Avropa dövlətləri içərisində Fransa daha açıq şəkildə Ermənistana dəstək nümayiş etdirmişdir. Fransanın Azərbaycana qarşı qərəzli münasibəti, bu iki ölkə arasında əlaqələrin soyuması ilə yanaşı, Azərbaycanın TDT çərçivəsində fəallığının artması fonunda daha da diqqət çəkmişdir.

TDT 2009-cu il Naxçıvan Sazişi əsasında yaradılmış və türkdilli dövlətlər arasında siyasi, iqtisadi, mədəni əməkdaşlığı dərinləşdirməyi hədəfləmişdir [11]. Azərbaycan təşkilatın həm təşəbbüskarlarından, həm də aparıcı iştirakçılarından biridir.

Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il noyabrın 6-da Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə qeyd etmişdir ki, "Bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir" [12].

Bu təşkilatın yaradılması tarixi şəraitdən və unikal regional ittifaq yaratmaq üçün birləşən müəyyən amillərdən irəli gəlir. Bu əsas elementləri bir neçə aspektdən vurğulamaq mümkündür. Birinci amil budur ki, Mərkəzi Asiyada bir neçə türkdilli ölkənin müstəqilliyinə yol açan Sovet İttifaqının dağılması burada yeni müstəqil dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi üçün əlverişli şərait meydana çıxarmışdır. İkincisi, qurucu üzvlər yaxın mədəni, linqvistik və tarixi əlaqələri bölüşür, bu da dil, ədəbiyyat və ənənələr kimi sahələrdə daha sıx əməkdaşlıq üçün möhkəm zəmin yaratmışdır. Üçüncüsü, ümumi çağırışları həll etmək, iqtisadi inkişafı stimullaşdırmaq və regional təsirləri artırmaq üçün ümumi arzunun olmasıdır. Nəhayət, regionda artan siyasi sabitlik çoxtərəfli əməkdaşlıq üçün əlverişli mühitin yaradılması üçün əlverişli olmuşdur. Beləliklə, qurucu üzvlər (Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə) arasında ilk müzakirələr bu hadisələrdən sonra yaranıb. İlkin dialoqlar əməkdaşlığın potensial faydalarının qarşılıqlı etirafı ilə yadda qalmış, birgə bəyannamələr və ilkin razılaşmalar TDT-nin yaranmasına zəmin yaradan institutsional əməkdaşlığın əsasını qoymuşdur [1].

Qeyd edilməlidir ki, Azərbaycan təşkilatın möhkəmlənməsi istiqamətində maliyyə dəstəyi göstərməklə yanaşı, TDT-nin institusional güclənməsinə də töhfə verməkdədir. Bu isə regionda yeni əməkdaşlıq müstəvisinin formalaşmasına şərait yaradır. Azərbaycanın TDT-də rolu bir neçə aspektdə mühüm əhəmiyyət daşıyır:

- Geosiyasi mövqe: Azərbaycan Avropa ilə Asiya arasında strateji körpü rolunu oynayır. Orta Dəhliz təşəbbüsü və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə regionun tranzit mərkəzinə çevrilmişdir [13].
- Enerji təhlükəsizliyi: Azərbaycan zəngin enerji ehtiyatları ilə TDT məkanında enerji təhlükəsizliyinin təminində həlledici rol oynayır [5].
- Mədəni-humanitar əməkdaşlıq: Azərbaycan mədəni və təhsil layihələrinin təşəbbüskarı kimi çıxış etmiş, türk xalqlarının inteqrasiyasına mühüm töhfələr vermişdir [13].
- Siyasi və diplomatik istiqamət: Prezident İlham Əliyevin türk birliyi ideyasını dəstəkləməsi Azərbaycanın təşkilat daxilində nüfuzunu artırmışdır [12].

Sadalanan arqumentləri əsas götürərək nəticə etibarilə deyə bilərik ki, Azərbaycan yalnız təşkilat çərçivəsində deyil, ümumilikdə türk dünyasının strateji gələcəyinin formalaşdırılmasında aparıcı rol oynayır.

TDT-nin fəaliyyətinin fəallaşması, eləcə də Azərbaycanın TDT çərçivəsində fəallığı Fransa mediasında əsasən qərəzli şəkildə işıqlandırılmış, Azərbaycana qarşı dezinformasiya ittihamları irəli sürülmüşdür. "Le Monde" qəzetində Azərbaycanın Fransanın keçmiş müstəmləkələrində baş verən hadisələri işıqlandırması "anti-kolonial dezinformasiya" kimi təqdim edilir [6, 8].

Bununla yanaşı, Fransa mediasında təqdim olunan məqalələrdə təşkilatın regional gücə çevrilməsi "narahatlıqla" qarşılanmışdır. 12 noyabr 2021-ci ildə İstanbulda keçirilən Zirvə toplantısında təşkilatın adının Türk Dövlətləri Təşkilatı adlandırılmasına diqqət çəkən "Le Courrier international" aylıq siyasi jurnalı yazırdı ki, "Türk Şurasının yeni adı və yeni proqramı var. Mərkəzi Asiyanın və Cənubi Qafqazın 5 türkdülli ölkəsi qlobal geosiyasətə təsir etmək əzmini göstərirlər" [2].

Fransız mətbuatı Azərbaycanın Türkiyə ilə strateji yaxınlaşmasını və türkdilli dövlətlərlə əlaqələrinin genişlənməsini bir növ geosiyasi çağırış kimi təqdim edir. [9, 10].

Bundan başqa, Fransa mediası Azərbaycanı bu ölkənin daxili işlərinə müdaxilə ilə suçlamışdır. "Le Monde" yazırdı ki, Fransa daxili işlər naziri G.Darmanin Azərbaycanın Yeni Kaledoniyadakı etirazlara "müdaxilə etdiyini" iddia etmişdir [7].

Digər tərəfdən, fransız mediası tərəfindən Azərbaycanın Fransa ilə informasiya mübarizəsi apardığı vurğulanmışdır [3, 4].

Bu yanaşmalar göstərir ki, Fransa mediası Azərbaycanın TDT daxilində fəallığını, xüsusilə Türkiyə ilə yaxınlaşmasını, eləcə də türkdilli ölkələrlə əlaəqlərinin genişlənməsini regionda öz geosiyasi maraqlarına təhdid kimi qiymətləndirmişdir.

Nəticə. Fransa mediasında TDT çərçivəsində Azərbaycanın fəallığına dair ayrıca analitik yazılar az olsa da, ümumi diskurs fonunda bu əməkdaşlığa isti münasibət olmadığı aydın görünür.

Təhlillər göstərir ki, Fransa mediasında Azərbaycanla bağlı qərəzli yanaşma iki istiqamətdə formalaşır. Bunlardan biri, yuxarıda qeyd edildiyi kimi, fransız mediasında Azərbaycanın Fransanın keçmiş müstəmləkə ərazilərində baş verən hadisələrin işıqlandırılmasına görə "dezinformasiya kampani-

Внутренние угрозы включают социально-экономическую нестабильность и т.п. Эти факторы получили оценку риска 8 из 10, что означает высокий уровень угрозы. Например, социальное неравенство и протестные настроения, вызванные недовольством экономической ситуацией, могут дестабилизировать политическую систему страны. Внешние угрозы, такие как, геополитическое давление со стороны других государств и кибератаки, имеют ещё более высокую оценку риска - 9 из 10 [3].

Таблица 1:

Типы угроз политической безопасности и их влияние

Тип угрозы	*Описание*	*Оценка риска (1-10)*	*Пример*
Внутренние угрозы	социально-экономическая нестабильность	8	Социальное неравенство и протесты
Внешние угрозы	геополитическое давление, кибератаки	9	Территориальные споры и международные санкции

Источник: Кардашова И.Б. «Основы теории национальной безопасности: учебник для вузов». Москва, издательство «Юрайт», 2024 г., 334с.

Таблица 2:

Геополитические риски и акторы

Геополитический актор	*Оценка риска для Азербайджана (1-10)*	*Риски для Азербайджана*	*Пример воздействия*
Россия	7	Политическое давление, вмешательство	Поддержка определённых политических сил
Турция	6	Экономическая и военная конкуренция	Конкуренция в вопросах транспорта и энергетики
Иран	8	Региональные конфликты и религиозные вопросы	Усиление влияния шиитской общины
США	9	Энергетическая политика, влияние на внутреннюю политику	Влияние на энергетические коридоры

Источник: Алиев М.Т. Экономика Азербайджана. Баку, издательство «Институт УНХ», 1998г., 218с.

Таблица фокусируется на четырёх ключевых геополитических акторах, которые оказывают влияние на политическую безопасность Азербайджана: Россия, Турция, Иран и США. Россия получает оценку риска 7 из 10, что отражает политическое давление и вмешательство в дела Азербайджана. Это проявляется в поддержке определённых политических сил внутри страны и влиянии на региональную политику. Турция, с оценкой риска 6 из 10, является конкурентом Азербайджана в экономической и военной сферах, особенно в вопросах транспортировки и энергетики. Иран, с оценкой риска 8 из 10, представляет собой угрозу в контексте региональных конфликтов и религиозных вопросов, таких как усиление влияния шиитской общины. США оцениваются на 9 из 10, что связано с их значительным влиянием на энергетическую политику и внутренние политические процессы в Азербайджане, а также конкуренцией в энергетических коридорах [1].

Таблица 3:

Влияние киберугроз на политическую безопасность

Тип киберугрозы	*Частота инцидентов (в год)*	*Последствия*	*Пример*
Хакерские атаки	12	Нарушение работы государственных систем	Атака на правительственные веб-сайты
Дезинформация	20	Дестабилизация политической обстановки	Фейковые новости и политические кампании
Утечка данных	5	Утечка конфиденциальной информации	Публикация секретных документов
Кибершпионаж	8	Сбор данных о государственных деятелях	Кража данных политиков и чиновников

Источник: Пириев А.М. Политическая стратегия и проблемы национальной безопасности (на азерб. яз). Баку, издательство «БГУ», 2002г., 534с.

Таблица описывает четыре типа киберугроз и их частоту в год. Хакерские атаки происходят примерно 12 раз в год и могут нарушить работу государственных систем, что является серьезной угрозой для стабильности. Например, атаки на правительственные веб-сайты могут вызвать временные сбои в функционировании государственных служб. Дезинформация, которая возникает около 20 раз в год, оказывает дестабилизирующее воздействие на политическую обстановку через распространение фейковых новостей и манипуляцию общественным мнением. Утечка данных, с частотой 5 инцидентов в год, представляет угрозу конфиденциальной информации, публикация секретных документов может нанести ущерб национальной безопасности [4].

Таблица 4:

Экономические факторы и политическая нестабильность

Экономический фактор	*Политические последствия*	*Уровень воздействия (1-10)*	*Пример*
Безработица	Рост протестных настроений	9	Массовые протесты из-за экономического кризиса
Инфляция	Социальная нестабильность	8	Резкий рост цен на товары первой необходимости
Низкий уровень доходов	Недовольство правительством	7	Увеличение бедности
Коррупция	Утрата доверия к государственным институтам	10	Скандалы с участием политических деятелей


Источник: Вечканов Г.С. Экономическая безопасность. Москва, издательство «СПб.: Вектор», 2005г., 251с.

Таблица рассматривает экономические факторы, которые могут вызывать политическую нестабильность, такие как безработица, инфляция, низкий уровень доходов и коррупция. Безработица получает оценку воздействия 9 из 10, что свидетельствует о её значительном влиянии на рост протестных настроений. Массовые протесты, вызванные экономическим кризисом, могут значительно подорвать стабильность страны. Инфляция, с оценкой 8 из 10, может вызвать

социальную нестабильность через резкий рост цен на товары первой необходимости, что вызывает недовольство у населения. Низкий уровень доходов с оценкой 7 из 10 связан с недовольством правительства, так как ухудшение условий жизни приводит к росту социальной напряженности. Коррупция, с самым высоким уровнем воздействия - 10 из 10, ведет к утрате доверия граждан к государственным институтам и может стать причиной серьезных политических скандалов, таких как участие высокопоставленных лиц в коррупционных схемах [2].

График 1.

Геополитические риски для Азербайджана




Источник: Рзаев И.Б. Экономическая стратегия Азербайджана в сфере внешних связей / Мировая экономика в XXI веке: проблемы и перспективы. Сборник научных трудов. Москва, издательство «РУДН ИМЭБ», 2004г., 104с.

На графике представлена визуализация геополитических рисков для Азербайджана, связанных с четырьмя ключевыми международными игроками: Россией, Турцией, Ираном и США. Каждая страна оказывает различное воздействие на политическую безопасность Азербайджана, причём степень этого воздействия оценивается по шкале от 1 до 10. США представляют наибольшую угрозу для Азербайджана, получив оценку 9 из 10. Главными факторами здесь являются энергетическая политика и вмешательство во внутренние дела страны. США активно участвуют в политических и экономических процессах, связанных с энергетическими ресурсами Азербайджана, что ставит под угрозу стабильность в энергетической сфере и создаёт дополнительные вызовы для внешнеполитического маневрирования. Влияние на энергетические коридоры и стратегические интересы Азербайджана делает эту угрозу особенно значимой. Иран получил оценку 8, что также свидетельствует о высоком уровне риска. Этот риск связан с региональными конфликтами и религиозными факторами. Азербайджан находится в непосредственной близости от Ирана, и взаимодействие с шиитской общиной внутри страны усиливается под влиянием иранской политики. Помимо этого, региональная нестабильность, вызванная конфликтами на Ближнем Востоке, имеет потенциал перетекания на территорию Азербайджана, что усиливает политические риски. Россия оценивается на уровне 7 из 10, что отражает значительное, но несколько более умеренное политическое давление. Россия традиционно играет роль крупного геополитического игрока в регионе Южного Кавказа и активно использует своё влияние для продвижения собственных интересов. Поддержка определённых политических сил в Азербайджане и участие в международных инициативах, влияющих на региональные балансы, создают серьёзные вызовы для суверенитета и политической стабильности Азербайджана. Однако по сравнению с США и Ираном, влияние России несколько менее агрессивно, что и объясняет более низкую оценку риска. Турция, с оценкой риска 6 из 10, представляет собой умеренную угрозу. Основные риски исходят из экономической и военной конкуренции. Турция - один из важнейших партнёров Азербайджана, но также является соперником в таких сферах, как транспортировка энергоносителей и обеспечение регионального влияния. Конкуренция в

вопросах энергетики и транспортных коридоров может привести к осложнениям во взаимоотношениях, но историческая и культурная близость этих двух стран смягчает влияние этих рисков. Это делает Турцию меньшей угрозой по сравнению с другими акторами, представленными на графике [6].

Рисунок 1.

Структура национальной безопасности Азербайджанской Республики



Источник: Рзаев И.Б. Проблемы социально экономического развития регионов Азербайджана / Роль государства в развитии отраслевых рынков. Сборник научных трудов. Москва, издательство «РУДН», 2004г., 125с.

Изображение отражает структуру национальной безопасности Азербайджанской Республики, где показаны различные виды угроз и рисков, которые могут оказывать влияние на политическую безопасность страны. Схема делит угрозы на несколько ключевых аспектов, которые касаются государства, общества и личности.

Во-первых, указаны угрозы, связанные с территориальной целостностью и суверенитетом страны. В современных условиях Азербайджан сталкивается с рисками, связанными с внешними акторами, которые могут попытаться ослабить государственные институты или нарушить единство территории. Это особенно актуально в контексте геополитических вызовов, таких как региональные конфликты.

Во-вторых, значительное внимание уделяется угрозам, касающимся единства народа, языка, обычаев и традиций. Эти угрозы могут быть как внешними (например, попытки вмешательства через информационные или киберугрозы), так и внутренними, когда социально-экономическая нестабильность, коррупция или этнические конфликты могут дестабилизировать ситуацию в стране.

Следующий ключевой элемент схемы - это риски, связанные с потерей устойчивости государства, вызовы и угрозы, которые могут нанести урон стабильности. Политическая безопасность Азербайджана тесно связана с устойчивостью его политической системы и способностью противостоять внешним и внутренним вызовам, включая информационные войны, киберугрозы и влияние глобальных акторов на внутреннюю политику страны [5].

Заключение. Политическая безопасность является одной из ключевых составляющих национальной безопасности государства, особенно в условиях современных глобальных вызовов и угроз. В ходе проведённого исследования были выявлены и проанализированы как внутренние, так и внешние факторы, оказывающие влияние на политическую стабильность и безопасность Азербайджанской Республики. В условиях глобализации, геополитической нестабильности и активного информационного противостояния политическая безопасность становится всё более сложной и многогранной задачей, требующей комплексного подхода и скоординированных усилий. Одним из основных выводов данного исследования является то, что Азербайджанская Республика сталкивается с множеством внутренних угроз, таких как социально-экономическая нестабильность и т.п. Внутренние угрозы могут стать катализатором политической нестабильности, которая способна ослабить устойчивость государства и его способность эффективно реагировать на внешние вызовы. Неравномерное развитие регионов, безработица, снижение уровня жизни в отдельных слоях населения могут приводить к социальному напряжению и подрывать доверие к государственным институтам, что делает вопрос внутренней стабильности критически важным. Среди внешних угроз особое внимание в исследовании было уделено конкуренции за влияние в регионе со стороны внешних акторов, таких как Россия, Турция, Иран и западные страны, создаёт дополнительные угрозы для политической безопасности страны. Ещё одной важной угрозой, выявленной в ходе исследования, являются кибератаки и информационные войны. С развитием цифровых технологий и интернета государства становятся всё более уязвимыми перед киберугрозами, которые могут дестабилизировать внутренние процессы и нарушить функционирование критической инфраструктуры.

ЛИТЕРАТУРА

1. Алиев М.Т. Экономика Азербайджана. Баку, издательство «Институт УНХ», 1998г., 218с.
2. Вечканов Г.С. Экономическая безопасность. Москва, издательство «СПб.: Вектор», 2005г., 251с.
3. Кардашова И.Б. Основы теории национальной безопасности: учебник для вузов. Москва, издательство «Юрайт», 2024 г., 334с.
4. Пириев А.М. Политическая стратегия и проблемы национальной безопасности (на азерб. яз). Баку, издательсвто «БГУ», 2002г., 534с.
5. Рзаев И.Б. Проблемы социально экономического развития регионов Азербайджана / Роль государства в развитии отраслевых рынков. Сборник научных трудов. Москва, издательство «РУДН», 2004г., 125с.
6. Рзаев И.Б. Экономическая стратегия Азербайджана в сфере внешних связей / Мировая экономика в XXI веке: проблемы и перспективы. Сборник научных трудов. Москва, издательство «РУДН ИМЭБ», 2004г., 104с.

LEYLA NƏCƏFOVA ƏLİZADƏ
Bakı Dövlət Universitetinin doktorantı

DÖVLƏTİN MÜASİR İNKİŞAF DÖVRÜNDƏ SİYASİ TƏHLÜKƏSİZLİK MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Müasir dövr istənilən dövlətin, o cümlədən Azərbaycan Respublikasının siyasi təhlükəsizliyinə təhdidlərin və risklərin sayının artması ilə xarakterizə olunur. Bu təhdidlər həm daxili, həm də xarici ola bilər və hər biri təhlil edilməsini və müvafiq tədbirlərin tətbiq edilməsini tələb edir. Azərbaycan strateji əhəmiyyətli regionda yerləşir, əsas enerji və nəqliyyat qovşağı kimi xidmət edir, qlobal güclərin diqqətini cəlb edir. Regionda nüfuz uğrunda rəqabət ölkənin daxili işlərinə qarışmaq kimi, o cümlədən daxili siyasətdə manipulyasiya cəhdləri, Azərbaycanın qlobal səhnədə mövqelərinin zəifləməsi kimi risklər yaradır.

Açar sözlər: siyasi təhlükəsizlik, Azərbaycan Respublikası, daxili təhdidlər, xarici təhdidlər, enerji və nəqliyyat qovşağı.

LEYLA NAJAFOVA ALIZADA
PhD of the Baku State University

WAYS TO IMPROVE THE MECHANISM OF STATE POLITICAL SECURITY IN THE MODERN PERIOD OF STATE DEVELOPMENT

The modern era is characterized by a growing number of threats and risks to the political security of any state, including the Republic of Azerbaijan. These threats can be both internal and external, and each requires careful analysis and the development of appropriate mitigation measures. Azerbaijan is located in a strategically important region, serving as a key energy and transportation hub, attracting the attention of global powers. Competition for influence in the region creates risks of interference in the country's internal affairs, attempts to manipulate domestic politics, and a weakening of Azerbaijan's position on the global stage.

Keywords: political security, Republic of Azerbaijan, internal threats, external threats, energy and transportation hub.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: s.e.ü.f.d. Kərəm Məmmədov, s.e.d. Adil Mirabdullayev.

UOT 327

ELVİN TALIŞINSKİ
Azərbaycan Universiteti Siyasi və ictimai elmlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
elvin.talishinsky@au.edu.az

ŞÜURUN MANİPULYASİYASI İNFORMASİYA MÜHARİBƏSİNİN PSİXOLOJİ SİLAHI KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/252-256

Məqalədə ictimai şüurun manipulyasiyası fenomeni informasiya-kommunikasiya texnologiyalarının inkişafı və onların siyasi sistemə təsiri kontekstində araşdırılır. Qeyd olunur ki, internet, kütləvi informasiya vasitələri və mobil rabitənin inkişafı nəticəsində yaranan informasiya axınının sürətlə artması insanların emosiyalarına, iradəsinə və sosial davranışlarına gizli təsir üçün əlverişli şərait yaradır. "Manipulasiya" anlayışının leksik-semantik və tarixi təhlili verilmiş, manipulyasiya, inandırma, təklif və təsir arasındakı fərqlər aşkar edilmişdir. G.Le Bon, J. Ortega y Gasset, A.Gramsci, G.Lassuell, eləcə də H.Franke, G.Schiller və T. van Dijkin tədqiqatlarında təqdim olunan manipulyasiyanın öyrənilməsinə elmi yanaşmalara xüsusi diqqət yetirilir. Manipulyasiyanın həm mənfi, həm də konstruktiv aspektləri, o cümlədən A.Jivaleviç tərəfindən "müsbət manipulyasiya" anlayışı müəyyən edilir.

Açar sözlər: manipulyasiya, ictimai şüur, informasiya və kommunikasiya texnologiyaları, təsir, müsbət manipulyasiya.

Giriş. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə siyasi sistemə müasir təsir imkanları siyasi münasibətləri keyfiyyətcə yeni səviyyəyə çıxarıb, hakimiyyətlə vətəndaşlar arasında əks əlaqəni təmin edib. Dünyada, xüsusən də son onilliklərdə baş verən müasir siyasi hadisələr şüurun manipulyasiyasının öyrənilməsi probleminin aktuallaşmasına səbəb olmuşdur. Bu vəziyyətdə şüurun manipulyasiyası konsepsiyalarına xas olan potensial diqqətlə təhlil edilməlidir ki, onlardan cəmiyyətə təsir etmək üçün istifadə olunsun.

Kompüter texnologiyalarının, İnternetin inkişafı və təkmilləşdirilməsi, habelə kütləvi informasiya vasitələrinin (radio, televiziya və mobil rabitə) yüksək əlçatanlığı informasiya axınının sürətləndirilmiş hərəkətinə kömək edir. İctimai yaddaşın müasir mexanizmləri və onlara əsaslanan informasiya mühiti ictimai şüurun müxtəlif forma və səviyyələrini manipulyasiya etmək üçün imkanlar yaradır. Bu, insanın psixikasına və sosial davranışına nəzarət etmək üçün onun emosiya və iradəsinə müxtəlif təsir üsullarından istifadə etməklə həyata keçirilir. Beləliklə, şüurun manipulyasiyası həyatın bütün sahələrini əhatə edən və müxtəlif formalarda özünü göstərən sistemli xüsusiyyətə çevrilir.

Manipulyasiya anlayışının təhlili. Bir çox lüğətləri nəzərdən keçirərkən görürük ki, "manipulyasiya" anlayışı adətən "xüsusi niyyət, məqsədlərlə, obyektlərlə işləmək" kimi müəyyən edilir. "Manipulasiya" sözünün kökü latınca "manus" – əl (manipulus – manus – əl və ple – doldurmaq) sözündəndir. Oksford İngilis dili lüğəti manipulyasiyanı kiminsə və ya nəyinsə ustalıqla idarə etməsi kimi müəyyən edir. Bundan başqa, əgər tibbdə "manipulyasiya" bədənin bəzi hissəsinin əllərin köməyi ilə yoxlanılması və ya əllə edilən tibbi prosedurlar deməkdirsə və burada diqqət çevikliyə, manipulyasiya hərəkətlərini yerinə yetirməkdə çevikliyə verilirsə, texniki sferada "manipulyasiya" anlayışının nəzərdən keçirilməsi əllə hazırlanmış mexanizmin rıçaqları ilə müəyyən hərəkətləri göstərir.

Belə çıxır ki, ilkin "manipulyasiya" anlayışı əl ilə yerinə yetirilən və bacarıqlı icra tələb edən müəyyən mürəkkəb hərəkətləri nəzərdə tuturdu. Bu cür manipulyasiya hazırda demək olar ki, hər yerdə, xüsusən də texnologiya, incəsənət, tibb və digər sahələrdə tətbiq olunur. Bununla belə, əksər polisemantik anlayışlar kimi, "manipulyasiya" sözü də məcazi məna daşıyır, burada o, aldadıcı xarakterli fokal və ya eqoist hərəkət kimi müəyyən edilir, məqsədi reallığın hər hansı bir hadisəsini dərk edərkən manipulyasiya obyektinin şüurunda müxtəlif illüziyalar yaratmaqdır. Burada manipulyatorun hərəkətlərinin mahiyyəti hansısa mexanizmi məharətlə idarə etmək deyil, müxtəlif üsullar-

dan istifadə etməklə insanın diqqətinə və şüuruna virtuoz təsir göstərməkdən ibarətdir. Məhz bu mənada siyasi manipulyasiyadan tez-tez istifadə olunur. XX əsrin sonu - XXI əsrin əvvəllərində siyasi manipulyasiya fenomeni onun təhlilinə müxtəlif yanaşmalarla zənginləşdi. Ümumiyyətlə, müasir elmi-publisistik ədəbiyyatda "manipulyasiya" anlayışının çoxlu şərhləri var ki, bu da bu terminin qeyri-müəyyənliyindən və onun siyasi prosesdə nəzərə alınmasına xeyli sayda yanaşmadan xəbər verir.

Qeyd etmək vacibdir ki, "manipulyasiya" termini çox vaxt informasiya müharibəsi, "yumşaq güc", təbliğat, "beyin yuyulması", "makiavelizm", dezinformasiya, siyasi oyunlar və s. kimi hadisələrlə əlaqələndirilir. "Manipulyasiya" çox vaxt "təsir", "təklif", "inandırma" sözlərinin sinonimi kimi istifadə olunur. Təqdim olunan "manipulyasiya" termini anlayışları onların bir-biri ilə sıx əlaqəli olduğunu göstərir. Aydındır ki, təklif, təsir və inandırma birbaşa subyekt-obyekt ünsiyyətini nəzərdə tutur. Onların hamısı prosessual, dinamik xarakter daşıyır və bir insanın və ya bir qrup insanın daxili vəziyyətini dəyişdirməyə yönəldilmişdir. Eyni zamanda, onların da əhəmiyyətli fərqləri var. Birincisi, təsir təklifdən fərqli olaraq təkcə psixoloji hərəkəti nəzərdə tutmur. Zərbə fiziki məkanda da həyata keçirilir. Təsir, təklifdən fərqli olaraq, insanın şüurunun məqsədyönlü proqramlaşdırılmasını nəzərdə tutmur; təbliğat kimi xüsusi bir niyyətlə birbaşa ola bilər [1, 175], lakin çox vaxt dolayı yolla olsa da təsadüfən həyata keçirilir.

Manipulyasiyanın məqsədi müəyyən psixoloji, fiziki, birbaşa və ya dolayı təsir vasitəsilə obyektə münasibət, məqsəd və davranış aşılamaqdır. Buna baxmayaraq, manipulyasiya və inandırma qütb anlayışlarıdır, çünki inandırma, manipulyasiyadan fərqli olaraq, təsir subyektinin öz məqsəd və mövqelərini gizlətmədiyi açıq təbiətlidir.

İctimai şüurun manipulyasiyası anlayışına yanaşmalar. XIX əsrin sonu – XX əsrin ortalarında kütləvi hərəkatların mahiyyətini və spesifikliyini tədqiq edən o dövrün məşhur tədqiqatçıları – Q.Le Bon, J.Orteqa y Qasset, A.Gramsci, H.Lassuell ictimai şüurun manipulyasiyası problemlərinə toxunmuşlar. Fransız psixoloqu, sosioloqu və antropoloqu Q.Le Bon "Kütlələrin psixologiyası" əsərində yazırdı ki, insanların idarə olunmasının əsasını ideyalar, hisslər və adətlər təşkil edir, onların daşıyıcıları müəyyən cəmiyyətin nümayəndələridir. [2, 175] O, insanları idarə etmək üçün imkanlar açan kütlələrin əsas xüsusiyyətlərini müəyyənləşdirdi. Birincisi, ədədi kütlənin təsiri altında olan fərdin şüurunda yaranan qarşısıalınmaz qüvvə hissi; insanın öz hərəkətlərinə görə fərdi məsuliyyətini aradan qaldırır, çünki onu bütövlükdə kütləyə ötürür. İkincisi, yoluxuculuq: izdihamda yaranan hər hansı hisslər onun bütün iştirakçılarını əhatə edir. Üçüncüsü, izdihamda bir fərdin rasional düşüncələrinin sıxışdırılması nəticəsində yaranan insanların təklifə qarşı həssaslığı. Bu xüsusiyyətlər istənilən ideya və baxışın kütləvi şüura daxil olması üçün əlverişli zəmin yaradır.

Öz növbəsində ispan filosofu Xose Orteqa y Qasset "Kütlələrin üsyanı" əsərində qeyd edirdi ki, "Kütlə xüsusi ixtisasa malik olmayan insanların məcmusudur. Deməli, kütlə dedikdə təkcə və ya əsasən "işçi kütlə" başa düşülməməlidir. Kütlə orta insandır. Beləliklə, adi kəmiyyət olan çoxluq keyfiyyət müəyyənliyinə çevrilir: o, ümumi ictimai keyfiyyətə çevrilir, digər insanlardan fərqlənməyən, lakin özündə ümumi bir tipi təkrarlayan kimi". [3, 6-7] Bu sözlər kütlənin siyasi prosesdə rolunu vurğulayır, onların şüurunu və davranışını məharətlə idarə etməyin mümkünlüyündən xəbər verir. Lassuel, Le Bon, Ortega y Gasset və Gramscinin ideyalarına qayıdaraq vurğulamaq olar ki, onlar manipulyasiyaya fərdi şüurun kütləviləşməsi prosesində özünü göstərən fenomen və böyük sosial qrupların idarə edilməsi aləti kimi baxırdılar.

Lider və nəzəriyyəçi Gramsci tərəfindən hegemonluq anlayışının daha ətraflı tədqiqi nəticəsində məlum olur ki, onun fikrincə, xalqın idarə olunmasında hakimiyyətin əsas mexanizmi məcburiyyətdən çox, inandırmaqdır. Gramsci hesab edirdi ki, hökumətin iki sütunu var: güc və razılıq. Bu kontekstdə əsas amil hegemonluq fenomenidir ki, Gramsciyə görə, onu idarə etmək üçün cəmiyyətdən müəyyən səviyyədə "aktiv" razılıq əldə etmək lazımdır. Hegemonluq bütün cəmiyyətə dinamik (statik olmayan) dövlət - daimi, davamlı proses kimi təsir edir. [4, 205] Gücün məcburiyyət elementlərindən istifadə etmədən cəmiyyətə təsir etdiyi zaman isə ona "yumşaq güc" elementi kimi baxmaq olar.

XX əsrin ikinci yarısında manipulyasiyanın bilavasitə tədqiqinə həsr olunmuş alimlərin (H.Franke, G.Schiller, T.N.Dijk) ilk əsərləri nəşr olundu. Bilavasitə şüurun manipulyasiyasına həsr olunmuş ilk kitablardan biri alman sosioloqu Herbert Frankenin "Manipulyasiya edilmiş insan"

(1964) kitabıdır. O, manipulyasiyaya belə tərif vermişdir: "Əksər hallarda manipulyasiya gizli şəkildə həyata keçirilən və deməli, onun yönəldildiyi şəxslərin zərərinə olan psixi təsir kimi başa düşülməlidir. Bunun ən sadə nümunəsi reklamdır". [5, 16] Sonradan amerikalı tədqiqatçı G.Schiller "Şüurun manipulyatorları" (1980) əsərində manipulyasiya vasitəsilə "gizli məcburiyyət, düşüncələrin, niyyətlərin, hisslərin, münasibətin, davranışın proqramlaşdırılması" fikrini irəli sürmüşdür. [6, 12] Beləliklə, bu alimlər üçün "manipulyasiya" mənfi məna daşıyır və birmənalı olaraq həmişə etik normaların pozulmasıdır. Niderlandlı dilçi-alim T.Dijk sosial normaların pozulması ilə əlaqədar manipulyasiyanı qeyri-qanuni təsir forması, hakimiyyətdən sui-istifadə forması, gizli yol və vasitələrlə insanlara hökmranlıq etmək istəyi kimi hesab edir. [7, 360]

Bu fikirlətin təhlili göstərir ki, qərb alimləri G.Schiller, T.Dijk və başqaları manipulyasiyanı insana və cəmiyyətə zərər vuran dağıdıcı hadisə kimi qiymətləndirirlər. Öz növbəsində, amerikalı alim R.Holiday "manipulyasiya" və "təsir" anlayışlarını bir-birindən fərqləndirərək vurğulayır ki, "biz hamımız öz məqsədlərimizə nail olmaq üçün başqa insanlara təsirdən istifadə edirik və bu, sağlam sosial fəaliyyətin əlamətlərindən biridir. Manipulyasiya o zaman başlayır ki, biz gizli şəkildə insanı müəyyən bir hərəkət etməyə məcbur etməyə, onu istismar etməyə və bununla da onun hüquqlarını nəzərə almamağa çalışırıq" [8].

Fikrimizcə, manipulyasiya insanın psixi strukturlarına yönəlmiş, gizli şəkildə həyata keçirilən və insanların düşüncələrini, motivlərini və məqsədlərini hakimiyyət orqanlarının istədiyi istiqamətdə dəyişmək məqsədini güdən hərəkətdir.

Bəzən mənbələrdə Yeni Zelandiya filosofu A.Jivaleviçin pozitiv manipulyasiya nəzəriyyəsinə rast gəlinir ki, onun fikrincə, "müsbət manipulyasiya növü çox vaxt müxtəlif istehsal təşkilatlarında gizli motivasiya vasitəsi ilə istifadə olunur. Burada motivasiya o qədər güclü olmalıdır ki, insanları etmək istəmədiklərini etməyə məcbur etsin. Əks halda, işçinin üzərinə düşən vəzifələr arzuolunan olmayacaq". [9] Bu halda manipulyator təşkilatın işçisinin funksionallığını və məhsuldarlığını artırmaq məqsədini güdür. Bu istiqamətdə manipulyasiya vasitələri və texnologiyalarından istifadənin nəticəsi təşkilata (işin yüksək keyfiyyətli icrasını təmin etmək) və işçilərə (iş və mükafat sisteminin təmin edilməsi) fayda verə bilər. Beləliklə, bu nəzəriyyə manipulyasiyaların konstruktiv ola biləcəyinə inanmağa imkan verir ki, onların həyata keçirilməsinin mövzusu təkcə öz xeyrinə deyil, həm də gizli şəkildə təsir etmək istədiyi şəxs üçün faydaya malikdir.

Bununla belə, bəzi alimlər manipulyasiyaya psixoloji təsir kimi baxırlar, bunun məharətlə həyata keçirilməsi başqa bir insanda onun faktiki mövcud istəkləri ilə üst-üstə düşməyən niyyətlərin gizli ortaya çıxmasına gətirib çıxarır. Onlar manipulyasiyanı psixoloji təsirin ən geniş yayılmış və humanist vasitələrindən biri hesab edirlər, çünki bu, zorakılıqdan qaçmağa və mənəvi cəhətdən şübhəli də olsa, dinc yolla istənilən nəticəni əldə etməyə imkan verir. Onlar bu fenomeni cəmiyyətin qərarlarına, rəylərinə və sosial davranışlarına təsir göstərən sosial və kommunikativ akt kimi qəbul edirlər. Belə çıxır ki, manipulyasiya sosial aktyorlar arasında ünsiyyət üçün stimul, motivasiya da ola bilər.

Nəticə. Yekun olaraq, tədqiqat nümayiş etdirir ki, ictimai şüurun manipulyasiyası informasiya-kommunikasiya texnologiyalarının inkişafı və siyasi mühitdə baş verən dəyişikliklərlə sıx bağlı olan mürəkkəb və çoxşaxəli hadisədir. İnternet, kütləvi informasiya vasitələri və mobil rabitə vasitəsilə informasiya axınının sürətlənməsi insanların emosiyalarına, iradəsinə və sosial davranışlarına gizli təsir göstərmək üçün yeni imkanlar yaradır. "Manipulyasiya" anlayışının leksik-semantik və tarixi təhlili, eləcə də manipulyasiya, inandırma, təklif və təsir arasındakı fərq onun fəaliyyət mexanizmlərini daha yaxşı anlamağa imkan verir. Klassiklərin və müasir tədqiqatçıların əsərlərində təqdim olunan elmi yanaşmalar manipulyasiyanın həm mənfi, həm də konstruktiv tərəflərini, o cümlədən "müsbət manipulyasiya" anlayışını göstərir ki, bu da onun sosial praktikada və siyasətdə etik və məqsədyönlü tətbiqi üçün perspektivlər açır.

ƏDƏBİYYAT

1. Kamassa M. Socio-political manipulation – incidental pathology or immanent component of international realm?/ Przeglad Stratigiczny Adam Mickiewicz University. 2012. No2. P. 171-189.
2. Лебон Г. Психология масс. Мн.: Харвест, М.: АСТ 2000. 320 с.

3. Gasset, Jose Ortega Y. The revolt of the masses. Publisher George Allen and Unwin, London. 1932, p.138.
4. Грамши А. Избранные сочинения: в 3 т. Т. 3. Тюремные тетради. М.: Изд-во иностр. лит, 1959. 558 с.
5. Кара-Мурза С. Г. Манипуляция сознанием. М.: Эксмо, 2012. 256 с.
6. Machiavelli Niccolo. The-Prince-en-1513-239 p. https://dn790003.ca.archive.org/0/items/MachiavelliNiccoloThePrinceEN1513239P./Machiavelli%2C%20Niccolo%20%20The%20Prince%20%28EN%2C%201513%2C%20239%20p.%29.pdf [10.06.2025].
7. Van Dijk T. Discourse and manipulation. Discourse & Society. 2006. Vol. 17(2). P. 359-383.
8. Holiday R. What is Media Manipulation? A Definition and Explanation. URL: https://www.forbes.com/sites/ryanholiday/2012/07/16/what-is-media-mani-pulation-a-definition-andexplanation/#1d060c439 [10.06.2025].
9. Zivaljevic A. Positive Manipulation as a Base for Constant Motivation at the Workplace. February 25, 2011. URL: https://www.managementexchange.com/hack/positive-manipulation-base-constant-motivation-workplace. [10.06.2025].

ЭЛЬВИН ТАЛЫШИНСКИЙ
Доктор философии по политическим наукам, доцент
Зав.кафедрой «Политические и общественные науки»
Азербайджанского университета

МАНИПУЛЯЦИЯ СОЗНАНИЕМ КАК ПСИХОЛОГИЧЕСКОЕ ОРУЖИЕ ИНФОРМАЦИОННОЙ ВОЙНЫ

В статье рассматривается феномен манипуляции общественным сознанием через призму развития информационно-коммуникационных технологий и их влияния на политическую систему. Отмечается, что резкое увеличение потока информации в результате бурного развития Интернета, средств массовой информации и мобильной связи расширяет возможности скрытого воздействия на эмоции, волю и социальное поведение людей. Представлен лексико-семантический и исторический анализ понятия «манипуляция», выявлены различия между понятиями «манипуляция», «убеждение», «внушение» и «воздействие». В исследованиях Г.Лебона, Х.Ортеги-и-Гассета, А.Грамши, Г.Лассуэлла, а также Х.Франке, Г.Шиллера и Т. ван Дейка особое значение придаётся научным подходам к изучению манипуляции. Выделяются как негативные, так и конструктивные аспекты манипуляции, в том числе концепция «позитивной манипуляции», предложенная А.Живалевичем.

Ключевые слова: манипуляция, общественное сознание, информационно-коммуникационные технологии, влияние, позитивное манипулирование

ELVİN TALISHINSKY
PhD in Political Science, Associate Professor
Head of the Department of Political and Social Sciences
Azerbaijan University

MANIPULATION OF CONSCIOUSNESS AS A PSYCHOLOGICAL WEAPON OF INFORMATION WARFARE

The article examines the phenomenon of manipulation of public consciousness through the prism of the development of information and communication technologies and their impact on the political system. It is noted that a sharp increase in the flow of information as a result of the rapid development of the Internet, mass media and mobile communications expands the possibilities of hidden influence on people's emotions, will and social behavior. The lexical-semantic and historical

analysis of the concept of “manipulation” is presented, the differences between the concepts of “manipulation”, “persuasion”, “suggestion” and “influence” are revealed. In the studies of G. Le Bon, J.Ortega y Gasset, A.Gramsci, G.Lasswell, as well as H.Franke, G.Schiller and T. van Dijk, special attention is paid to scientific approaches to the study of manipulation. Both negative and constructive aspects of manipulation are highlighted, including the concept of “positive manipulation” proposed by A.Zhivalevich.

Keywords: manipulation, public consciousness, information and communication technologies, influence, positive manipulation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 iyul 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Habil Məmmədov, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 32:93/94

ŞƏHLA XƏLƏFOVA
Azərbaycan Dillər Universiteti
xalafovasahla@gmail.com

BMT-NİN QLOBAL İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İŞTİRAKI (COP-29-UN NÜMUNƏSİNDƏ)

DOI: https://doi.org/10.36719/2708-065X/110/257-261

"Azərbaycan Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu ölkədir-biz müxtəlif beynəlxalq faktorlar arasında körpülər qura bilərik".

Azərbaycan Respublikası prezidenti İlham Əliyev.

Məqalədə 2024-cü ilin noyabrın 11-dən 22-dək Bakıda keçirilmiş 29-cu Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri Konfransı araşdırılır. Konkpet faktlar əsasında bu konfransda əsas müzakirə mövzusu olan inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizə üçün maliyyə dəstəyi göstərməsi məsələsi, 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin hər il ən azı 300 milyard ABŞ dolları məbləğində maliyyə vəsaiti ayırması qərarı, karbon kreditləri üçün qaydaların müəyyənləşdirilməsi ilə bağlı irəliləyiş əldə edilməsi və bu ölkələrin karbon emissiyalarını azaldaraq maliyyə vəsaiti cəlb etmələrinə və ya ticarət etmələrinə imkan verməsi kimi məsələlər öyrənilir.

Açar sözlər: Konfrans, istixana, emissiya, antropogen, konvensiya, adaptasiya, saziş, iqlim dəyişikliyi.

Giriş. COP (Tərəflər Konfransı) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası çərçivəsində yaradılmış ali qərarverici orqandır. Bu konfransın əsas məqsədi iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığı genişləndirmək və istixana qazı emissiyalarını azaltmaqdır. Çərçivə konvensiyası 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən BMT-nin Ətraf Mühit və İnkişaf üzrə konfransında qəbul edilmişdir. Konvensiyanın məqsədi istixana qazlarının atmosferdəki konsentrasiyasını təhlükəli antropogen müdaxilənin qarşısını alan səviyyədə sabitləşdirməkdir [1, s.211]. COP-un ilk sessiyası 28 mart - 7 aprel 1995-ci ildə tarixlərində Berlində keçirilmişdir. Həmin dövrdən COP hər il təşkil olunur və konvensiyaya tərəf olan ölkələrin nümayəndələrini bir araya gətirir.Tərəflər konfransının funksiyalarına iqlim dəyişikliyi ilə mübarizə sahəsində beynəlxalq siyasəti və tədbirləri müəyyənləşdirmək, istixana qazı emissiyalarının azaldılması üçün öhdəliklər və mexanizmlər yaratmaq, iqlim dəyişikliyinin təsirlərinə qarşı uyğunlaşma tədbirlərini təşviq etmək, inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstək göstərmək daxildir [2, s.172].

Tərəflər konfransı çərçivəsində qəbul edilmiş əsas razılaşmalardan biri 2015-ci ildə 21-ci sessiyada qəbul edilmiş Paris sazişidir. Sazişin məqsədi qlobal temperatur artımını sənaye öncəsi dövrlə müqayisədə 2°C-dən aşağıda saxlamaq və mümkün qədər 1.5°C ilə məhdudlaşdırmaqdır.COP sessiyaları iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərin əlaqələndirilməsi və gücləndirilməsi üçün vacib platformadır [2, s.180].

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası 2024-cü ilin noyabrında Bakıda keçirilib. Tədbirdə 75.984 nəfər iştirakçı qeydiyyatdan keçmişdi ki, onun 57.160 nəfəri xarici nümayəndələr olmaqla 197 ölkə konfransda təmsil olunmuşdu . Bu COP-26 (44.165 iştirakçı) və COP-27 (54.109 iştirakçı) ilə müqayisədə daha yüksək iştirakçı sayını göstərdi. COP-29-un açılışı və başladığı gün BMT-nin baş katibi A.Qutyerreş Bakıda olmuş,sessiyada çıxış etmişdi. Konfransda dünya liderləri, mütəxəssislər, vətəndaş cəmiyyəti nümayəndələri və digər maraqlı tərəflər bir araya gələrək iqlim dəyişikliyi ilə mübarizə sahəsində müzakirələr apardı. COP-29-un məqsədi iqlim dəyişikliyinin qarşısını almaq, adaptasiya tədbirləri görmək və maliyyə resurslarını təmin etmək üçün beynəlxalq səyləri gücləndirmək idi. Bu cəhətdən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin acılış mərasimindəki çıxışıda diqqət çəkir. Belə kı, Prezident Əliyev COP-29-un Bakıda keçirilməsini Azərbaycanın dünya siyasətində rolunun və ölkəyə olan hörmətin təzahürü

kimi qiymətləndirdi. O, Azərbaycanın Şərq və Qərbin, Şimal və Cənubun kəsişdiyi bir ölkə olduğunu vurğulayıb müxtəlif beynəlxalq tərəfdaşlar arasında körpü rolunu oynamağa davam edəcəyini bildirdi. İlham Əliyev çıxışında neft və qazın "Allahın hədiyyəsi" olduğunu qeyd edərək, bu təbii sərvətlərə görə ölkəsini tənqid etməyin ədalətli olmadığını bildirdi. O, neft və qazın bazarda tələb olduğunu və insanların bu resurslara ehtiyacı olduğunu vurğuladı.

Prezident İlham Əliyev yaşıl keçidi dəstəklədiklərini, lakin onun real yanaşma ilə həyata keçirilməsinin zəruriliyini qeyd etdi. O, ölkəsinin yaşıl enerji layihələrinə investisiya yatızdırdığın, lakin bu keçidin mərhələli və balanslı olmasının zəruriliyini vurğuladı. İlham Əliyev bəzi Qərb ölkələrinin Azərbaycanın neft və qazını alıb, eyni zamanda ölkənin fosil yanacaqlardan asılılığını tənqid etməsini "ikiüzlülük" və "siyasi hipokritlik" kimi qiymətləndirdi. O, ABŞ-ı və Avropa İttifaqını bu mövzuda xüsusilə tənqid etdi. Prezident İlham Əliyev Azərbaycanın BMT-nin Təhlükəsizlik şurasının qeyri-üzv ölkələr qrupunun sədri olduğunu və bu vəzifədə 120 ölkənin yekdil qərarı ilə seçildiyini xatırlatdı. O, Azərbaycanın həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr arasında körpü rolunu oynamağa davam edəcəyini bildirdi [3, s.1]. Prezident İlham Əliyevin çıxışı Azərbaycanın enerji siyasətini və xarici ölkələrlə münasibətləri əks etdirən mühüm bir bəyanat oldu. Prezident ölkəmizin təbii sərvətlərini müdafiə və beynəlxalq tənqidlərə qarşı mövqeyini sərt şəkildə ifadə etdi. Prezdent İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə görəcəyi tədbirləri açıqladı,bildirdi ki,2030-cu ilə qədər elektrik enerjisinin 30 %-ni bərpa olunan enerji mənbələrindən – günəş, külək, hidro – təmin etməyi planlaşdırır. Azərbaycan Resublikasının Xəzər dənizində külək enerjisi potensialını artırıb bu enerjini Avropa ölkələrinə ixrac etmək niyyətindədir. Fosil yanacaqlara əlavə bir vergi tətbiq etmək planını ləğv edib COP-29 zamanı kasıb ölkələr üçün yaşıl investisiyalara yönəlmiş 1 milyard ABŞ dolları məbləğində iqlim fondu yaratmağı təklif etdi. Ölkə 29-cu sessiyası çərçivəsində “Climate Finance Action Fund” (CFAF) adlı yaradığı iqlim fondu gələcəkdə neft-qaz ölkələrinin və şirkətlərin könüllü töhfələri vasitəsilə yaşıl layihələr həyata keçiriləcək. Milli İqlim Planı çərçivəsində emissiyaların azaldılması üzrə 2030-cu il üçün hədəfi artırmaq və 2050-ci ilə qədər 1990-a nisbətən 40 %-lik azalma təmin etmək üzərində işləyir. Süni olaraq beynəlxalq müəssisələrlə – BP, Masdar və digər strateji tərəfdaşlarla ortaq günəş, külək və hidrolayihələr (məsələn, 240 MW “Şəfəq” Cəbrayıl) həyata keçiriləcək.Zəlzələ, quraqlıq, daşqın kimi iqlim təsirlərinə uyğunlaşma tədbirləri gücləndiriləcək; enerji səmərəliyi iki dəfə artırılacaq. UN-nin “Loss & Damage” fondu aktivləşdiriləcək, çünki iqlim dəyişikliyi nəticəsində zərər çəkən inkişaf etməkdə olan ölkələrə dəstək verilməlidir .Bu tədbirlər Azərbaycan Respublikasının iqlim siyasətində real addımlar, maliyyə dəstəyi, enerji keçidi və beynəlxalq əməkdaşlıq baxımından strateji xəritəsidir [3, s.10].

Tərəflər konfransının 29-cu sessiyasında yeni bir maliyyə hədəfi – Yeni Kollektiv Kəmiyyətləşdirilmiş İqlim Maliyyələşməsi Məqsədi qəbul edildi. Bu qərar inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizədə dəstək olmaq məqsədilə 2035-ci ilə qədər illik 300 milyard ABŞ dolları məbləğində maliyyə vəsaitinin səfərbər edilməsini nəzərdə tutur.Bu yeni hədəf əvvəlki illik 100 milyard dollar məbləğində öhdəliyin üç qatına bərabərdir və inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlılığını artırmaq, təmiz enerji keçidini sürətləndirmək və karbon emissiyalarını azaltmaq üçün nəzərdə tutulmuşdur [4, s.2]. COP-29-da "Bakı Maliyyə Məqsədi" adlı daha geniş bir təşəbbüs qəbul edildi. Bu təşəbbüs 2035-ci ilə qədər həm dövlət, həm də özəl sektor mənbələrindən illik 1.3 trilyon ABŞ dolları məbləğində iqlim maliyyələşməsini həzərdə tutur. Məqsəd inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə daha geniş və səmərəli tədbirlər görməsini təmin etməkdir. 29-cu sessiya iqlim dəyişikliyinin təsirlərinə qarşı daha həssas ölkələrə, xüsusilə kiçik ada dövlətlərinə və zəif inkişaf etmiş ölkələrə xüsusi diqqət yetirib maliyyə vəsaitlərinin əlçatanlığını və şəffaflığını təmin etməyi öhdəlik kimi qəbul etdi. Bu yeni maliyyə hədəfləri qlobal iqlim maliyyələşməsi arxitekturasında əhəmiyyətli bir dönüş nöqtəsi kimi qiymətləndirilir və inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə daha güclü və dayanıqlı tədbirlər görməsinə imkan yaradacaq [5, s.3].

Paris Sazişinin 6.4-cü maddəsi, beynəlxalq karbon kreditləşdirmə mexanizmi olan Paris Sazişi Kreditləşdirmə Mexanizmini təsis etmişdir. Bu mexanizm ölkələrin təsdiqlənmiş emissiya azaldılması və ya karbonun çıxarılması layihələri vasitəsilə karbon kreditləri yaratmasına və bu kreditləri digər ölkələrə satmasına imkan verir. Beləliklə, ölkələr öz Milli Müəyyən Edilmiş Töhfələrinə nail olmaq

üçün beynəlxalq əməkdaşlıqdan faydalana bilər [6, s.155]. COP29-da 6.4-cü maddənin həyata keçirilməsi üçün əsas standartlar qəbul edildi. Bu standartlar karbon kreditlərinin keyfiyyətini və etibarlılığını təmin etmək məqsədilə layihələrin metodologiyasını, emissiya azaldılmalarının və ya çıxarılmalarının qiymətləndirilməsini və insan hüquqları ilə bağlı tədbirləri əhatə edir. Bu qərarlar qlobal karbon bazarının formalaşmasında mühüm addım hesab olunur və karbon kreditlərinə olan inamı artırmaqla yanaşı, karbon azaldılması təşəbbüslərinə investisiyaları təşviq edir [6, s.170]. 6.4-cü maddənin həyata keçirilməsi inkişaf etməkdə olan ölkələr üçün maliyyə imkanlarını genişləndirir və onların iqlim dəyişikliyi ilə mübarizə və uyğunlaşma tədbirlərini həyata keçirmələrinə dəstək verir. Bu mexanizm həmçinin təbii iqlim həlləri kimi layihələrin maliyyələşdirilməsini təşviq edib ekosistemlərin qorunmasına və bərpasına töhfə verir. Bəzi tənqidçilər 6.4-cü maddənin tətbiqində potensial boşluqların mövcud olduğunu və bu mexanizmin karbon azaldılması məqsədlərinə çatmaq əvəzinə bəzi hallarda əks təsir göstərə biləcəyini qeyd edirlər. Bu səbəbdən mexanizmin səmərəli və ədalətli şəkildə həyata keçirilməsi üçün ciddi nəzarət və şəffaflıq təmin edilməlidir. Ümumilikdə, Paris Sazişinin 6.4-cü maddəsi qlobal karbon bazarının inkişafında və iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli bir alət olaraq qəbul edilir. Onun uğurlu tətbiqi ölkələrin iqlim hədəflərinə çatmasına və qlobal istiləşmənin məhdudlaşdırılmasına töhfə verir [7, s.9].

COP-29 zamanı iqlim dəyişikliyindən ən çox təsirlənən ölkələrin maliyyə vəsaitlərinə çıxışını asanlaşdırmaq məqsədilə "Zəif Vəziyyətdə Olan Ölkələrin Şəbəkəsi" yaradıldı. Bu şəbəkə iqlim maliyyələşməsi institutları ilə əməkdaşlıq etmək, üzv dövlətlərdə maliyyə vəsaitlərinin mənimsənilməsini artırmaq və investorlar üçün yüksək təsirli layihələri asanlıqla tapmaq üçün ölkə platformaları yaratmaq məqsədi daşıyır. Bundan əlavə, "Qlobal Qoruma" təşəbbüsü çərçivəsində, iqlim risklərinə qarşı əvvəlcədən maliyyələşdirmə və sığorta mexanizmləri vasitəsilə zəif vəziyyətdə olan ölkələrə dəstək göstərilməsi planlaşdırılır. Bu təşəbbüs iqlim və fəlakət risklərinə qarşı maliyyə və sığorta strukturlarının qurulması, qoruma boşluqlarının müəyyənləşdirilməsi və uyğun maliyyələşdirmə həllərinin inkişaf etdirilməsi məqsədini daşıyır. COP-29-un nəticələri zəif vəziyyətdə olan ölkələrin iqlim dəyişikliyinin təsirlərinə qarşı mübarizədə daha güclü və dayanıqlı tədbirlər görməsinə imkan yaratmaq üçün atılmış mühüm addımlar kimi qiymətləndirilir. Eyni zamanda bu ölkələr üçün maliyyə vəsaitlərinin həcmi və əlçatanlığının artırılması istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir [8, s.198].

Tərəflər konfransının 29-cu sessiyasında fosil yanacaq lobbilərinin təsiri ciddi narahatlıq doğurdu.Tədbirdə 1773 kömür, neft və qaz lobbiçisi iştirak edirdi. Bu konfransda ən böyük nümayəndə heyətlərindən biri edər. Bu rəqəm iqlim dəyişikliyindən ən çox təsirlənən on ölkənin nümayəndələrinin ümumi sayını (1033 nəfər) belə üstələdi. Lobbiçilərin əksəriyyəti ExxonMobil, Shell, BP və TotalEnergies kimi böyük enerji şirkətlərinin nümayəndələri idi. Bəzi ölkələr, məsələn Belçika rəsmi nümayəndə heyətinə fosil yanacaq şirkətlərinin nümayəndələrini daxil etmişdi. Bu lobbiçilərə danışıqlarda daha çox təsir imkanı verdi və şəffaflıqla bağlı suallar doğurdu. COP29-un təşkilat komitəsində fosil yanacaq təmsilçilərinin olması əlavə narahatlığa səbəb oldu. Bu hadisələr iqlim danışıqlarında fosil yanacaq lobbsinin təsirini azaltmaq və danışıqların şəffaflığını artırmaq üçün daha sərt tədbirlərin görülməsi zərurətini yaratdı.

COP-29-a rəhbərlik və onun olunması Azərbaycan Respublikası və onun prezidenti İlham Əliyev tərəfindən həyata keçirildi. Konfransın prezidenti vəzifəsini Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev icra etmişdi. O, SOCAR-da uzun illər ərzində ekologiya üzrə vitse-prezident vəzifəsində çalışmışdı. M.Babayevin rəhbərliyi altında COP-29-un əsas prioritetləri iqlim maliyyələşməsi, şəffaflıq və inklüzivlik idi. O, "COP-29 Prezidentinin Dostları" forumunu təsis və müxtəlif maraqlı tərəflərin danışıqlarda iştirakını təmin etdi. Konfransın baş danışıqlarçısı Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Y.Rəfiyev idi. O, 198 tərəf ölkə ilə danışıqları koordinasiya etmiş və ədalətli, şəffaf prosesin təmin olunmasına çalışmışdı. COP-29-un baş icraçı direktoru vəzifəsini Azərbaycanın energetika nazirinin müavini E.Soltanov icra etmişdi. O, konfransın gündəliyinin həyata keçirilməsinə cavabdeh idi. Konfransın əməliyyat direktoru vəzifəsini N.Cərçəlova icra etmişdi. O, COP29-un təşkilati məsələlərini və dayanıqlı icrasını təmin etmişdi. Milli Məclisin deputatı N.Arpadarai qeyri-dövlət aktorlarını iqlim tədbirlərinə cəlb etmək və özəl sektorla əməkdaşlığı gücləndirmək məqsədilə fəaliyyət göstərmişdi. L.Həsənova COP-29-un Gənclər üzrə İqlim Dəyişikliyi Çempionu

kimi gənclərin iqlim məsələlərində iştirakını təşviq etmişdi. COP-29-un Təşkilat Komitəsi Azərbaycan Prezidenti İlham Əliyevin 13 yanvar 2024-cü il tarixli sərəncamı ilə yaradılmışdı. Komitənin sədri Prezident Administrasiyasının rəhbəri S.Nuriyev idi. Əvvəlcə yalnız kişilərdən ibarət olan komitənin tərkibi sonradan genişləndirilib qadınların və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı təmin edildi. COP-29-un liderliyi və idarəetməsi Azərbaycan Respublikasının iqlim dəyişiklikləri ilə mübarizədə qlobal səylərə töhfə vermək və inklüziv, şəffaf bir prosesi təmin etmək məqsədi daşıyırdı [9, s.1].

COP-29-un Bakıda keçirilməsi bir sıra geosiyasi gərginliklər və mübahisələrlə müşayiət olundu. Azərbaycan Respublikasının ev sahibliyi etdiyi bu tədbir regional münaqişələr və beynəlxalq münasibətlərdəki gərginliyi iqlim danışıqlarına daşıdı.Azərbaycan COP29-da bərpa olunan enerji layihələrini, xüsusilə Dağlıq Qarabağ bölgəsində həyata keçirilən günəş və külək enerjisi stansiyalarını ön plana çıxardı. Azərbaycan bu layihələrin regional enerji təhlükəsizliyinə töhfə verəcəyini və sülhə xidmət edəcəyini bildirdi. COP-29-da Rusiya Ukraynanın işğal olunmuş bölgələrindəki emissiya məlumatlarını öz hesabatına daxil etdi. Bu addım Ukrayna tərəfindən suverenliyə təcavüz kimi qiymətləndirildi və beynəlxalq hüquq normalarının pozulması kimi tənqid olundu. Bu məsələlər iqlim ədaləti və insan hüquqları arasında sıx əlaqənin vurğulanmasına səbəb oldu. COP-29 iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın zəruriliyini bir daha göstərdi [10, s.1].

COP-29-un yekunları gələcək iqlim siyasətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bakıda keçirilən sessiyada qəbul edilən qərarlar, iqlim maliyyələşməsi, adaptasiya və karbon bazarları sahəsində yeni istiqamətlər müəyyən edildi.Əsas nailiyyətlərdən biri inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar iqlim maliyyələşməsi təmin etməyi öhdələrinə götürməsidir. İştirakçılar tərəfindən illik 1.3 trilyon dolların səfərbər edilməsi məqsədi ilə "Bakıdan Beləma Yol Xəritəsi" qəbul edildi. Bu vəsaitin həm ictimai, həm də özəl mənbələrdən təmin edilməsi planlaşdırıldı. Lakin bu qərar Hindistan və Nigeriya kimi bəzi inkişaf etməkdə olan ölkələr tərəfindən qeyri-kafi və ədalətsiz hesab edildi. Adaptasiya sahəsində COP-29 "Bakı Adaptasiya Yol Xəritəsi"ni təsdiq etdi. Bu sənəd ölkələrin 2025-ci ilə qədər Milli Adaptasiya Planlarını hazırlamasını və həyata keçirməsini təşviq edir. Bununla yanaşı adaptasiya sahəsində göstəricilərin müəyyən edilməsi və izlənməsi üçün texniki işlərin davam etdirilməsi qərara alındı. Karbon bazarları üzrə COP-29 Paris Sazişinin 6.4-cü maddəsinin həyata keçirilməsi istiqamətində irəliləyişlər əldə etdi. Yeni mexanizmlər karbon kreditlərinin ticarətinin şəffaf və ədalətli şəkildə aparılmasını təmin etməyə yönəlib. Bu inkişaf etməkdə olan ölkələr üçün əlavə maliyyə imkanları yaradır [11, s.1].

